30 aprel 2025-ci il, çərşənbə №3 (65)

YENİ FİKİR

Təsisçi: NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ



NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ AZƏRBAYCANIN ƏN DƏYƏRLİ, QABAQCIL ALİ MƏKTƏBLƏRİNDƏN BİRİDİR.

# CƏNAB PREZİDENTİN BÖYÜK ETİMADI QARŞIYA YENİ VƏZİFƏLƏR QOYUR



"Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyindəki elmi müəssisələrin fəaliyyətinin optimallaşdırılması və səmərəliliyinin artırılması ilə bağlı əlavə tədbirlər" haqqında Azərbaycan Respublikası Prezidentinin imzaladığı Sərəncam ölkəmizdə elm və təhsilin sistemli və faydalı inteqrasiyasını təmin etmək üçün aparılan məqsədyönlü islahatların davamı, bu istiqamətdə atılan növbəti mühüm addımdır. Keçmiş Sovetlər Birliyində elm və təhsilin xüsusi istiqamətlər kimi bir-birindən ayrılması daim vəhdətdə olan bu sahələrin arasında əlaqənin zəifləməsinə gətirib çıxarmışdır. Bununla elmi müəssisələrdə əldə olunan mühüm nəticələri praktikaya tətbiq etmək imkanları, ali təhsil müəssisələrinin isə praktik təhsil fəaliyyətlərini nəzəri cəhətdən davamlı və sistemli zənginləşdirmək imkanları məhdudlaşmışdır. Cənab Prezidentin son illərdə elm və təhsil müəssisələrinin fəaliyyətinin inteqrasiya etdirilməsi məqsədi ilə imzaladığı sərəncamlar, qəbul edilən qərarlar bu boşluğu aradan qaldırmaq, ali təhsil müəssisələrinin elmi tədqiqat imkanlarını genişləndirmək imkanı yaratmışdır. Bu addımlar atılarkən ölkədəki bir sıra ali təhsil müəssisələrinin tədqiqat universitetlərinə çevrilmə potensialı dəyərləndirilmişdir. Belə universitetlərdən biri də ölkəmizin qabaqcıl ali təhsil müəssisələrindən sayılan Naxçıvan Dövlət Universitetidir.

Cənab Prezidentin son sərəncamı ilə Naxçıvan Dövlət Universitetinin tabeliyinə verilən Təbii Ehtiyatlar İnstitutu, Bioresurslar İnstitutu və Batabat Astrofizika Rəsədxanası kimi elmi müəssisələr ali təhsil müəssisəsinin elmi fəaliyyətinin zənginləşdirilməsində mühüm rol oynayacaqdır. Bu addım universitetin elmi potensialını artırmaqla yanaşı, təhsildəki keyfiyyəti daha da yüksəldəcək, eyni zamanda Azərbaycan elminin inkişafına önəmli töhfə verəcəkdir. Nəzərə almaq lazımdır ki, dünya təcrübəsində elmi tədqiqat institutları universitetlərdə təkcə elmi tədqiqatların aparılması funksiyasını yerinə yetirmir, həm də əldə olunan nəticələrin tədris prosesinə tətbiqi baxımından mühüm yer tuturlar. Bu institutlar universitetlərin elmi fəaliyyətinə güc qatmaqla yanaşı, təhsil sahəsində də innovativ yanaşmaları tətbiq etməkdə böyük rol oynayırlar. Bu baxımdan Naxçıvan Dövlət Universitetinin strukturuna daxil edilmiş hər üç elmi müəssisədə bu prosesi uğurla yerinə yetirə biləcək elmi potensial formalaşmışdır. Bu elmi potensial Naxçıvan Dövlət Universitetinin son illərdə yüksələn elmi nəticələrini daha da zənginləşdirəcəkdir. Qeyd etmək lazımdır ki, Naxçıvan Dövlət Universiteti son illərdə əldə etdiyi müsbət elmi nəticələrlə diqqət çəkir. Universitetin Elmi Kitabxanası 170 mindən çox kitab, monoqrafiya, dərslik, dövri nəşrlər, dissertasiyalar və digər qiymətli çap materialları ilə zəngindir. Bu resurslar tələbələr və akademik heyət üçün böyük bir elmi baza təşkil edir. 2024-cü ildə kitabxanaya 1327 adda 2596 sayda yeni kitab daxil olub və 2674 kitabın elektron forması hazırlanmışdır. Eyni zamanda tədqiqatçılara EBSCO, Clarivate şirkətinin təqdim etdiyi 6 baza və Taylor&Francis kimi beynəlxalq elektron bazalara giriş imkanı yaradılıb.

2024-cü ildə universitet elmi fəaliyyətində fərqlənən əməkdaşları və doktorantları xüsusi olaraq mükafatlandırıb. Bu nüfuzlu və impakt faktorlu jurnallarda nəşr olunan məqalələrə, elmmetrik göstəricilərə, H indeksinə və istinad saylarına əsaslanmaqla həyata keçirilib. Universitetdə differensial əməkhaqqı tətbiq olunmaqla yanaşı, fəaliyyət göstərən elm adamları nüfuzlu bazalarda indeksləşən hər bir elmi nəşr üçün müəyyən məbləğdə maddi mükafatlarla təltif olunublar. Bu cür addımlar universitetdə elmi fəaliyyəti stimullaşdırır və akademik heyətin daha yüksək nəticələr əldə etməsinə səbəb olur.

2024-cü ildə Naxçıvan Dövlət Universiteti xarici ölkələrlə əməkdaşlığını daha da genişləndirərək Türkiyə, Özbəkistan, Qırğızıstan və Macarıstan kimi ölkələrin nüfuzlu universitetləri və elmi tədqiqat müəssisələri ilə ikitərəfli əməkdaşlıq müqavilələri bağlamışdır. Bu əməkdaşlıqlar universitetin beynəlxalq aləmdə daha çox tanınmasına, elmi tədqiqatlarının daha geniş auditoriyaya çatdırılmasına və həmçinin beynəlxalq layihələrdə iştirakına imkan yaratmışdır.

Elmi tədqiqatların təhsilə tətbiqi universitetlərin inkişafında mühüm rol oynayır. 2024-cü ildə universitetin alimləri tərəfindən bir sıra mühüm elmi nəticələr əldə edilmiş, bunlar monoqrafiyalar, dərsliklər, beynəlxalq və respublika jurnallarında nəşr olunmuş məqalələr kimi müxtəlif formalarda tədrisə və istehsalata tətbiq edilmişdir. Bu tədqiqatlar yalnız nəzəri biliklərin genişlənməsinə deyil, həm də praktiki fəaliyyətə yönəldilmişdir. 2024-cü ildə universitetin Scopus və Web of Science bazalarında elmi nəşrlərinin sayı xeyli artmışdır, xüsusən Scopus bazasında nəşr olunan məqalələrin sayı 2019-2023-cü ilin bu bazalardakı bütün nəşrlərinin cəmindən çoxdur. Bu, universitetin beynəlxalq elmi əlaqələrinin gücləndiyini və ölkənin elmi potensialının daha da artdığını göstərir.

Cənab Prezidentin məlum Sərəncamı 2025-ci il üçün Naxçıvan Dövlət Universitetinin elm sahəsində əsas hədəflərinin reallaşdırılmasına yeni imkanlar açır. Universitetimizin 2025-ci ildə qarşıya qoyduğu hədəflər sırasında elmi-tədqiqat mərkəzlərinin və laboratoriyaların fəaliyyətinin gücləndirilməsi, maddi-texniki bazanın möhkəmləndirilməsi, elmi işlərin səmərəliliyinin artırılması və nəticələrin tədris və istehsalatda tətbiqinin genişləndirilməsi prioritet olaraq müəyyənləşdirilmişdir.

Beləliklə, Təbii Ehtiyatlar İnstitutu, Bioresurslar İnstitutu və Batabat Astrofizika Rəsədxanasının tabeliyə verilməsi ölkə başçısının Naxçıvan Dövlət Universitetinə göstərdiyi böyük etimaddır. Bu, universitetin elmi inkişafını, akademik heyətin və təhsilalanların elmi potensialını və beynəlxalq elmi əməkdaşlıqlarını daha da gücləndirəcək.

Adıçəkilən elmi müəssisələr universitetin elmi profilini daha da zənginləşdirməklə Naxçıvanın təbii sərvətləri, bioloji resursları və kosmik tədqiqatlarının inkişafına böyük töhfə verəcək. İnanırıq ki, Naxçıvan Dövlət Universitetinə qoşulan Təbii Ehtiyatlar İnstitutu Naxçıvanın təbii ehtiyatlarının səmərəli istifadəsi, Bioresurslar İnstitutu biomüxtəlifliyin tədqiqi və qorunması, Batabat Astrofizika Rəsədxanası isə kosmik tədqiqatlar sahəsində elmi tədqiqatları gücləndirəcək və elmimizə yeni-yeni nailiyyətlər qazandıracaqdır.

***Elbrus İSAYEV***
***Naxçıvan Dövlət Universitetinin rektoru***

# Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev media üçün brifinq keçirib

Rektor əvvəlcə "Naxçıvan Dövlət Universitetində 2024-cü ilin yekunları və 2025-ci il üzrə prioritetlər" barədə geniş məlumat verib.

Brifinqdə təqdimatla çıxış edən Elbrus İsayev NDU-da elmi fəaliyyətin və tədrisin təşkili, tələbəyönümlü təhsil proqramları, beynəlxalq elm mühitinə inteqrasiya imkanları, ötən dövr ərzində Dövlət proqramının icrası istiqamətində reallaşdırılmış layihələr və görüləcək işlər, tədris prosesinin elektronlaşdırılması, əsas strateji inkişaf prioritetləri, universitetin beynəlxalq reytinqlərdə mövqeyi və təhsilin digər aktual mövzuları barədə ətraflı məlumat verib. Rektor vurğulayıb ki, Naxçıvan Dövlət Universiteti ölkədə yeganə kampuslu universitet olub, 10 fakültə, 45 kafedra, Magistratura və Doktorantura mərkəzi, Əcnəbi təhsilalanlarla iş və hazırlıq Mərkəzi, 3 kollec (Naxçıvan Musiqi Kolleci, Naxçıvan Texniki Kolleci və Naxçıvan Tibb Kolleci), 1 beynəlxalq məktəb (NDU Beynəlxalq Kembric Məktəbi) və 1 gimnaziyası (İngilis dili Təmayüllü Gimnaziya) olan müasir tipli və çoxprofilli təhsil sisteminə malik ali təhsil müəssisəsidir.

Naxçıvan Dövlət Universitetinin beş illik strateji inkişaf planından bəhs edən rektor 2023-2027-ci illəri əhatə edən əsas strateji inkişaf prioritetləri kimi təhsil, tədqiqat, beynəlmiləlləşmə və resurslar müəyyənləşdirildiyini, ümumilikdə ali təhsil ocağının tədqiqat universitetinə çevrilməyi hədəflədiyini vurğulayıb və universitetin son 5 illik fəaliyyəti dövründə əldə olunan nailiyyətlərdən söz açıb, xüsusilə 2024-cü ildə bütün istiqamətlərdə irəliləyişlər olduğunu, yüksək göstəricilər qeydə alındığını diqqətə çatdırıb. Qeyd edib ki, 2024-cü il NDU tarixində 2198 nəfər tələbənin təhsilini bitirməsi ilə ali təhsil ocağının ən çox məzun verdiyi il olub. Həmçinin 2024-cü ildə Dövlət İmtahan Mərkəzinin ölkə üzrə keçirdiyi dövlət qulluğuna qəbul imtahanlarında NDU-nun məzunları ən yüksək nəticəni göstərərək universiteti lider ali məktəbə çeviriblər.

Rektor Elbrus İsayev Naxçıvan Dövlət Universitetinin 2024-cü ildə növbəti 5 illik fəaliyyətinə lisenziya verilməsi üçün TKTA tərəfindən akkreditasiya olunduğunu bildirib və universitetin 2024-cü il ərzində əldə etdiyi bir çox uğurları nəzərə çatdırıb.

Vurğulayıb ki, hazırda NDU-da bakalavr, magistratura, rezidentura və doktorantura daxil olmaqla 250-yə yaxın proqram üzrə hazırlıq aparılır. Ali təhsil ocağının dünyanın 150-yə yaxın universiteti ilə birbaşa əlaqələri var. Əcnəbi tələbə kontingentinə görə ölkə universitetləri arasında sıralamada öndədir və NDU-da 15 ölkədən 2000-ə yaxın əcnəbi tələbə təhsil alır. Universitetdə Azərbaycan dili ilə yanaşı, tədrisi ingilis dilində olan ixtisaslar da var.

Rektor bildirib ki, universitetdə təhsilin dörd istiqaməti üzrə yüksəkixtisaslı mütəxəssislər hazırlanır. Ali təhsil ocağında kadr hazırlığı ilə 561 nəfər professor-müəllim heyəti məşğul olur. Hər il elmi dərəcəlilərin kadr potensialı artır ki, təkcə 2024-cü ildə bu rəqəm 232 nəfərə çatıb. Halbuki 2020-ci ildə heyətdə elmi dərəcəlilərin sayı 34% idi, hazırda isə bu 41%-dən çoxdur. Təkcə son ildə universitetdə əməkdaşların sayı 10%-dək artıb, bunun da orta hesabla 50%-ni elmi dərəcəlilər təşkil edir.

Rektor Elbrus İsayev brifinqdə 2023-2024-cü tədris ilində Naxçıvan Dövlət Universitetində bakalavr təhsil səviyyəsinə 2 və magistratura təhsil səviyyəsinə 5 yeni ixtisaslar üzrə qəbul barədə məlumatları çatdırıb. Xüsusilə 2024-2025-ci tədris ilindən etibarən tədrisi ingilis dilində olan Tibb ixtisasına diqqət çəkib. Rektor 2024-cü ilin NDU üçün bir sıra strateji hədəflərin uğurlu icrası ilə yadda qaldığını qeyd edib, bütün istiqamətlərdə əldə olunan nəticələr barədə aşağıda sadalanan başlıqlar əsasında statistik məlumatları təqdim edib.

**Hər bir əməkdaşa düşən nəşr sayında artım müşahidə olunub.**

2020-ci ildə universitet üzrə cəmi nəşr sayı 579 olmuşdur ki, 1 akademik heyətə düşən nəşr sayı 1,3 olmuşdur. 2024-cü ildə nəşr sayı 2400-dən çox olmuşdur ki, 1 akademik heyətə düşən nəşr sayı 4,3 olmuşdur. Son 5 ildə nəşr sayı 4 dəfədən çox artmışdır. 1 akademik heyətə düşən nəşr sayı 3,3 dəfə artmışdır ki, bu da əvvəlki illərin ən yüksək göstəricisidir.

**Ardı 2-ci səhifədə**




**Əməkdaşların elmmetrik bazalara qeydiyyatında ciddi artım qeydə alınıb.** 2024-cü ildə NDU alimlərinin Scopusda indekslənmiş məqalələrinin sayı 2023-cü illə müqayisədə 5 dəfə, Web of Science-də indeksləşmiş nəşr sayı 2 dəfə artıb.

**Xarici ölkə əməkdaşları ilə birgə elmi tədqiqatların təşkili aparılıb.** 2024-cü ildə NDU alimlərinin Scopusda indekslənmiş məqalələrinin 44%-i 10 ölkənin, Web of Science-də indekslənmiş məqalələrin isə 57%-i 9 ölkənin alimləri ilə həmmüəllifli yazılıb. Elmi tədqiqatlar kafedralar nəzdində fəaliyyət göstərən tədqiqat mərkəzləri və laboratoriyalarda aparılır.

**NDU həm ölkə, həm də respublika səviyyəli konfransların təşəbbüsçüsü və ev sahibi kimi böyük layihələrə imza atıb.** 2024-cü ildə 27 konqres, konfrans və simpozium keçirilib. Bunlardan 13-ü beynəlxalq, 13-ü respublika, 1-i ali məktəb daxili elmi tədbirlər olub. “Qərbi Azərbaycana qayıdış”, “Tibbi forum”, “Apiterapiya və təbiət”, “İpək yolu”, “Azərbaycan Psixoloqlar Forumu”, “Süni intellekt: nəzəriyyədən praktikaya” kimi layihələr xüsusilə diqqət çəkib. Naxçıvan MR-nin 100 illiyi ilə əlaqədar universitetdə konfrans, konqres, festival və digər təşkilati tərkibli 37 tədbir baş tutub. “Cop 29” çərçivəsində 27 müxtəlif tərkibli fəaliyyət icra edilib. NDU-nun təşkilatçılığı ilə 4 min nəfər gənc məzunun və 40-a yaxın dövlət, özəl qurumların iştirakı ilə ilk dəfə Karyera sərgisi açılıb.

**Universitet əməkdaşlarının elmi göstəricilərində yüksək impakt faktorlu nəşrləri ötən illərlə müqayisədə ciddi artımla izlənilib.** Scopus və Web of Science bazalarında nəşr sayı 63 olub ki, bu da ötən illərlə müqayisədə ciddi artım deməkdir. Scopus və Web of Science məqalələrinin sayı son 5 ildəki nəşrlərin sayından artıq olub. Həmçinin elmi-tədqiqat işlərinin informasiya təminatının təşkil etmək üçün universitetdə “Elmi əsərlər” jurnalı da nəşr olunur.

**NDU-nun beynəlxalq reytinqlərdə yer alması və irəliləməsində konkret nəticələr var.** Belə ki, NDU SDG 2 üzrə dünyanın ən yaxşı 400 universiteti, SDG 4, 7, 10, 15 üzrə ən yaxşı 600 universiteti, SDG 3 üzrə isə ən yaxşı 800 universiteti arasında yer alıb.

**Differensial əməkhaqqıların tətbiqi həyata keçirilir.** 2024-cü ildə “Akademik fəaliyyətin qiymətləndirilməsi mexanizmi” çərçivəsində 50 əməkdaşın əməkhaqqına 1 il müddətində 10-25% stimullaşdırıcı əlavələr edilib. Scopus və Web of Science bazalarındakı hər bir nəşr üçün 1500-2500 manat, digər indeksli xarici nəşrlər üçün 100 manat, Hirş indeksi və istinadlara görə 300-500 manat, hər bir patent üçün 1000 manat məbləğində mükafatlar təqdim olunub. 2025-ci ildə universitet əməkdaşlarının aylıq vəzifə maaşları orta hesabla 15% artırılıb.

**“Naxçıvan Muxtar Respublikasının 2023-2027-ci illərə dair sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı”nın icrası çərçivəsində fəaliyyətlər olub.** NDU nəzdində Gimnaziya açılıb, Kembric Universitetinin lisenziyası əsasında NDU Beynəlxalq Kembric Məktəbi fəaliyyətə başlayıb. Beynəlxalq əməkdaşlıq gücləndirilib. Universitet ilə xarici ölkələrin ali təhsil müəssisələri arasında əməkdaşlıqlar qurulub, birgə proqramların təşkili məqsədilə bir sıra səfərlər həyata keçirilib. Dünyanın Texnologiya lideri olan IBM-lə NDU arasında əməkdaşlıq müqaviləsinə əsasən universitetdə IBM Mərkəzi istifadəyə verilib. Dövlət Proqramı çərçivəsində ölkədə ilk dəfə NDU-da 21 tələbə ilə Tibb ixtisası üzrə SABAH qrupları yaradılıb. NDU-da Tibb tədrisi üzrə ikinci kampus tikilməsi nəzərdə tutulub. Naxçıvan Dövlət Universiteti ilə xarici ölkələrin ali təhsil müəssisələri arasında birgə proqramların təşkili, mövcud “ikili diplom” proqramlarının icra edilməsi, müəllim və tələbələrin mobilliyi, xaricdən akademik heyətin tədrisə cəlb olunması, NDU-nun akademik və köməkçi heyətinin xarici dil bacarıqlarının inkişaf etdirilməsi, NDU-nun IELTS və SAT imtahan mərkəzlərində qrafik üzrə imtahanların uğurla keçirilməsi, IBM mərkəzinin infrastrukturunun təkmilləşdirilməsi, NDU-da təhsil alan əcnəbi tələbələrin sayının artırılması məqsədilə təşviqat işlərinin davam etdirilməsi planlaşdırılıb.

**Naxçıvan Dövlət Universitetində rəqəmsallaşdırma geniş tətbiq olunub.** Onlayn təhsil platformaları, elektron kitabxanalar, tələbə məlumat sistemləri (məsələn, tələbələrin dərs cədvəlləri, qiymətləri və digər məlumatlarına onlayn çıxış) və virtual laboratoriyalar yer alıb ki, bu platformalar həm tələbələr, həm də müəllimlər üçün tədris və idarəetmə proseslərini asanlaşdırıb. Naxçıvan Dövlət Universitetində ilk dəfə olaraq tələbələrə “TələbəPlus” kartları təqdim olunub. Kart sahibləri təhsil, səhiyyə, mədəniyyət, nəqliyyat və digər sahələrdə müxtəlif güzəştlərdən yararlana biləcəklər. Nəticədə əsas məqsəd universitetin tədris və idarəetmə proseslərini daha səmərəli və şəffaf hala gətirmək hədəflənib.

**Beynəlxalq tələbə-müəllim mübadiləsi yönündə əhatəli fəaliyyət təşkil olunub.** 2020-2024-cü illərdə ikitərəfli əməkdaşlıqlar çərçivəsində 90-a yaxın müəllim-tələbə mübadilədə iştirak edib. Hər il 200-dən çox Tibb fakültəsi tələbəsi Türkiyənin Hacettepe, Ege, Ankara, Qazi, Qaradəniz Texniki Universitetlərində staj keçiblər. Dünya təcrübəsində universitetlər arasında beynəlxalq təcrübənin öyrənilməsi və ali təhsil müəssisələrinin ortaq kadr hazırlanması sahəsində mühüm əhəmiyyət kəsb edən ikili diplom proqramları tətbiq olunub. Ali təhsilin inkişafı ilə bağlı çoxşaxəli fəaliyyətlər həyata keçirilib. 2024-cü ildə 60 müəllim üçün IELTS imtahanında iştirak universitet büdcəsi hesabına təmin edilib. Beynəlxalq təlimlərə misal olaraq 2024-2025-ci tədris ilində dörd ay davam edən və yenicə yekunlaşmış Britaniya Şurası, BP və Naxçıvan Dövlət Universitetinin ortaq layihəsi APTIS beynəlxalq təlimini misal göstərə bilərik. Bu təlim 40 müəllim üçün nəzərdə tutulub.

**Tədris və tədqiqatın keyfiyyətinin təkmilləşdirilməsi üçün əcnəbi professorların cəlbi davamlı olaraq diqqətdə saxlanılıb.** 2024-2025-ci tədris ilində 17 əcnəbi professor tədris prosesinə, 20 əcnəbi professor tədqiqat prosesinə və 23 əcnəbi professor isə təlimlərə cəlb edilib. Bura Türkiyə, Yaponiya, Niderland, Amerikanın nüfuzlu universitet və elmi tədqiqat institutlarının alimləri daxildir. Bu da universitetin ümumi akademik heyətinin 10.7%-ni təşkil edir.

**Elmi-tədqiqat bazalarının infrastrukturu möhkəmləndirilib.** Azərbaycan ali təhsil məkanında ilk dəfə olaraq 2022-ci ildə NDU-da yaradılan IELTS Mərkəzi, 2023-cü ildən fəaliyyət göstərən SAT Qeydiyyat və İmtahan Mərkəzi xarici universitetlərdə təhsil almaq istəyən şagirdlərə təhsilə əlçatanlığını təmin edib. IELTS Qeydiyyat və İmtahan Mərkəzində 250 müəllim, tələbə və şagird, 2023-cü ildən fəaliyyət göstərən SAT Qeydiyyat və İmtahan mərkəzində isə 216 şagird imtahan verib. Həmçinin 5 nəfər xarici vətəndaşlar İran və Türkiyə vətəndaşı imtahanlarda iştirak edib. Azərbaycan ali təhsil məkanında ilk dəfə olaraq dünyanın texnologiya lideri olan IBM-lə NDU arasında imzalanan əməkdaşlıq müqaviləsinə əsasən, region üçün IBM institutu mahiyyəti daşıyan universitetdə IBM Mərkəzi istifadəyə verilib. Tibbin müxtəlif sahələri, həmçinin biologiya və kimya elmləri üzrə araşdırmaların aparılması məqsədi ilə 2024-cü ildə “Akademik Zərifə Əliyeva adına Biotibbi Araşdırmalar Mərkəzi”nin açılış tədbiri olub. 2025-ci ildə keyfiyyətli təhsilə çıxış və mümkün ayrı-seçkiliyin azaldılması prinsipləri əsaslı İnklüziv Təhsil Mərkəzi fəaliyyətə başlayıb. Həmçinin dayanıqlı inkişaf prinsiplərinin təbliğinə və bu sahədə elmi araşdırmaların genişləndirilməsinə xidmət edəcək Dayanıqlı İnkişaf Mərkəzi istifadəyə verilib.

**NDU Tələbə təşkilatları il ərzində geniş fəaliyyət tədbirləri həyata keçirib.** NDU-nun 150 nəfərdən ibarət Simfonik orkestrinin Azərbaycan Dövlət Akademik Filarmoniyasında möhtəşəm konsert proqramı təqdim edib. C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrında Naxçıvan Dövlət Universitetinin müəllim və tələbələri, NDU-nun Tələbə Teatr Studiyası Üzeyir Hacıbəylinin “O olmasın, bu olsun” musiqili komediyasını nümayiş etdirib. Bundan əlavə, Naxçıvan Dövlət Universiteti və Azərbaycan Milli Konservatoriyasının birgə təşkilatçılığı ilə Naxçıvan Muxtar Respublikasının 100 illik yubleyinə həsr edilmiş “Naxçıvanda caz sədaları” adlı ilk konsert proqramı təqdim olunub. 2025-ci il mart ayında isə “Qədim Xalq Çalğı Alətləri” Ansamblı yaradılıb və ilk konserti olub.



**Ali təhsil ocağının universitet-sənaye işbirliyinə dair əməkdaşlıqları qurulub.** Sahibkarlar Konfederasiyası, Kapital Bank ASC, Ləzzət Qida Sənaye MMC, Cahan Holdinq, APF Group MMC ilə NDU arasında əməkdaşlıqlar universitetin sənaye ilə əlaqələrini möhkəmləndirib və təhsil sahəsində innovativ inkişafı dəstəkləmib.

**NDU Elmi Kitabxanası daim zənginləşdirilir.** Hazırda Elmi kitabxananın ümumi fondunu 100 mindən artıq dərs vəsaiti və monoqrafiyadan ibarət olan 180 mindən çox ənənəvi kitab, 8 mindən artıq elektron resurs təşkil edir.

Universitetin Tələbə Elmi Cəmiyyəti, Tələbə Gənclər Təşkilatı, Tələbə Həmkarlar İttifaqı Komitəsi, Tələbə Turizm Könüllüləri, EMSA-Avropa Tibb Tələbələri Assosiasiyası, ELSA-Avropa Hüquq Tələbələri Assosiasiyası, “Femida Könüllüləri” var. Tələbələr beynəlxalq layihələr Enactus və Erasmusda uğurlar qazanıb.

**Rektor Elbrus İsayev brifinqdə 2025-ci ildə gözlənilən yeniliklərlə bağlı açıqlamalar da verib.** Bildirib ki, Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”na dair məsələlərdə Naxçıvan Dövlət Universitetinin nəzdində Tibb kampusu üçün yeni torpaq sahəsi ayrılıb. Əczaçılıq ixtisasının tədris korpusunun inşası (tədqiqat laboratoriyaları ilə birlikdə), Tibb fakültəsi üçün binanın və 500 nəfərlik konfrans zalının, Tibb kolleci üçün binanın, Sosial xidmət mərkəzinin, açıq və qapalı idman zalının, 200 çarpayılıq tibbi tədqiqat Klinikasının, 1000 nəfərlik yeni tələbə yataqxanası və 100 nəfərlik qonaq evinin inşası bu ilin gözlənilən yenilikləridir. Rektor, həmçinin İngilis dilli tibb ixtisasının beynəlxalq akkreditasiyasının təşkili də yeniliklər sırasında olduğunu qeyd edib.

Rektor bu il ərzində Texnologiyalar Parkının, Açıq İdman Kompleksinin, SABAH qrupları üçün SABAH Mərkəzinin, NDU Nəşriyyatının, həmçinin Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi ilə NDU-nun birgə layihəsi olan İnnovasiyalar Mərkəzinin istifadəyə verilməsi ilə bağlı məlumatı diqqətə çatdırıb və Kembric Məktəbinin ikinci tədris korpusunun inşasına başlanılmasının planlaşdırıldığını qeyd edib.

**Elbrus İsayev Beynəlxalq əməkdaşlıqda da yeni layihələrin reallaşacağını bildirib.** Vurğulayıb ki, EMSA üzvü olan 11 Tibb fakültəsi tələbəsi Tvinninq mübadilə proqramı vasitəsilə Rumıniyanın Buxarest şəhərində Karol Davila Universitetində 10 günlük mübadilədə iştirak ediblər. Hətta növbəti tədris ilində mobilliyi təmin etmək məqsədilə əməkdaşlıq etdiyimiz universitetlərlə danışıqlara başlanıb. Tələbə mübadiləsində gözlənilən yeniliklərdən bəhs edən rektor NDU-nun TÜRKÜNİB-ə üzv olmaq üçün müraciət edildiyini bildirib, NDU bu təşkilata üzv olmaqla ali təhsil müəssisələri arasında tələbə mübadiləsini təşviq edən ORHUN mübadilə proqramına qoşulacağını və beynəlxalq tələbə mübadiləsi sahəsində mühüm irəliləyişin əldə olunacağını söyləyib. Vurğulayıb ki, aprel və may aylarında İstanbul və Daşkənd şəhərlərində keçiriləcək təhsil sərgilərində iştirak nəzərdə tutulub.

Dövlət proqramı çərçivəsində reallaşan NDU nəzdində İngilis dili təmayüllü Gimnaziya və NDU Kembric Məktəbini muxtar respublikanın təhsil sahəsində çox mühüm hadisə adlandıran rektor Elbrus İsayev adıçəkilən məktəbin xətti ilə təşkil olunan Avropa və İngiltərədə təşkil olunan yay məktəblərinə muxtar respublikamızın istənilən orta məktəbində təhsil alan şagirdlər müraciət edə biləcəyini diqqətə çatdırıb. Beynəlxalq olimpiadalara hazırlıq və iştirak məqsədilə Kembric Məktəbində və Gimnaziyada yeni layihələrin nəzərdə tutulduğunu da söyləyib.

Ali təhsil ocağının rəqəmsallaşdırma ilə bağlı gələcək planlarından bəhs edən rektor rəqəmsal tədris materiallarının daha da zənginləşdirilməsi, rəqəmsal laboratoriyaların yaradılması, süni intellekt və maşın öyrənməsi kimi texnologiyaların təhsildə istifadəsinin artırılması, həmçinin tələbələrin onlayn kurslara və beynəlxalq təhsil resurslarına daha geniş çıxış imkanlarının təmin edilməsinin planlaşdırıldığını vurğulayıb.

Rektor Elbrus İsayev 2024-2025-ci tədris ilinin məzun sayının 2342 nəfər, qəbul sayının isə 3099 nəfər proqnozlaşdırıldığını bildirib. Vurğulayıb ki, illər üzrə təhlillər göstərir ki, tələbə kontingenti 2020-2021-ci tədris ilində 6008 nəfər idisə, hal-hazırda bu rəqəm 11163 nəfər təşkil edir, yəni son 3 ildə 2 dəfə artıb.

Brifinqdə sonda KİV nümayəndələrinin sualları cavablandırılıb.

***Kifayət Mahmudova***
***Media və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri***

# Naxçıvan Dövlət Universiteti ilə Azərbaycan Dövlət Aqrar Universiteti arasında əməkdaşlıq memorandumu imzalanıb



Naxçıvan Dövlət Universitetinin rəhbərliyi Azərbaycan Dövlət Aqrar Universitetinə səfər edib. Səfər çərçivəsində NDU-nun rektoru Elbrus İsayev, Elm və İnnovasiya məsələləri üzrə prorektoru Elsevər Əsədov, Təbiətşünaslıq və Kənd Təsərrüfatı fakültəsinin dekanı Bəhruz Məmmədov və "Baytarlıq Təbabəti" kafedrasının əməkdaşı Bəhruz Bayramov ADAU rəhbərliyi ilə görüşüblər.

Azərbaycan Dövlət Aqrar Universitetinin rektoru Zəfər Qurbanov çıxış edərək, ölkəmizin aqrar sektoru üçün yüksək ixtisaslı kənd təsərrüfatı mütəxəssisləri hazırlayan ali təhsil müəssisəsi haqqında qonaqlara ətraflı məlumat verib. Rektor qeyd edib ki, ADAU Naxçıvan Dövlət Universiteti ilə birgə tədqiqat, təcrübə və tədris sahələrində əməkdaşlıq etməkdə maraqlıdır.

NDU-nun rektoru Elbrus İsayev bildirib ki, Naxçıvan Dövlət Universiteti muxtar respublikanın əsas elm, təhsil, ictimai fikir və mədəniyyət mərkəzlərindən biridir və ölkəmizin ali təhsil sistemində yüksək nüfuza malikdir. Universitetin hərtərəfli inkişafı və yüksək ixtisaslı kadrların hazırlanması sahəsindəki fəaliyyətinə diqqət çəkib.

Sonra, Azərbaycan Dövlət Aqrar Universitetinin tanıtım çarxı nümayiş olunub. Daha sonra hər iki universitet arasında tədris, təlim, elmi-tədqiqat və aqrar sahələrdə əlaqələri gücləndirmək və inkişaf etdirmək üzrə perspektiv məsələlər müzakirə edilib.

Sonda, Naxçıvan Dövlət Universiteti ilə Azərbaycan Dövlət Aqrar Universiteti arasında birgə əməkdaşlıq haqqında memorandum imzalanıb. Rəsmi görüşdən sonra qonaqlar ADAU-nun müasir laboratoriyaları, Gəncə Dövlət Aqrar Kolleci, tələbə parkı, "Baytarlıq Təbabəti" fakültəsi, istixana kompleksi, açıq və qapalı balıq yetişdirmə laboratoriyaları, bildirçin yetişdirmə mərkəzi, vivarium, eksperimental heyvandarlıq kompleksi və toxumçuluq sahə laboratoriyasına baş çəkiblər.



# Milli Observatoriya ilə Naxçıvan Dövlət Universiteti arasında əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb

Naxçıvan Dövlət Universitetində keçirilən görüşdə rektor Elbrus İsayev Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriyanın İdarə Heyətinin sədri Elnur Səfərli, Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini, nazir vəzifəsinin səlahiyyətlərini müvəqqəti icra edən Fərid Bağırzadə və hər üç qurumun rəhbər şəxsləri iştirak edib.

NDU-nun rektoru Elbrus İsayev görüşü olduqca əhəmiyyətli və vacib əməkdaşlıq olaraq qiymətləndirib. Universitetin çoxşaxəli kadr hazırlığından bəhs edib və əmək bazarında məzunların müvəffəqiyyət göstəricilərinin yüksəldilməsində maraqlı və təşəbbüskar tərəf kimi gözləntilərinin yüksək olduğunu vurğulayıb. Dövlət-universitet-sənaye əməkdaşlığının əhəmiyyətinə diqqət çəkib.



NMR ƏƏSMN-nin nazir müavini, nazir vəzifəsi səlahiyyətlərini müvəqqəti icra edən Fərid Bağırzadə gənclərlə işin təşkili, onların peşəkar kadr kimi formalaşması, eyni zamanda əmək bazarına daxil olan ali təhsilli gənclərin məşğulluğunun təmin edilməsi



yönündə fəaliyyətlərindən bəhs edib. Universitet-sənaye işbirliyinin ölkənin iqtisadi inkişafına və işçi qüvvəsinin potensialının artırılmasına mühüm töhfə olduğunu vurğulayıb və əməkdaşlıqların əmək bazarında rəqabətədavamlı kadrların hazırlanmasına hədəfləndiyini qeyd edib.

Milli Observatoriyanın İdarə Heyətinin sədri Elnur Səfərli Observatoriyanın əmək, məşğulluq, sosial müdafiə sahələrində səmərəli idarəetmə qərarlarının qəbul edilməsi üçün təkmil monitorinq, təhlil, proqnozlaşdırma sisteminin yaradılması istiqamətində gördüyü işləri diqqətə çatdırıb. Eyni zamanda Naxçıvan Muxtar Respublikasında əmək bazarının cari və perspektiv vəziyyətinin qiymətləndirilməsi, strateji məşğulluq sahələrinin, onların gələcək inkişaf meyillərinin müəyyən edilməsi sahəsində qurum tərəfindən sorğuların və tədqiqatların aparıldığını, ilkin nəticələrin olduğunu vurğulayıb. Universitet ilə birgə əməkdaşlığın irəlidə daha uğurlu göstəricilərin əldə olunmasına yol açacağını əlavə edib.

Qarşılıqlı əməkdaşlığın müzakirə olunduğu görüşdə NDU məzunlarının məşğulluq səviyyəsinin ölçülməsi, əməkbazarına adaptasiya vəziyyətinin təhlil edilməsi sahələri üzrə birgə tədqiqatların, təhlillərin və araşdırmaların aparılmasına dair fikir mübadiləsi aparılıb. Eyni zamanda əmək bazarının kəmiyyət və keyfiyyət parametrləri nəzərə alınmaqla təhlili, gələcəyin ixtisaslarının və müasir iş dünyasının tələb etdiyi kompetensiyaların müəyyənləşdirilməsi istiqamətində qarşılıqlı təkliflər səsləndirilib. Həmçinin birgə elmi konfransların və təhlillərin təşkili, NDU-nun elmi və tədris-innovasiya infrastrukturundan Milli Observatoriyanın faydalanması və tərəflər arasında bir çox məsələlər müzakirə olunub. Qeyd olunan başlıqlar əsasında birgə əməkdaşlığın gücləndirilməsi razılığına gəlinib. Bu məqsədlə NDU və Milli Observatoriya arasında sədr Elnur Səfərli və rektor Elbrus İsayev tərəfindən birgə memorandum imzalanıb. Memoranduma əsasən hər iki tərəf üçün qarşılıqlı maraq kəsb edən digər istiqamətlərdə birgə işlər təşkil etmək və həyata keçirmək planlaşdırılıb.



Sonda Milli Observatoriya və Naxçıvan Dövlət Universiteti arasında birgə əməkdaşlıq münasibətilə sədr Elnur Səfərli və rektor Elbrus İsayev görüşdən xatirə olaraq qarşılıqlı hədiyyə təqdim edib və foto çəkilib.

# Naxçıvan Dövlət Universiteti ilə İstanbul Universiteti arasında Anlaşma Memorandumu imzalanıb

Memorandum çərçivəsində universitetlər arasında magistratura səviyyəsində ikili diplom proqramlarının, birgə beynəlxalq layihələrin hazırlanması, müəllim və tələbə mobilliyi, elmi əməkdaşlıq istiqamətində razılığa gəlinib.

Əlavə edək ki, əsası 1453-cü ildə qoyulan İstanbul Universiteti Türkiyənin ilk və ən böyük universitetidir. Hazırda Naxçıvan Dövlət Universiteti ilə İstanbul Universiteti arasında memorandum çərçivəsində işçi qrupları ikili diplom proqramlarının hazırlanmasına dair işləri davam etdirir.




# Naxçıvan Dövlət Universiteti EURIE 2025-də təmsil olunub

Beynəlxalq əlaqələr üzrə prorektor Aidə Cəlilzadə və Nəşriyyat direktoru Məhəmmədəli Məmmədli Avrasiya Universitetlər Birliyinin təşkilatçılığı ilə 8-10 aprel 2025-ci il tarixdə İstanbul şəhərində keçirilən "EURIE 2025 Ali Təhsil Sammitində" iştirak ediblər.






İstanbul Aydın Universitetinin ev sahibliyin etdiyi, eləcə də EURAS, YÖK, DEİK, Yükseköğretim Kalite Kurulu, TÜBİTAK və sair qurumların birgə əməkdaşlığı ilə keçirilən konfrans çərçivəsində, Avrasiya Universitetləri Birliyinə üzv ali təhsil müəssisələri nümayəndələrinin iştirakı ilə EURAS forumu keçirilib.

Sammit çərçivəsində beynəlxalq ekspertlərin iştirakı ilə panel müzakirələri aparılıb, təhsil sərgisi təqdim olunub.

***Kifayət Mahmudova***
***Media və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri***

# NDU-da beynəlxalq mübadilə proqramı çərçivəsində tələbələrlə görüş



Görüşdə Naxçıvan Dövlət Universitetinin Beynəlxalq Əlaqələr üzrə prorektoru Aidə Cəlilzadə, İnsan Resursları və Hüquq Şöbəsinin müdiri Əziz Qasımov, Tədris Departamentinin direktoru Şahin Əliyev və NDU-nun EMSA üzvü olan Tibb fakültəsinin Müalicə işi ixtisası üzrə tələbələri iştirak ediblər.

Qəbul zamanı Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev ali təhsil ocağının yerli və xarici universitetlərlə əlaqələrini müzakirə edib. O, bağlanan əməkdaşlıq müqavilələri və mübadilə proqramları vasitəsilə müəllim və tələbələrin xarici universitetlərdə təhsilini davam etdirməsi, təcrübə keçməsi və dərs keçməsi imkanlarının təmin olunduğunu qeyd edib. Rektor bu əməkdaşlığın məqsədinin tələbələrə daha keyfiyyətli və innovativ yanaşmalar öyrətmək, digər universitetlərin proqramlarından istifadə edərək onları daha yaxşı mütəxəssis kimi formalaşdırmaq olduğunu vurğulayıb. Bu çərçivədə mübadilə proqramı tələbələrə böyük fürsətlər təqdim edir.

Görüş qarşılıqlı fikir mübadiləsi şəraitində davam edib və tələbələrin təklifləri dinlənilib. Sonda rektor Elbrus İsayev tələbələrə öz tövsiyələrini verib və elmi nailiyyətlər arzulayıb.

Qeyd edək ki, Naxçıvan Dövlət Universitetinin EMSA (Avropa Tibb Tələbələri Təşkilatı) üzvü olan Tibb fakültəsinin Müalicə işi ixtisası üzrə təhsil alan tələbələri beynəlxalq mübadilə proqramı çərçivəsində "Carol Davila" Tibb və Əczaçılıq Universitetində oldular. Mübadilə proqramı 22-29 mart 2025-ci il tarixlərini əhatə edib. İrəlidəki 6-13 may 2025-ci il tarixlərində isə Buxarestdən 11 tələbənin NDU-ya gəlməsi gözlənilir.



***Kifayət Mahmudova***
***Media və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri***

# Elbrus İsayevin əcnəbi professorlarla görüşü

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev "Beynəlxalq Təlim Aylığı" çərçivəsində universitetdə qonaq olan əcnəbi professor heyətini qəbul edib. Görüşdə Türkiyə, Özbəkistan, Amerika və Yaponiyadan olan təlimçilər və universitetin rəhbər heyəti iştirak edib.

Rektor Elbrus İsayev professorların dəvətini qəbul edib, "Beynəlxalq Təlim Aylığı" müddətində universitetdə iştirakını yüksək qiymətləndirib. Professorlar ilə universitet əməkdaşlarının ortaq elmi tədqiqatlarının uğurlu nəticələr qazandırdığını qeyd edib. Eyni zamanda bu əməkdaşlıqlardan gələcəkdə daha böyük layihələrin yaranacağını əlavə edib.









Bu semestr universitetdə qonaq olan əcnəbi professorlar keçirilən təlimlərdə böyük maraq və təşəbbüskar fəaliyyət olduğunu vurğulayıb. Təlimlərdə müzakirələrin yaddaqalan olduğunu və daha sıx əməkdaşlıqların qurulduğunu bildiriblər.

Qeyd edək ki, "Beynəlxalq Təlim Aylığı" çərçivəsində 6 fərqli ölkədən (ABŞ, Yaponiya, İngiltərə, Türkiyə, Niderland və Özbəkistan) 21 təlimçi NDU-da 5 sahə (təhsil, elm, beynəlmiləlləşmə, resurslar, dayanıqlılıq) üzrə 21 mövzuda təlim keçir. Təlimlər 3 dildə (Azərbaycan, türk və ingilis) aparılır. Həmçinin təlimlərdə muxtar respublikada fəaliyyət göstərən bütün qurumların nümayəndələri də ödənişsiz olaraq iştirak edə bilir. Təlimi uğurla başa vuran iştirakçılara sertifikat verilib.

# NDU-da XI siniflər üçün ödənişsiz sınaq imtahanı keçirilib

Aprelin 26-da Naxçıvan Dövlət Universitetində XI siniflər üçün ödənişsiz əsaslarla ali məktəblərə qəbul imtahanının II mərhələsinin blok fənləri üzrə monitorinq qiymətləndirmə imtahanı keçirilib.



İmtahan Naxçıvan Dövlət Universiteti ilə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi arasında imzalanan Əməkdaşlıq Memorandumu əsasında təşkil olunub.

İmtahan Naxçıvan Muxtar Respublikasının bütün orta ümumtəhsil məktəblərinin XI sinif şagirdlərini əhatə edib. Abituriyentlərə real imtahan şəraitində biliklərini yoxlamaq və gələcək imtahanlara daha hazırlıqlı olmaq imkanı yaradılıb.

Öncə abituriyentlər Naxçıvan Dövlət Universiteti kampusunu gəzərək, fakültələrlə tanış olublar. Fakültə rəhbərləri şagirdlərə ali təhsil müəssisəsindəki tədris prosesi və maddi texniki baza ilə bağlı ətraflı məlumatlar verib.

Monitorinq qiymətləndirmə imtahanında Naxçıvan şəhərindən, Babək, Culfa, Kəngərli, Ordubad, Şahbuz, Sədərək və Şərur rayonlarından I qrup üzrə 565, II qrup üzrə 924, III qrup üzrə 852 və IV qrup üzrə 142 nəfər olmaqla ümumilikdə 2483 abituriyent iştirak ediblər.

Qeyd edək ki, Naxçıvan Dövlət Universitetində abituriyentlərin imtahanlara səmərəli hazırlığı və öz potensiallarını düzgün şəkildə qiymətləndirməsi, həmçinin biliklərini öyrənmə mühitini təmin etmək məqsədilə universitetin 7 binasında sınaq imtahanı təşkil edilib. 129 imtahan zalına universitet əməkdaşlarının iştirakı ilə 21 imtahan rəhbəri cəlb olunub. Eyni zamanda tələbələr sırasından könüllülər də



daxil olmaqla, ümumilikdə 185 nəfər imtahan nəzarətçisi prosesi izləyib. İmtahan suallarının hazırlanması isə "İstedad-XXI əsr" kursu tərəfindən təşkil olunub.

# AIESEC təşkilatının infosessiyası keçirilib

Naxçıvan Dövlət Universitetinin Beynəlxalq münasibətlər və hüquq fakültəsində AIESEC Tələbə Gənclər Təşkilatının təşkilatçılığı ilə məlumatlandırıcı infosessiya keçirilib. Tədbirdə universitetin Tələbə Gənclər Təşkilatının sədri Kamal Nağılı, tələbələr, eləcə də AIESEC-in Marketinq və İctimaiyyətlə Əlaqələr üzrə Lokal Komitə sədri Jalə Zeynal, Hüquq və Maliyyə üzrə Lokal Komitə sədri Milana Cəfərli, Marketinq və İctimaiyyətlə Əlaqələr üzrə direktoru Nizami Baxşəliyev, İnsan Resursları üzrə direktoru Səma Seyidzadə iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan TGT sədri Kamal Nağılı çıxışçılarla iştirakçıları tanış edib və AIESEC təşkilatının tələbələrin fərdi və peşəkar inkişafında oynadığı roldan bəhs edib. O, TGT-nin universitetdə həyata keçirdiyi layihələr və tələbə təşəbbüsləri ilə bağlı qısa məlumat verərək, bu tədbirdə iştirak edən və aktivliyi ilə seçilən tələbələrə təşəkkürünü bildirib.

Daha sonra çıxış edən AIESEC-in Marketinq və İctimaiyyətlə Əlaqələr üzrə Lokal Komitə sədri Jalə Zeynal təqdimatla çıxış edərək AIESEC təşkilatının yaranma tarixi, məqsədi və fəaliyyət istiqamətləri haqqında ətraflı məlumat verib. O, qeyd edib ki, AIESEC 1948-ci ildə yaradılmış, dünyanın 100-dən çox ölkəsində fəaliyyət göstərən və gənclərin liderlik potensialını inkişaf etdirməyə yönəlmiş beynəlxalq təşkilatdır. Jalə Zeynal, həmçinin AIESEC-in həyata keçirdiyi beynəlxalq təcrübə proqramları, sosial layihələr, könüllülük fəaliyyətləri və müxtəlif ölkələrdə keçirilən liderlik forumları haqqında da qeyd edib. O vurğulayıb ki, təşkilat vasitəsilə tələbələr həm xarici ölkələrdə təcrübə keçmək, həm də fərqli mədəniyyətlərlə tanış olaraq qlobal dünyagörüş qazanmaq imkanı əldə edirlər.

Sonda tədbir interaktiv şəkildə davam edib, iştirakçılar çıxışçılara suallar ünvanlayıblar.

**Nardanə Əliyeva**
**Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı**

# NDU-nun rektoru Elbrus İsayev və nümayəndə heyəti Türkiyənin Qazi Universitetinə səfər edib

“Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı” üzrə Naxçıvan Dövlət Universitetinin əsas icraçısı olduğu layihələrlə bağlı rektor Elbrus İsayev, Beynəlxalq əlaqələr üzrə prorektor Aidə Cəlilzadə və NDU Xəstəxanasının baş həkimi Elmar Rzayev Türkiyə Respublikasının Ankara şəhərinə işgüzar səfər edib.

Rektor Elbrus İsayev rəhbərliyində nümayəndə heyəti Qazi Universitetini ziyarət ediblər. NDU nümayəndə heyətini qarşılayan Qazi Universiteti rektoru Uğur Ünal və heyəti ilə ali təhsil müəssisələri arasında inkişaf etməkdə olan təhsil və tədqiqat





sahəsindəki qarşılıqlı əməkdaşlıq, tələbə və müəllim mobilliyi, tibb tələbələrinin yay istehsalat təcrübəsi, rezidentlərin rotasiyası, Qazi Universiteti xəstəxanalarında fəaliyyət göstərən həkimlərin NDU-da tədris, tədqiqat və müalicə prosesinə cəlbi məsələləri müzakirə edilib. Yeni təyin olunan rektor Uğur Ünalı təbrik edən rektor Elbrus İsayev uzun illərdir davam edən NDU-Qazi əlaqələrindən, ortaq fəaliyyət sahələrindən bəhs edib və perspektiv fəaliyyət sahələri barədə fikir mübadiləsi aparıblar.

Daha sonra Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev Qazi xəstəxanasının həkimləri və Tibb fakültəsinin professor-müəllim heyəti ilə dəyirmi masa ətrafında görüş keçirib. Müzakirələr zamanı Qazi həkimlərinin tədris, tədqiqat, müayinə və əməliyyatlarda iştirakı, Naxçıvanda tibbi kadrların yetişdirilməsinin dayanıqlılığının təmin edilməsi, tibb bacısı və həkimlərin cəlbinin hüquqi prosedurları və sair məsələlər müzakirə edilib.

Qeyd olunan məsələlərin operativ həlli yolları üçün təkliflər səsləndirilib və işçi qrupların fəaliyyəti üçün yol xəritəsi müəyyən edilib.

Görüşdə Azərbaycan Respublikasının Türkiyə Respublikasındakı Səfirliyinin təhsil məsələləri üzrə müşaviri Nəcibə xanım Nəsibova da iştirak edib.



# NDU-nun rektoru Elbrus İsayev Beynəlxalq Kembric Məktəbində görüş keçirib və Elm və Yaradıcılıq Sərgisində iştirak edib



Aprelin 26-da Naxçıvan Dövlət Universitetinin Beynəlxalq Kembric Məktəbində Elm və Yaradıcılıq Sərgisi təşkil olunub.

Sərgidən öncə universitetin rektoru Elbrus İsayev məktəbin I və VI sinif şagirdlərinin valideynləri və müəllim heyəti ilə görüş keçirib. Görüşdə NDU-nun Beynəlxalq Kembric Məktəbinin direktoru Bayram Əliyev, akademik koordinator, müəllim Fabian Chavez iştirak edib.

Rektor məktəbin fəaliyyətini, tətbiq olunan müasir tədris metodlarını, şagirdlərin yaradıcı və analitik düşünmə bacarıqlarının inkişafına xidmət edən layihələri yüksək qiymətləndirib. Vurğulayıb ki, Kembricdə şagirdlər ingilis dilində təhsil alsalar da, azərbaycançılıq ideologiyasına, milli adət-ənənələrə və mənəvi dəyərlərə sadiqlik əsas prioritet kimi qorunur. Görüş zamanı rektor gözlənilən yeniliklər barədə məlumat verib, yaxın günlərdə şagirdlərə dərs prosesində istifadə üçün planşetlərin təqdim ediləcəyini, ölkə Prezidentinin sərəncamı ilə Naxçıvan Dövlət Universitetinin tabeliyinə verilən Batabat Astrofizika Rəsədxanasının imkanlarından istifadə edilməsi istiqamətində işlərin aparıldığını və axşam saatlarında şagirdlər üçün teleskop vasitəsilə səma müşahidələrinin təşkil





olunacağını qeyd edib. Eyni zamanda Yay məktəbləri barədə məlumat verərək şagirdlər üçün İngiltərənin Nottingem şəhərinə iki həftəlik təhsil səfərlərinin nəzərdə tutulduğunu diqqətə çatdırıb.

Görüşdən sonra məktəbin 6-cı sinif şagirdlərinin hazırladığı əl işlərindən ibarət 20 elmi layihənin təqdim olunduğu sərgiyə baxış olub. Rektor Elbrus İsayev bu şagirdlərin gələcəyin xüsusi qabiliyyət və istedada malik, yaradıcı, yeni texnologiyalarla ayaqlaşmağı bacaran, təşəbbüskar gənclər olaraq ölkəmizin inkişafına töhfələr verəcəyini bildirib.

Qeyd edək ki, sərgidə layihələr 4 kateqoriyda 2-Fizika, 1-Riyaziyyat, 10-Kimya və Biologiya, 7-STEAM



(Elm, Texnologiya, Mühəndislik, İncəsənət və Riyaziyyat) olmaqla hər biri maraqlı və innovativliyi ilə diqqət çəkib. Eyni zamanda sərgidə Rəsm bölməsində şagirdlərin müxtəlif mövzularda çəkdikləri rəsm işləri də sərgilənib. Qeyd edək ki, sərgidə 6-cı sinif şagirdlərinin hər biri iştirak edib, bütün layihələr şagirdlərə aid oub və müəllimlərin pedaqoji rəhbərliyi ilə hazırlanıb.

Sərgi şagirdlərin elmi və yaradıcılıq potensialını nümayiş etdirmək mahiyyəti daşıyıb və Naxçıvan məktəbliləri arasında bu istiqamətdə ilk tədbir olub. Ümumilikdə sərgi şagirdlərə tədqiqat, təqdimat və yaradıcı ifadə bacarıqlarını inkişaf etdirmək üçün geniş imkan yaradıb. Onların əldə etdikləri biliklər praktiki şəkildə nümayiş etdirilib və həmyaşıdları ilə paylaşılıb.Tədbir, eyni zamanda Kembric kurikulumunun layihə əsaslı öyrənmə fəlsəfəsinə uyğun təşkil olunub.

Qeyd edək ki, sərgiyə bütün Naxçıvan ictimaiyyəti dəvət olunub.

**Nardanə Əliyeva**
**Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı**

# “Azərbaycan üçün İngilis dili strategiyası Yol Xəritəsi” sənədinin təqdimatı keçirilib



***Aprel ayının 30-da Azərbaycan Elm və Təhsil Nazirliyi, Britaniya Şurası və Təhsil İnstitutunun birgə əməkdaşlığına əsasən “Azərbaycan üçün İngilis dili strategiyası Yol Xəritəsi” sənədinin təqdimatı keçirilib.***

Tədbir zamanı beynəlxalq ekspert Simon Borg standartlar, qiymətləndirmə, müəllimlərin professional inkişaf yolu kimi mövzularda təqdimat edib və daha sonra müxtəlif təhsil müəssisələrindən olan nümayəndələr müzakirələr apararaq öz təkliflərini irəli sürüblər.

Naxçıvan Dövlət Universitetini IELTS mərkəzinin kordinatoru Fatimə İsmayıllı və Xarici dillər fakültəsinin dekanı İlhamə Məmmədova təmsil edib.



# Təhsil Tələbə Krediti ilə bağlı növbəti görüş

Tədbirdə Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev Təhsil Tələbə Krediti Fondunun (TTKF) fəaliyyətini və universitet ilə əməkdaşlığını yüksək qiymətləndirib. Bildirib ki, təhsil sahəsinin inkişafı ölkəmizdə prioritet istiqamətlərdən biridir. Rektor vurğulayıb ki, təhsilin əlçatanlığının təmin olunması fondun tələbələr üçün yaratdığı xüsusi imkanlardır və universitetdə təşkil olunan TTKF ilə bağlı məlumatlandırma və təşviq xarakterli görüşlərdə bu imkanlar diqqətə çatdırılır.

Elm və Təhsil Nazirliyinin tabeliyində Təhsil Tələbə Krediti Fondunun idarə heyətinin sədri Bəhruz Əzimov fondun yaranma tarixi, məqsədi haqqında geniş məlumat verib. Qeyd edib ki, fondun yaradılmasında əsas məqsəd əhalinin aztəminatlı təbəqəsindən olan şəxslərin təhsili üçün bərabər imkanlar yaratmaq və təhsilin əhatə dairəsini genişləndirməkdir. Bəhruz Əzimov təhsil tələbə kreditinin sosial və standart növləri, tələbə krediti almaq üçün müəyyənləşdirilən tələblər, kreditdən istifadə hüququ və tətbiq edilən güzəştləri diqqətə çatdırıb.

Elm və Təhsil Nazirliyi Aparatının baş məsləhətçisi Cabbar Hüseynli çıxış edərək kreditlər veriləndə ilkin mərhələdə giriş balları nəzərə alınmaqla, yüksək nəticə göstərilməsi yönündə ilkin şərti diqqətə çatdırıb və kredit məbləğinin birbaşa tələbəyə deyil, ali təhsil aldığı müəssisəyə verildiyini vurğulayıb. Hər hansı səbəbdən götürülən kredit geri qaytarıla bilmədikdə tələbəyə möhlət hüququ verildiyini söyləyib. Həmçinin tələbənin valideynləri işləmirsə və ya qruplar üzrə əlilliyi mövcuddursa, həmin tələbənin sosial tələbə kreditindən istifadə edə biləcəyini bildirib.





Universitetin Monitorinq və Qiymətləndirmə Sektorunun müdiri Elgün Tağıyev fond yarandığı gündən NDU-da TTK-ya müraciət sayını diqqətə çatdırıb. İllər üzrə statistikalarda müraciətlərin daim artdığının izlənildiyini bildirib. Vurğulayıb ki, bu günə qədər NDU-da TTK-ya 1308 müraciət olub, 1091 müraciət rəsmiləşib. Rəsmiləşən müraciətlərin 272-si sosial, 819-u isə standart Təhsil Tələbə Kreditinə aid olub.

Görüşün sonunda tələbələri maraqlandıran suallara aydınlıq gətirilib.

***Kifayət Mahmudova***
***Media və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri***

# Naxçıvan məktəbləri PISA tədqiqatında – beynəlxalq təhsildə yeni mərhələ

Aprelin 10-da Naxçıvanda PISA-2025: Beynəlxalq Şagird Qiymətləndirilməsi Tədqiqatında ilk dəfə iştirak edəcək şagirdlərlə maarifləndirici görüş keçirilib.



Naxçıvan Dövlət Universitetinin Beynəlxalq Məktəbində keçirilən görüşdə Naxçıvan şəhər 7, 15, 17 nömrəli tam orta məktəblərinin, Naxçıvan Qızlar Liseyinin, Naxçıvan Qarnizonu tam orta məktəbinin və NDU-nun nəzdində İngilis dili Təmayüllü Gimnaziyanın tədqiqatda təmsil olunacaq şagirdləri iştirak edib.

Görüşdə Naxçıvan Muxtar Respublikası təhsil naziri Elxan Nəcəfov iştirakçıların diqqətinə çatdırıb ki, PISA – Beynəlxalq Şagird Qiymətləndirilməsi Tədqiqatında ölkəmizin ümumtəhsil məktəbləri 2018-ci ildən iştirak edir. Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəbləri isə bu il ilk dəfə olaraq bu tədqiqatda iştirak edib. Qeyd olunub ki, tədqiqatda muxtar respublikanın 12 təhsil müəssisəsindən 328 məktəblinin iştirakı nəzərdə tutulub. Təhsil naziri tədqiqatda iştirak edən şagirdlərə uğurlar arzulayıb.

Azərbaycan Respublikası Təhsil İnstitutunun direktor vəzifələrinin icraçısı Elnur Əliyev bildirib ki, PISA ümumtəhsil müəssisələri üzrə 15 yaşlı şagirdlərin oxu, riyaziyyat, təbiət elmləri və yaradıcı düşünmə üzrə bilik, bacarıqlarını qiymətləndirmək, eyni zamanda onları real həyatda tətbiq etmək qabiliyyətlərini müəyyənləşdirmək məqsədilə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı tərəfindən 3 ildən bir keçirilən beynəlxalq qiymətləndirmə tədqiqatıdır.



Tədqiqatın ölkəmizdə həyata keçirilməsi Təhsil İnstitutu tərəfindən təşkil olunacaq və tədqiqatda ölkə üzrə 8 mindən artıq şagird iştirak edəcək. Bu tədqiqata bu il 91 ölkənin şagirdlərinin qoşulacağını qeyd edən Elnur Əliyev qiymətləndirilmənin şərtləri,




qaydaları, istifadə olunan suallar, sualların cavablandırılma qaydaları haqqında məktəblilərə geniş məlumat verib. Görüşdə tədqiqatla bağlı müzakirələr aparılıb, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

Qeyd edək ki, həmin gün növbəti görüş Şərur və Kəngərli rayonlarının ümumtəhsil məktəblərinin şagirdləri ilə olub. Daha sonra isə Ordubad və Culfa rayonlarının tədqiqatda iştirak edən məktəbliləri ilə görüş keçirilib.

# NDU-nun IELTS Mərkəzində yüksək nəticə

***Naxçıvan Dövlət Universitetində yaradılan IELTS mərkəzi gənclərin xaricdə təhsilə çıxışını asanlaşdırır.***

Azərbaycan ali təhsil məkanında ilk dəfə olaraq Naxçıvan Dövlət Universitetində 2022-ci ildə yaradılan IELTS Qeydiyyat və İmtahan Mərkəzi yüksək nəticələr təqdim etməkdə davam edir.




Növbəti yüksək nəticə Naxçıvan Dövlət Universiteti nəzdində Gimnaziyanın XI sinif şagirdi Məcid Səfərli tərəfindən qeydə alınıb. O, 13 mart IELTS mərkəzində kompüter əsaslı akademik IELTS imtahanına girərək maksimum 9 bal üzərindən 7.5 bal toplayıb. O, bu nəticə ilə Çin və İngiltərədə bir sıra prestijli universitetlərə qəbul olunmaq şansı əldə edib.

"Naxçıvan Dövlət Universitetində IELTS mərkəzinin olması çox böyük fürsətdir". Bu sözləri müsahibəsində bildirən Məcid əvvəllər imtahan vermək üçün başqa yerlərə və ya xaricə getməli olduğunu deyib və Naxçıvan Dövlət Universitetində imtahan vermək imkanının olmasının çox böyük fürsət və rahatlıq olduğunu söyləyib.

Məcid IELTS proqramına hazırlaşmadan öncə İngilis dilini B1 səviyyəsində bildiyini qeyd edib: "Qrammatika və oxuma sahələrində yaxşı idim, amma danışıq bacarığım zəif idi. IELTS-ə hazırlıq zamanı isə bu sahədə özümü inkişaf etdirdim. Mən IELTS imtahanını 13 mart tarixində Naxçıvan Dövlət Universitetində verdim. İmtahan biraz mənim üçün stresli keçdi, xüsusilə dinləmə hissəsi imtahanın əvvəlində olduğu üçün bir az stres yaşadım. Amma ümumilikdə yaxşı nəticə əldə etdim və 7.5 bal topladım"

Xatırladaq ki, NDU IELTS Qeydiyyat və İmtahan Mərkəzi Britaniya Şurası və Naxçıvan Dövlət Universitetinin əməkdaşlığı ilə fəaliyyətə başlayıb. Bu günə qədər mərkəzdə 250-dən artıq müəllim, tələbə və şagird imtahan verib. Eyni zamanda universitetdə 2023-cü ildən fəaliyyət göstərən SAT Qeydiyyat və İmtahan Mərkəzi də var. Burada isə 216 şagird imtahan verib, 5 nəfər İran və Türkiyə vətəndaşı imtahanlarda iştirak edib. NDU-dakı beynəlxalq imtahan mərkəzləri olan IELTS, SAT xarici universitetlərdə təhsil almaq istəyən şagirdlərə təhsilə əlçatanlığı təmin edir.

# NDU-nun SAT İmtahan və Qeydiyyat Mərkəzində 2025-ci ilin ilk imtahanı keçirilib



Naxçıvan Dövlət Universitetinin SAT İmtahan və Qeydiyyat Mərkəzində imtahanlar davam edir.

8 mart 2025-ci il tarixində mərkəzdə növbəti imtahan baş tutub. Bu mərkəzdə ilin ilk imtahanı olub. İmtahanda Naxçıvan məktəbliləri ilə yanaşı ölkəmizin digər şəhərlərindən də şagirdlər iştirak ediblər.

Qeyd edək ki, NDU-da IELTS Mərkəzi ilə yanaşı, xarici imtahanlara, Amerika və Avropanın nüfuzlu universitetlərindəki təhsilə əlçatanlığı təmin etmək məqsədilə 2023-cü ildən SAT Qeydiyyat və İmtahan Mərkəzi də fəaliyyət göstərir. Bu günə qədər mərkəzdə 200 nəfər şagird beynəlxalq imtahan verib.

# “Elmi inkişaf: uğurlar və çağırışlar” gənc tədqiqatçıların II Respublika Elmi Konfransı

Konfrans Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsində baş tutub.

Əvvəlcə Vətən uğrunda canlarından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda rəsmi qurumların, universitetlərin rəhbər heyəti və nümayəndələr, Azərbaycan Milli Elmlər Akademiyası (AMEA), AMEA Naxçıvan Bölməsi, AMEA Z.Bünyadov adına Şərqşünaslıq İnstitutu, AMEA Nəsimi adına Dilçilik İnstitutu, AMEA Folklor İnstitutu, AMEA N.Gəncəvi adına Ədəbiyyat İnstitutu, Azərbaycan Dövlət İqtisad Universiteti, Naxçıvan Müəllimlər İnstitutu, Lənkəran Dövlət Univeristetinin, Gəncə Dövlət Univeristetinin, Sumqayıt Dövlət Universitetinin müəllimləri, ölkənin müxtəlif bölgələrindən gənc tədqiqatçılar, magistr, doktorantlar və digər dəvətlilər iştirak ediblər.

Konfransı açıq elan edən Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev bildirib ki, 2024-cü ildə həyata keçirilən layihələr yalnız universitet üçün deyil, həm də regionun elmi inkişafına, dünya elminə töhfə verməsi baxımından əhəmiyyətli olub və ötən il, xüsusilə elmi fəaliyyətdə yaddaqalan uğurlu nəticələr qeydə alınıb. Universitetin əsas prioritetləri sırasında əməkdaşların elmi potensialının artırılmasında elmi dərəcəli əməkdaşların sayı artaraq 229 nəfərə çatıb.









Rektor Elbrus İsayev qeyd edib ki, universitetdə tək bu gün deyil, ötən 5 illə müqayisədə akademik heyətdə elmi dərəcəlilərin sayında müsbət artım dinamikası izlənilir. Belə ki, 2020-ci ildə heyətdə elmi dərəcəlilərin sayı 34% olmuşdursa, hazırda bu 40.3%-dir. Ötən illə müqayisədə universitetdə əməkdaşların sayı 10%-dək artıb ki, bunun da orta hesabla 50%-ni elmi dərəcəlilər təşkil edir. Heyətdə elmlər doktorlarının sayı 2020-ci illə müqayisədə orta hesabla 1,5 dəfə artıb. Rektor əlavə edib ki, 2020-ci illə müqayisədə elmi adlı heyətdə 78% artım olub. Akademik heyətin düşən nəşr sayı 2020-ci illə müqayisədə 1 nəfərinə 3,4 dəfə artıb və universitet tarixindəki ən yüksək nəticə qeydə alınıb. 2020-ci ildə universitet üzrə cəmi 13 konfrans keçirilmişdirsə, 2024-cü ildə təkcə Beynəlxalq konqres və simpoziumların sayı bundan çox olub. 2024-cü ildə NDU alimlərinin Scopusda indekslənmiş məqalələrinin sayı 2023-cü illə müqayisədə 5 dəfə, Web of Science-də indekslənmiş nəşr sayı da 2 dəfə artıb. Eyni zamanda 2024-cü ildə universitetdə 73 elmi tədbir, 14 beynəlxalq, 12 respublika konfransı keçirilib. Həmçinin universitetin Elmi Kitabxanasının fondu daim zənginləşdirilib ki, hazırda 180 minə yaxın resurs var. Rektor Elbrus İsayev xüsusilə elmin və elmi biliklərin populyarlaşdırılması və təbliğində KİV-in rolundan söz açaraq jurnalistikanın vacib sahələrindən biri olan elmi jurnalistikanın inkişafının diqqətdə olacağını bildirib.

AMEA Naxçıvan Bölməsinin sədri İsmayıl Hacıyev AMEA-nın inkişaf yolundan bəhs edib, elmin, dövlətin davamlı sosial-iqtisadi və mədəni inkişafında mühüm rolu barədə məlumatları diqqətə çatdırıb. İsmayıl Hacıyev qeyd edib ki, ölkəmizdə elmin inkişafı dövlət siyasətinin əsas prioritetlərindən biridir. “Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya”, “Elm haqqında” qanun bu yöndə inkişaf istiqamətlərini özündə əks etdirir. Naxçıvan Dövlət Universitetində də bu istiqamətlər elmin inkişafı yönündə həyata keçirilir və konfrans da özlüyündə bu tədbirlərə nümunədir.

Azərbaycan Dövlət İqtisad Universiteti, Elmi fəaliyyətin təşkili və idarə edilməsi departamentinin direktoru Zahid Məmmədov çıxış edərək, Naxçıvan Dövlət Universitetinin çox sürətli və uğurlu inkişaf yolu keçdiyini vurğulayıb. Bu yüksəlişin keyfiyyətli kadr potensialı, xüsusilə rektor Elbrus İsayevin müsbət reputasiyası ilə bağlı olduğunu ifadə edən Zahid Məmmədov konfransın təşkilini çox yüksək qiymətləndirib. Bildirib ki, bu gün Naxçıvan Dövlət Universiteti öz fəaliyyəti ilə dünya elm ictimaiyyətində çox ciddi diqqət çəkir.



Nobel mükafatçısı Əziz Səncərin ötən il NDU-ya gəlməsi və universitet haqqında səsləndirdiyi fikirlər buna bariz nümunədir. Zahid Məmmədov eyni zamanda universitetlərin missiyası yönünü təyin edən elmi-tədqiqat, beynəlxalq rəqabət qabiliyyətlilik, elmi nəşrlərdə istinad indeksi, biliklərin kommersiyalaşdırılması, akademik bacarıqlar və digər kateqoriyalar barədə məlumatlar verib. Qeyd edib ki, bu gün ölkədə ali təhsil müəssisələrində elmi tədqiqatların nəticələri diqqətdə saxlanılmalı və bütün tədqiqatlar ölkənin milli iqtisadiyyatın inkişafına xidmət etməlidir.

Acıbadem Xəstəxanasının Ürək-Damar Klinikasının qurucusu, professor Cem Alhan konfransın mahiyyəti haqqında fikirlərini bölüşüb. NDU və Naxçıvanda ilk dəfə olması ilə bağlı təəssüratlarını ifadə edib. Xüsusilə Naxçıvanın coğrafi mövqeyi və mövcud blokada vəziyyəti ilə bağlı fikirlərində Naxçıvan Dövlət Universitetinin elmi nailiyyətləri ilə bu vəziyyəti aşdığını qeyd edib.

NDU Magistratura və doktorantura mərkəzinin direktoru Çapay Quliyev Naxçıvan Dövlət Universitetində elmi-pedaqoji kadrların hazırlanması istiqamətində magistratura və doktorantura səviyyələri üzrə həyata keçirilən tədbirlər və əldə olunan nəticələr barədə məlumat verib.

Daha sonra gənc tədqiqatçılardan olan Naxçıvan Dövlət Universitetinin magistrantı Mirməhəmməd Seyidzadə “Proqramlaşdırmada təhlükəsiz data analitikası”, Bitki Mühafizə və Texniki Bitkilər Elmi Tədqiqat İnstitutunun doktorantı Jalə Hüseynzadə “Qlobal iqlim dəyişikliyinin tütün ağ milçəyi zərərvericisinə təsiri”, Naxçıvan Dövlət Universitetinin magistrantı Kamal Allahverdiyev “Naxçıvanda meliorasiya sistemlərinin inkişafı və dron texnologiyalarının tətbiqi” mövzularında məruzələr ilə çıxış ediblər.

Konfrans universitetin Fizika-riyaziyyat, Beynəlxalq münasibətlər və hüquq fakültəsində bölmə iclasları ilə öz işini davam etdirib.

Qeyd edək ki, konfrans 3-4 aprel tarixləri olmaqla iki gün ərzində 12 salonda keçirilib, 63 paneldə hibrid formada bölmə iclasları ilə davam edib. Respublika üzrə 50 müəssisədən 700 dən çox tədqiqatçı tərəfindən təqdim edilən 600-dək elmi təqdimat müzakirə olunub.

# Elbrus İsayev BSU-da “İnklüziv təhsildən inklüziv cəmiyyətə: bərabər imkanlar və dayanıqlı inkişaf” III beynəlxalq elmi konfransda iştirak edib

Aprelin 10-da Bakı Slavyan Universitetində (BSU) “İnklüziv təhsildən inklüziv cəmiyyətə: bərabər imkanlar və dayanıqlı inkişaf” (İTİC 2025) III beynəlxalq elmi konfrans işə başlayıb.



Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev, NDU Magistratura və Doktorantura Mərkəzinin direktoru Çapay Quliyev, NDU İnklüziv Təhsil Mərkəzinin direktoru Taleh Xəlilov konfransda iştirak ediblər.

Rektor Elbrus İsayev konfransda çıxış edərək, inklüziv təhsil sahəsində BSU ilə əməkdaşlığı yüksək dəyərləndirib və universitetin bu istiqamətdə ixtisaslaşmış ali məktəb kimi nüfuz qazandığını qeyd edib. Yüksək təşkilatçılıq və məhsuldarlıq şəraitində keçirilən konfransa dəvətə görə təşəkkürünü bildirib.

Konfransda Nizami adına Daşkənd Dövlət Pedaqoji Universitetinin rektoru Abduqaffar Qırğızbayev, millət vəkilləri Nigar Məmmədova və Mehriban Vəliyeva, “BP”-nin Xəzər regionu üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli, Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin direktor müavini, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdiri vəzifəsini müvəqqəti icra edən Nərminə Hüseynova, DOST İYM-nin direktoru Esmira Ənsəri, “Birgə və Sağlam” İB-nin direktoru Aytən Eynalova, İtaliyanın Roma Məktəb Direktorları Assosasiyasının direktor müavini, Roma Motsart məktəbinin direktoru Covanni Koqlyandro, Kozsalin Texnologiya Universitetinin əməkdaşı Adam Jagiello Rusilovski və Finlandiyanın “EduCluster Finland” dövlət şəbəkəsinin adoptativ təhsil üzrə koordinatoru Heli Parhiala və digər qonaqlar çıxış ediblər. Natiqlər konfransın əhəmiyyəti haqqında fikirlərini bölüşüblər.



Konfransın bədii hissəsi nümayiş etdirildikdən sonra beynəlxalq tədbirin işi bölmələr üzrə davam etdirilib.

# Zahid Məmmədov Naxçıvan Dövlət Universiteti ilə bağlı öz fikirlərini sosial şəbəkə izləyiciləri ilə bölüşüb

Azərbaycan Dövlət İqtisad Universitetinin Elmi fəaliyyətin təşkili və idarə edilməsi departamentinin direktoru, professor Zahid Məmmədov 3-4 aprel tarixlərində Naxçıvan Dövlət Universitetində keçirilən "Elmi inkişaf: uğurlar və çağırışlar" gənc tədqiqatçıların II Respublika Elmi Konfransı ilə bağlı öz təəssüratlarını bölüşüb.

Naxçıvan Dövlət Universitetində 3-4 tarixlərində keçirilən "Elmi inkişaf: uğurlar və çağırışlar" adlı gənc tədqiqatçıların II Respublika Elmi Konfransını öz işini başa vurdu. Naxçıvan Muxtar Respublikasının blokada şəraitində yaşadığı çətinliklərə baxmayaraq, bu şəraitdə Naxçıvan Dövlət Universitetində gördüklərim haqqında bəzi mülahizələrimi Sizinlə paylaşmaq istərdim.

Naxçıvan Dövlət Universitetində mühit ümumilikdə çox müsbət və inkişaf yönümlüdür. Universitetdəki mühit həm akademik, həm də sosial baxımdan tələbələrə və müəllimlərə çoxsaylı imkanlar və şəraitlər təqdim edir. NDU-nun akademik mühiti, tələbələrə yüksək keyfiyyətli təhsil almaq imkanı verir. Müəllimlər, xüsusilə Çapay Quliyev–Magistratura və Doktorantura Mərkəzinin direktoru, Cavadxan Yusif oğlu Qasımov–"Beynəlxalq ticarət və menecment" kafedrasının müdiri, Eltun Yulət oğlu İbrahimov – "İqtisadiyyat və marketinq" kafedrasının müdiri tərəfindən göstərilən nəzakət, elmi diskussiyalara verdikləri dəyər, həmçinin mənimlə səmimi və mehriban ünsiyyətləri üçün xüsusi təşəkkürümü bildirmək istərdim. Onların hər biri ilə tanışlıq və fikir mübadiləsi mənim üçün böyük bir motivasiya və dəyərli xatirə oldu. Öz sahələrində peşəkar və təcrübəli şəxslərdir, bu da tələbələrə keyfiyyətli təhsil almağa imkan yaradır.

NDU tədqiqat sahəsində də önəmli addımlar atır, müxtəlif elmi layihələr və konfranslar təşkil edilir. Universitetdəki tələbələr və müəllimlər elmi fəaliyyətlərə cəlb olunur və bu, akademik mühitin daha da zənginləşməsinə şərait yaradır. Naxçıvan Dövlət Universitetində tələbələr yalnız təhsil alır, həm də müxtəlif sosial və mədəni fəaliyyətlərə qatılırlar. Universitetdə müxtəlif tələbə təşkilatları, klub və cəmiyyətlər mövcuddur. Naxçıvan Dövlət Universitetindəki sosial mühit çox müxtəlif və açıqdır. Tələbələr müxtəlif mədəniyyətlərdən, dillərdən və millətlərdən olan insanlarla




qarşılaşır və bu, onların dünyagörüşünü genişləndirir. Universitetin kampusu geniş və müasir təchizatla təmin olunub. Tələbələr üçün komfortlu yataqxanalar və sosial məkanlar mövcuddur. Bu, onların rahat və yüksək səviyyədə təhsil almasına şərait yaradır.

Universitetin kampusunda tələbələrin təhlükəsizliyi yüksək səviyyədə təmin olunur. Təhlükəsiz şərait və sağlamlıqla bağlı tədbirlər universitetdəki sosial mühitin vacib aspektlərindən biridir. Universitetin tibb məntəqəsi tələbələrin səhiyyə xidmətlərini təmin edir.

Naxçıvan Muxtar Respublikasının blokada şəraitində yaşadığı çətinliklərə baxmayaraq, bu şəraitdə Naxçıvan Dövlət Universiteti inkişaf trendinə malikdir. Universitet rəhbərliyi müasir təhsil və elmi inkişafını təmin etmək üçün ciddi addımlar atmışdır. Blokada şəraitində - universitetin inkişafı üçün xarici əlaqələrin məhdud olduğu bir dövrdə universitet yerli şəbəkələrdə və beynəlxalq aləmdə tanıdılması üçün ciddi irəliləyişlər əldə etmişdir. NDU yerli və xarici mütəxəssislər ilə əməkdaşlığa diqqət yetirmiş, akademik mühitin inkişafını təmin etmişdir.

Naxçıvan Dövlət Universiteti respublikanın və regionun ali təhsil sistemi kimi mühüm bir qurumdur və təkcə Naxçıvan Muxtar Respublikasının deyil, həm də Azərbaycanın ali təhsil sisteminin inkişafında böyük rola malikdir. Elmi fəaliyyətin inkişafı ilə əlaqədar xarici nüfuzlu alimlərin universitetdə çalışmaq marağı daha da artmış, regionda müasir təhsil və tədqiqat imkanları yaranmışdır.

Naxçıvan Muxtar Respublikasının blokada şəraitində olması, ərazinin kənar regionlarla əlaqələrinin məhdud olması, təhsil və elm sahəsində inkişaf üçün əlavə çətinliklər yaratmasına baxmayaraq, bu şəraitdə universitet öz fəaliyyətini inkişaf etdirmək üçün alternativ yollar tapmağa çalışmışdır. Blokada şəraitində olan Naxçıvan Dövlət Universiteti müasir təhsil alətləri və texnologiyalarını tətbiq etməyə müvəffəq olmuşdur. Xüsusilə xarici ölkələrdən minlərlə tələbənin tədris prosesində iştirakına nail olunmuşdur. NDU müasir tələblərə uyğun olan müxtəlif tədris proqramları hazırlamış və bu sahədə mühüm irəliləyişlər əldə etmişdir. Universitet xüsusilə muxtar respublikanın iqtisadiyyatının ehtiyaclarına uyğun yüksək səviyyəli mütəxəssislər yetişdirir. Blokada şəraitində xarici universitetlərlə əməkdaşlıqda müəyyən çətinliklər yaşanmasına baxmayaraq, Naxçıvan Dövlət Universiteti özünü beynəlxalq təhsil bazarında tanıtmaq üçün əlaqələr qura bilmişdir. Beynəlxalq elmi tədbirlər və tədqiqat proqramları bu əməkdaşlığın genişləndirilməsinə kömək etmişdir.

Tələbələrlə keçirdiyim görüşün nəticəsi olaraq bildirirəm ki, universitetin tələbələri ölkəmizin gələcəyinə xidmət etmək üçün böyük potensiala sahibdirlər. Universitetin təklif etdiyi müxtəlif tədris proqramları tələbələrin müxtəlif sahələrdə mütəxəssis kimi yetişdirilməsinə dəstək olur. Universitetin təcrübəli və gənc müəllim heyəti daim təkmilləşən peşəkar bacarıqlı təlim kurslarında iştirak edir. Blokada şəraitinə baxmayaraq, universitet elmi tədqiqatların inkişafına ciddi diqqət yetirir. Müxtəlif elmi tədqiqat layihələri və mühüm ixtiralar burada həyata keçirilir.

Naxçıvan Dövlət Universiteti əhəmiyyətli inkişaf yolu keçmiş və regionun təhsil sistemində əvəzsiz yer tutmuşdur. Bu inkişaf yolunda Naxçıvan Dövlət Universitetinə dəstək olacağam.

**Zahid Fərrux Məmmədov**
**Azərbaycan Dövlət İqtisad Universiteti Elmi fəaliyyətin təşkili və idarə edilməsi departamentinin direktoru, iqtisad elmləri doktoru (TC, RF, AR), professor, Əməkdar müəllim**

# Naxçıvan Dövlət Universitetində Dayanıqlı İnkişaf Mərkəzi açılıb









Mərkəz NDU və "İstedad-XXI əsr" Məhdud Məsuliyyətli Cəmiyyəti hazırlıq kurslarının birgə dəstəyi ilə yaradılıb.

Açılış mərasimində Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev və rəhbər heyət iştirak ediblər.

NDU-nun Strateji məsələlər üzrə rektor müşaviri Rəcəb Cəfərli mərkəz haqqında məlumat verib. Bildirib ki, Mərkəz dayanıqlı inkişafın 17 məqsədinin icrasına töhfə verməyi hədəfləyir. Bu əsasda texniki və pedaqoji elmlər üzrə yaşıl enerji, dayanıqlı şəhərlər, təmiz su, gender bərabərliyi, keyfiyyətli təhsil və sağlam həyat kimi istiqamətlərdə fəaliyyət göstəriləcək. Eyni zamanda universitetdə siyasət sənədlərinin və hesabatların hazırlanması, elmi tədqiqatların aparılması da Mərkəzin fəaliyyətində nəzərdə tutulur.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev qeyd edib ki, dayanıqlı inkişaf məqsədləri bütün elm sahələrini əhatə edir və NDU-nun bütün fəaliyyətinin əsasını bu strategiya təşkil edir. Dövlət-özəl tərəfdaşlığı ilə ərsəyə gələn bu yeni Mərkəz universitet-sənaye işbirliyinin nümunəsidir. Yeni yaradılan mərkəz NDU-da dayanıqlı inkişaf prinsiplərinin təbliğinə və bu sahədə elmi araşdırmaların genişləndirilməsinə xidmət edəcək. Rektor Elbrus İsayev vurğulayıb ki, bu təşəbbüs düzgün və faydalı dəyərləndirilməlidir. İclaslar, tədbirlər Mərkəzdə keçirilməli, tələbə təşkilatlarının mərkəz ilə əlaqələri qurulmalı və müəyyənləşmiş hədəflərə uyğun digər fəaliyyətlər təşkil olunmalıdır.

Daha sonra Dayanıqlı İnkişaf Mərkəzinin rəsmi internet saytı təqdim edilib. Saytda Mərkəz çərçivəsində dayanıqlı inkişafın savadlılığını artırmaq məqsədilə sorğuların keçiriləcəyi, mütəmadi təlimlərin təşkil olunacağı, tələbə klubları vasitəsilə maarifləndirmə işlərinin aparılacağı qeyd olunub. 10 əcnəbi tədqiqatçı ilə müqavilə imzalandığı və onlarla Mərkəzin tədqiqatçısı kimi qarşılıqlı fəaliyyətin qurulduğu, NDU əməkdaşları ilə birgə elmi araşdırmalar aparılacağı nəzərə çatdırılıb.

Sonda rektor Elbrus İsayev yeni mərkəzin açılışı münasibəti ilə kollektivi təbrik edib, fəaliyyətində uğurlar arzulayıb.

**Kifayət Mahmudova**
**Media və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri**

# “Şəhidlərin izində: Apreldən Zəfərə”

Naxçıvan Dövlət Universitetində Aprel döyüşləri və 44 günlük Vətən müharibəsi şəhidlərinə həsr olunan “Şəhidlərin izində: Apreldən Zəfərə” adlı tədbir keçirilib. Tədbir universitetin Təcrübə və məzunlarla iş bölməsinin, NDU-nun nəzdində Gimnaziyada təcrübədə olan son kurs tələbələrinin və Gimnaziyanın müəllim, şagird kollektivinin təşkilatçılığı ilə hazırlanıb.

Əvvəlcə Vətən uğrunda canlarından keçmiş qəhrəman şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Ali təhsil ocağının İncəsənət fakültəsində baş tutan tədbirdə Naxçıvan Dövlət Universitetinin rektoru








Elbrus İsayev Aprel döyüşlərini tarixi hadisə kimi qələbəyə aparan yolun başlanğıcı hesab etdiyini söyləyib. Qeyd edib ki, Aprel döyüşləri dövlətimizin və ordumuzun gücünü, xalqımızın birliyini, həmrəyliyini və vətənpərvərliyini nümayiş etdirib və biz daim şəhidlərimizi böyük ehtiramla xatırlamalıyıq. Rektor əlavə edib ki, bu döyüşlər göstərdi ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq, öz ərazi bütövlüyünü nəyin bahasına olursa-olsun, bərpa edəcək. Nəhayət, həmin gün gəlib çatdı və xalqımız 30 ilə yaxın işğal altında qalan torpaqlarımızı Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 gün ərzində azad edərək şanlı Qələbəmizin qazanılmasına nail oldu.

Tədbirdə Naxçıvan Dövlət Universitetinin Təcrübə və məzunlarla iş bölməsinin müdiri Aynurə Seyidova, Naxçıvan şəhər İcra Hakimiyyətinin Vətən müharibəsi iştirakçıları və Şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri İsmayıl Gülməmmədov, Naxçıvan Dövlət Universitetinin nəzdində Gimnaziyanın hərbi müəllimi, ehtiyatda olan polkovnik-leytenant Aqşin Məmmədov çıxış ediblər. Natiqlər qeyd ediblər ki, Aprel döyüşləri bizim şanlı hərbi qələbəmizdir, dövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərən qələbədir.

Daha sonra şəhid Rasim Məmmədov, Qabil Orucəliyevin, Fuad Əlizadənin, Emin Sadiqovun, Elnur Zeynalovun ailə üzvləri və qazilər çıxış edib igid oğullarımızın qəhrəmanlıq nümunələrindən, vətən sevgisindən, müasir Azərbaycan Ordusunun gücündən, texniki imkanların yüksək səviyyədə olmasından danışıblar.

Naxçıvan Dövlət Universitetinin nəzdində Gimnaziyanın direktoru Nazim Rəhimov bildirib ki, Gimnaziyada ilk dəfədir, tələbələr təcrübə keçib və onların şəhidlərimizə həsr olunan tədbir təşəbbüsləri təqdirəlayiqdir. Nazim Rəhimov universitetin Təcrübə və məzunlarla iş bölməsinə, təcrübəçi tələbələrə təşəkkürünü bildirib və tədbirdə iştirak edən şagirdlərin hər birinə uğurlar arzulayıb.

Tədbir NDU-nun nəzdində Gimnaziyanın şagirdlərinin təqdimatında bədii səhnə kompozisiyası və qiraətlər ilə davam edib. “Fəryad” filmindən səhnəcik, “Onların səsi” adlı videotəqdimat, Xudayar təsnifi ilə “Zəfər yolu” videoçarxı, kamançanın müşayiəti ilə “Mən şəhidəm” monoloqu, xor və ansamblın müşayiəti ilə “Qarabağ, can Qarabağ” musiqisi ifa olunub.

Tədbirin sonunda şagirdlər şəhid analarına güllər təqdim ediblər.

# Şagirdlər NDU Elmi Kitabxanasında olublar

Naxçıvan Dövlət Universitetinin Elmi Kitabxanasında Naxçıvan şəhər Əkbər Ağayev adına 8 nömrəli tam orta məktəbin XI sinif şagirdləri ilə görüş keçirilib. Görüş məktəblilərin universitetin elmi mühiti və kitabxana imkanları ilə yaxından tanış olması mahiyyəti daşıyıb.

Görüş zamanı Elmi Kitabxananın direktoru Xumar Məmmədova şagirdlərə kitabxananın fəaliyyəti, mövcud fondlar və beynəlxalq elmi bazalara çıxış imkanları barədə məlumat verib. Bildirilib ki, Elmi Kitabxana yalnız tələbələr üçün deyil, elmi marağı olan məktəblilər üçün də açıqdır və onların biliklərini genişləndirməsinə geniş imkanlar təklif edir.



Daha sonra direktor müavini Aysu Rəsulzadə şagirdləri elektron köşk, kitabların elektronlaşması, kitab fondları, tədbir zalı və sərgi guşələri ilə tanış edib.



Nəzərinizə çatdıraq ki, bu təşəbbüs Naxçıvan Dövlət Universiteti və Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi arasında imzalanmış Əməkdaşlıq Memorandumu əsasında həyata keçirilir. Məqsəd müəllimlərin peşəkar inkişafına dəstək göstərilməsi, eləcə də nümunəvi təhsil mühitinin yaradılmasına



hədəflənib. Eyni zamanda muxtar respublika ümumtəhsil məktəblərində infosessiyaların keçirilməsi, müxtəlif olimpiadaların birgə təşkili, istedadlı şagirdlərin elmi-tədqiqat işlərinə cəlbi, NDU-nun Elmi Kitabxanası ilə tanışlıq və təcrübə mübadiləsi, sonuncu kurs tələbələri ilə görüşlərin təşkili, tələbə könüllülərinin dəstəyinin təmin edilməsi də bu yöndə planlaşdırılan tədbirlərdəndir.

**Nardanə Əliyeva**
**Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı**

# Naxçıvan Dövlət Universitetində növbəti IELTS imtahanı keçirilib

17-18 aprel tarixlərində Naxçıvan Dövlət Universiteti nəzdində fəaliyyət göstərən IELTS Qeydiyyat və İmtahan Mərkəzində kompüter əsaslı akademik IELTS imtahanı təşkil olunub. İki gün



davam edən imtahanda muxtar respublikada fəaliyyət göstərən müxtəlif qurumların nümayəndələri, universitetin fərqli ixtisaslarından olan tələbələr, müəllimlər, doktoranturaya və NDU nəzdində Beynəlxalq Kembric Məktəbinə iş üçün müraciət etməyi planlaşdıran namizədlər də daxil olmaqla ümumilikdə 30 nəfər iştirak edib.



Müəllimlərin peşə bacarıqlarının artırılaraq günün tələbinə uyğunlaşdırılması, həmçinin dil biliklərinin inkişaf etdirilməsi məqsədi daşıyan IELTS imtahanları imkan verir ki, universitetdə ingilis dilli ixtisasların sayı daha da artsın.

Azərbaycan ali təhsil müəssisələri arasında ilk dəfə Naxçıvan Dövlət Universitetində yaradılan mərkəz 2022-ci ilin aprel ayından etibarən Britaniya Şurası ilə əməkdaşlıq çərçivəsində fəaliyyət göstərir. Bu müddət ərzində mərkəzdə artıq 300-ə yaxın müəllim, tələbə və şagird beynəlxalq imtahan verib.

Qeyd edək ki, imtahanda tətbiq olunan bütün sualların hazırlanması, imtahanın keçirilməsi və qiymətləndirilməsi Britaniya Şurası tərəfindən həyata keçirilir. İndiyədək baş tutmuş imtahanlarda yüksək nəticə göstərən iştirakçılar arasında tələbə və müəllimlər üstünlük təşkil edir.

Bütün bunlarla yanaşı, imtahanda iştirak edən tələbə və müəllimlər 6.5 bal və ya daha yüksək nəticə əldə etdikdə imtahan üçün ödənilən məbləğ geri qaytarılır.

**Fəxriyyə Səyyadova**
**Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı**

# Elbrus İsayev Bitki Mühafizəsi və Texniki Bitkilər Elmi-Tədqiqat İnstitutunda işgüzar görüş keçirib

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayevin başçılıq etdiyi nümayəndə heyəti Gəncə şəhərinə səfər edib.







Səfər çərçivəsində bu gün Naxçıvan Dövlət Universitetinin nümayəndə heyəti ilə Bitki Mühafizəsi və Texniki Bitkilər Elmi-Tədqiqat İnstitutunun kollektivi arasında işgüzar görüş keçirilib.

İnstitutun direktoru, kənd təsərrüfatı elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü İbrahim Cəfərov Elmi-Tədqiqat İnstitutu haqqında ətraflı məlumat verib, ikitərəfli əməkdaşlıq çərçivəsində qarşıya qoyulan məsələlərin icrası ilə bağlı gələcəkdə həyata keçiriləcək işlər barədə öz fikirlərini bildirib.

Geniş tərkibdə təşkil olunan görüşdə Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev universitetin keçdiyi inkişaf yolu, hazırki çoxşaxəli fəaliyyəti, gələcək strateji hədəfləri haqqında məlumatları qeyd edib. Rektor eyni zamanda universitetin aqrar sahələr üzrə kadr hazırlığı ilə yanaşı, birgə elmi-tədqiqat işlərinin aparılması, elmi tədbirlərin təşkilinin vacibliyinə diqqət çəkib.

Tədbirdə yaxın tarixdə aqrar sahədə bir sıra sahələri özündə birləşdirən “Orqanik və Dayanıqlı Kənd Təsərrüfatı” I Respublika Konfransının birgə keçirilməsinin, kənd təsərrüfatının aktual sahələri üzrə geniş elmi müzakirələrin aparılması razılığına gəlinib.

# Naxçıvan Dövlət Universitetində Revmatologiya konfransı keçirilib

Naxçıvan Dövlət Universiteti və Azərbaycan Revamotoloqlar İctimai Birliyinin birgə təşəbbüsü ilə 18 aprel tarixində Universitet Xəstəxanasında Tibb fakültəsinin yaranmasının 25 illiyinə həsr olunan Naxçıvan Revmatologiya Konfransı keçirilib.

Konfransda universitetin Elm və innovasiya məsələləri üzrə prorektoru Elsevər Əsədov, Universitet Xəstəxanasının baş həkimi Elmar Rzayev, Azərbaycan Revamotoloqlar İctimai Birliyi İdarə Heyətinin üzvü, Bakı Sağlamlıq Mərkəzi Revmatologiya və sistem xəstəlikləri şöbəsinin müdiri Nərgiz Hüseynova, Azərbaycan Revamotoloqlar İctimai Birliyi İdarə Heyətinin üzvü, Azərbaycan Tibb Universitetinin əməkdaşı, tibb üzrə fəlsəfə doktoru Şəhla Hadıyeva, muxtar respublika xəstəxanalarında fəaliyyət göstərən revmatoloqlar, Tibb fakültəsinin müəllim və tələbələri iştirak ediblər.



Universitetin Elm və innovasiya məsələləri üzrə prorektoru Elsevər Əsədov Tibb fakültəsinin yaranması və keçdiyi inkişaf yolundan bəhs edib. Bildirib ki, Pediatriya ixtisası ilə fəaliyyətə başlayan Tibb fakültəsində hazırda demək olar ki, bütün tibb və səhiyyə istiqamətli ixtisaslar üzrə kadr hazırlığı aparılır və hazırda ölkədə tibbi kadrların hazırlanmasında önəmli rol oynayır. Elsevər Əsədov Azərbaycan Tibb Universiteti və İ.M.Seçenov adına I Moskva Dövlət Tibb Universitetinin Bakı filialı ilə qurulan səmərəli əməkdaşlıq çərçivəsində bir sıra layihələrin həyata keçirildiyini bildirib və konfransın işinə uğurlar arzulayıb.

Naxçıvan Dövlət Universiteti Xəstəxanasının baş həkimi Elmar Rzayev xəstəxananın fəaliyyətindən və tibbi kadr hazırlığındakı rolundan danışıb. Ölkədə tibb tarixində revmatologiya sahəsində ilkə imza atan Azərbaycan Revamotoloqlar İctimai Birliyinin nəzdində “Azərbaycan Revmatologiya və İltihab” jurnalının beynəlxalq indekslər tərəfindən tanınması və təsdiq edilməsini böyük uğur kimi dəyərləndirib. Elmar Rzayev keçirilən konfransın həkimlər, müəllimlər və tələbələr üçün əhəmiyyətinə diqqət çəkib.

Azərbaycan Revamotoloqlar İctimai Birliyi İdarə Heyətinin üzvü, Bakı Sağlamlıq Mərkəzinin Revmatologiya və sistem xəstəlikləri şöbəsinin müdiri Nərgiz Hüseynova “Spondiloartropatiyalar” mövzusunda geniş təqdimatla çıxış edib. İltihabi bel ağrısı, periferal



spondiloartritlər, revmatoloji xəstəliklər zamanı diaqnozun qoyulması, müalicəsi və digər məsələlər haqqında məlumat verib.

Azərbaycan Revamotoloqlar İctimai Birliyi İdarə Heyətinin üzvü, Azərbaycan Tibb Universitetinin tibb üzrə fəlsəfə doktoru Şəhla Hadıyeva “Revmatoid artrit” başlığı ilə əsas revmatoloji autoimmun xəstəliklər, onların səbəbləri, klinik simptomları və digər orqanlara təsiri barədə ətraflı izahlar verib.

Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

**Fəxriyyə Səyyadova**
**Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı**

# “2024-2025-ci tədris ilində TEC xətti ilə aparılmış elmi-tədqiqat işlərinin Başlanğıc Konfransı” keçirilib

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin, akademik Zərifə Əliyevanın və Vətən uğrunda canlarından keçən şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev, universitetin rəhbər heyəti, fakültə dekanları, kafedra müdirləri və tələbələr iştirak edib.

Tədbirin açılışında çıxış edən Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev tələbələrin elmi fəaliyyətə təşviqində bu cür tədbirlərin mühüm rol oynadığını vurğulayıb. Qeyd edib ki, böyük elmi nailiyyətlərin təməli məhz tələbə tədqiqatları ilə qoyulur. “Bu konfransda gələcəyin böyük alimlərinin ilk addımlarının şahidi oluruq. Elmi axtarışlara maraq göstərən hər bir tələbənin inkişafı üçün dəstəyimizi əsirgəmirik”,-deyə rektor əlavə edib. Elbrus İsayev bildirib ki, tələbəyönümlü fəaliyyət strategiyası çərçivəsində Tələbə Elmi Cəmiyyətinin fəaliyyəti yeni mərhələyə qədəm qoymalı, bu istiqamətdə innovativ yanaşmalar və mexanizmlər formalaşdırılmalıdır. Bu səbəbdən universitetin Elmi Şurasının qərarına əsasən tələbə tədqiqatlarının nəşri üçün iki Tələbə jurnalının çapı planlaşdırılır. Elbrus İsayev bildirib ki, bu nəşrlər tələbələrin elmi axtarışlarının nəticələrinin paylaşılması baxımından önəmli platformaya çevriləcək. Rektor eyni zamanda universitetin beynəlxalq reytinqlərdə irəliləməsi və elmi nüfuzunun artırılması istiqamətində tələbələrin akademik heyətlə birlikdə elmi proseslərə cəlb olunmasını müsbət hal kimi dəyərləndirib.

Elm və innovasiya məsələləri üzrə prorektoru Elsevər Əsədov universitetdə elmi-tədqiqatlar sahəsində yeniliklərlə bağlı məlumat verib. Fakültələr üzrə TEC işlərinin təşkilinə dair yeni qaydalar və seçimlər, yazılma qaydası, müzakirə qrafiki, TEC xətti ilə elmi-tədqiqat işinin qiymətləndirilmə meyarları, TEC xətti ilə yer tutmuş tələbələr üçün universitetin verdiyi imtiyazlar və bir sıra önəmli məsələlər barədə təqdimatla çıxış edib.



Naxçıvan Dövlət Universiteti Tələbə Elmi Cəmiyyətinin sədri Yusif Mirzəzadə Tələbə Elmi Cəmiyyətinin fəaliyyət sahələri, strukturu haqqında məlumat verib, 2024-2025-ci tədris ili üzrə Tələbə Elmi Cəmiyyətinin hesabatını təqdim edib. Bildirib ki, cari dövrdə 1745 tələbə elmi-tədqiqatla məşğul olub, son 5 ilə nəzər saldıqda elmi fəaliyyətlə məşğul olan tələbə sayı 3 dəfə artıb. Sevindirici haldır ki, elmi-tədqiqatla məşğul olan tələbələrin 10%-ə qədəri əcnəbi tələbələrin payına düşür. Həmçinin Naxçıvan Dövlət Universitetində 2024-2025-ci tədris ilində 40 nəfərə yaxın magistrantın və 50 nəfərə yaxın bakalavr tələbəsinin məqalə və tezisləri müxtəlif ölkələrin jurnallarında və konfranslarının nəşr toplusunda dərc olunub. Yusif Mirzəzadə TEC-in həyata keçirdiyi tədbirlər haqqında konfrans iştirakçılarına məlumat verib və tələbələrə yaradılan şəraitə görə minnətdarlığını bildirib.

Sonra Hüquqşünaslıq üzrə I kurs tələbəsi Xaliq Orucov “Azərbaycan Respublikasının Konstitusiyası müstəqilliyimizin və suverenliyimizin təminatıdır”, Biologiya müəllimliyi ixtisası üzrə II kurs tələbəsi Həcər Həsənova “Ordubad limonu bitkisinin becərilməsinin aqrotexnologiyası və faydalı xüsusiyyətləri”, Tibb ixtisası üzrə SABAH qrupunun II kurs tələbəsi “Mədə xorası əhali arasında yayılma səviyyəsi və risk faktorlarının analizi” mövzularında elmi-praktiki tədqiqat işlərini nümayiş etdiriblər.

Daha sonra konfrans öz işini bölmə iclasları ilə davam etdirib.

Qeyd edək ki, bölmə iclasları 10 fakültədə, 45 panel üzrə keçirilib, 1745 tədqiqatçı tərəfindən 1633 tədqiqat üzrə məruzələr təqdim edilib.

**Fəxriyyə Səyyadova**
**Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı**

# “İdarəetmədə və təhsildə rəqəmsallaşdırma” mövzusunda II Respublika Elmi konfransının açılış tədbiri keçirilib

Naxçıvan Dövlət Universitetində 23-24 aprel tarixlərini əhatə edən “İdarəetmədə və təhsildə rəqəmsallaşdırma” mövzusunda II Respublika Elmi konfransının açılış tədbiri keçirilib.



Konfrans Naxçıvan Dövlət Universitetinin təşkilatçılığı, Naxçıvan Muxtar Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti və Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsinin tərəfdaşlığı və 20-dən çox elm-təhsil müəssisəsindən olan tədqiqatçıların, universitetin müəllim-tələbə heyətinin iştirakı ilə təşkil edilib.

Tədbirdən əvvəl İncəsənət fakültəsinin tələbələrinin əl işlərindən ibarət sərgiyə baxış olub.

Universitetdə keçirilən konfransda öncə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə açılış nitqi söyləyən Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev konfransın təşkilini yüksək qiymətləndirib, dördüncü sənaye inqilabı dövründə müasir çağırışların rəqəmsal bacarıqları öyrənməyi və yararlanmağı tələb etdiyini vurğulayıb. Eyni zamanda Naxçıvan Dövlət Universitetinin də sürətlə rəqəmsallaşmağa doğru irəlilədiyinə diqqət çəkib. Elbrus İsayev bildirib ki, NDU bu yöndə ölkədə nümunəvi ali təhsil müəssisəsidir ki, ilk dəfə elektron təhsil sisteminə keçib, ölkədə ilk dəfə smart tələbə kartı “TələbəPlus”ın istifadəsini tətbiq edib, tədris prosesi və elmi tədqiqatlarda hibrid təhsil qurulub, elmi əsərlər jurnalı elektronlaşıb. Rektor, həmçinin “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı” çərçivəsində bu il reallaşacaq NDU-da İnnovasiyalar Mərkəzi barədə məlumat verərək, məqsədin ölkədə rəqəmsal bacarıqlara dair strategiyaya uyğun, əmək bazarının tələblərinə cavab verən, yenilikçi kadrlar hazırlamaq olduğunu qeyd edib. Bildirib ki, dünyanın Texnologiya lideri olan IBM-lə NDU arasında əməkdaşlıq müqaviləsinə əsasən universitetdə IBM Mərkəzi istifadəyə verilib və irəlidə bu yöndə təkmilləşdirmə işləri həyata keçiriləcək. Rektor həmçinin universitet+sənaye+hökumət əməkdaşlığının vacibliyini vurğulayıb və bu fəaliyyətlərin uğurlu karyera planlamasına hədəfləndiyini əlavə edib.



Daha sonra plenar çıxışlar başlanıb. Naxçıvan Muxtar Respublikasının rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini, nazir səlahiyyətlərini icra edən Rahid Ələkbərli “Rəqəmsal Dövrdə Strateji İdarəetmə”, Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin rəis müavini, rəis vəzifəsini müvəqqəti icra edən Müslüm Cabbarzadə “Rəqəmsal xəritələrin tətbiqi: müasir çağırışlar”, Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsinin sədri Elçin Əliyev “Rəqəmsal ödəniş ekosistemində innovasiyalar” mövzularında məruzə ilə çıxış ediblər.

Eyni zamanda Azərbaycan Dövlət İqtisad Universitetinin Zaqatala filialının direktoru, iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent Raqif Qasımov “Təhsildə İKT və rəqəmsallaşdırma: UNEC nümunəsi”, Azərbaycan Dövlət Pedaqoji Universitetinin “Təlim tədris mərkəzi”nin müdiri Xalidə Həmidova “Ali təhsil müəssisələrində strateji planlaşdırmanın nəzəri əsasları” və NDU İnformasiya Texnologiyaları şöbə müdiri Hüseyn Əsgərlinin “Naxçıvan Dövlət Universitetində elektron təhsil və rəqəmsallaşdırma” başlıqlı çıxışları dinlənilib.

Çıxışlarda natiqlər Azərbaycan iqtisadiyyatında rəqəmsallaşmanın tətbiqi, bu sahədə statistik məlumatların, aparılan təhlillərin müsbət nəticələri, rəqəmsal maarifləndirməyə göstərilən diqqət, rəqəmsal transformasiya, kibertəhlükəsizlik, süni intellekt və innovativ yeniliklərin qarşıya qoyduğu əsaslı çağırışlardan bəhs ediblər. Həmçinin konfransda rəqəmsal transformasiyanın təhsildə idarəetmə proseslərinə təsiri, qərarvermə mexanizmlərində məlumat analitikasının rolu və liderliyin yeni tələbləri müzakirə edilib.

Konfransda iştirakçıları maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparılıb, suallar cavablandırılıb.

Sonra konfransın keçirilməsində göstərilən təşkilati dəstəyə görə tərəfdaş üzvlərə Naxçıvan Dövlət Universiteti adından rektor Elbrus İsayev tərəfindən təşəkkürnamə təqdim edilib.



Sonda xatirə fotosu çəkilib. Konfrans öz işini bölmə iclasları ilə davam etdirib.

Qeyd edək ki, bölmə iclasları 3 salonda, 10 panel üzrə keçirilib. 23 təşkilatın 115 tədqiqatçısı tərəfindən 83 tədqiqat üzrə məruzələr təqdim edilib. İki gün davam edəcək konfransın sonunda iştirakçılara sertifikatlar verilib.

# “Azərbaycan Psixoloqlarının I Forumu” keçirilib

Aprelin 25-də Naxçıvan Dövlət Universitetinin təşkilatçılığı, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi, Bakı Dövlət Universiteti və Azərbaycan Dövlət Pedaqoji Universitetinin tərəfdaşlığı ilə “Azərbaycan Psixoloqlarının I Forumu” keçirilib.

Açılış tədbirindən öncə Forum iştirakçıları Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzi meydanında ucalan abidəsini ziyarət edib, Heydər Əliyev Muzeyində Ulu Öndərin həyatını və çoxşaxəli dövlətçilik fəaliyyətini əks etdirən eksponatlarla yaxından tanış olublar.

Forumda təşkilatçı və dövlət qurumlarının rəhbər şəxsləri, Azərbaycanın müxtəlif elm təhsil müəssisələrindən iştirak edən mütəxəssislər, Naxçıvan Muxtar Respublikasının bütün ümumtəhsil məktəblərinin psixoloqları, NDU Tibb fakültəsinin Psixologiya ixtisasında təhsil alan tələbələr, eyni zamanda Türkiyə Respublikasının bir neçə universitetindən gəlmiş qonaqlar iştirak ediblər.



Naxçıvan Dövlət Universitetində keçirilən forumun açılış tədbirindən əvvəl Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev qonaqları salamlayıb, birincisi keçirilən forumun təşkilini yüksək qiymətləndirib. Bildirib ki, universitetdə müxtəlif sahələri əhatə edən ənənəvi forumlar elmin inkişafına mühüm töhfə verir və yeni istiqamətlərin formalaşmasına səbəb olur. “Əminik ki, bu forumdan əldə olunan nəticələr, çap olunacaq materiallar universitetin Psixologiya ixtisasında tədrisin keyfiyyətini daha da yüksəltməklə yanaşı ümumilikdə ölkədə bu sahənin inkişafına dəstək olacaq”,-deyə rektor əlavə edib. Elbrus İsayev həmçinin yaxın gələcəkdə universitetdə Psixologiya Mərkəzinin yaradılması ilə bağlı mühüm işlərin həyata keçirildiyini qeyd edib.



Daha sonra plenar çıxışlar başlanıb və məruzələr dinlənilib.

Naxçıvan Muxtar Respublikası təhsil naziri Elxan Nəcəfov muxtar respublikada məktəb psixoloqlarının fəaliyyəti, onların peşə bacarıqlarının artırılması istiqamətində görülən işlərdən bəhs edib. Gənc nəslin yetişməsində mühüm məsuliyyət daşıyan məktəb psixoloqlarının belə tədbirlərdə iştirakının önəminə diqqət çəkib.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin İbtidai təhsil fakültəsinin dekanı, psixologiya elmləri doktoru, professor Qızxanım Qəhrəmanova, Türkiyənin Malatya Turqut Özal Universitetinin rektor köməkçisi, professor İlhan Erdem, Yıldız Texnik Universitetin rektor müşaviri, professor Mehmet Engin Deniz məruzələrlə çıxış ediblər. Eyni zamanda Azərbaycan Respublikası Təhsil İnstitutunun Psixologiya və xüsusi təhsil şöbəsinin müdiri, psixologiya elmləri doktoru, dosent Elxan Bəylərov, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialının Elmi işlər üzrə direktor müavini, dosent Nuralı Çələbiyev və Naxçıvan Dövlət Universitetinin Magistratura və Doktorantura Mərkəzinin direktoru, psixologiya üzrə fəlsəfə doktoru Çapay Quliyev psixologiyada müasir yanaşmalara və yeni çağırışlara toxunaraq aktual məsələlərə dair başlıqlarda məruzələr təqdim ediblər.

Sonra plenar məruzəçilərə universitet rektoru tərəfindən təşəkkürnamələr verilib.

Forumun rəsmi hissəsi başa çatdıqdan sonra universitetin Xalq Çalğı Alətləri Orkestrinin ifasında konsert proqramı təqdim edilib.

Sonda xatirə fotosu çəkilib. Forum öz işini bölmə iclasları ilə davam etdirib. Bölmə iclaslarında ümumilikdə 7 istiqamətdə müzakirələr aparılıb. 21 təşkilatın 137 nəfər tədqiqatçısı tərəfindən təqdim olunan 125 tədqiqat üzrə məruzələr 3 salonda dinlənilib.



Təcrübəli mütəxəssislərin təqdimatında 8 mövzuda 8 zalda keçirilən təlim və vörkşoplarda aktual məsələlər ətrafında müasir praktik yanaşmaların və tətbiqlərin paylaşılması təmin edilib. Eyni zamanda Naxçıvan MR-in bütün ümumtəhsil məktəblərinin psixoloqları, NDU Tibb fakültəsinin Psixologiya ixtisasında təhsil alan tələbələri, NDU-dan və müxtəlif universitetlərdən qatılan mütəxəssislər iştirak edib.

**Kifayət Mahmudova**
**Media və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri**

# NDU və BDU Elmi Kitabxanaları arasında onlayn görüş

Naxçıvan Dövlət Universitetinin Elmi Kitabxanasında Bakı Dövlət Universitetinin Elmi Kitabxanasının rəhbər heyəti və əməkdaşları arasında onlayn görüş keçirilib.



Görüşdə NDU Elmi Kitabxanasının direktoru Xumar Məmmədova, BDU Elmi Kitabxanasının direktoru Nigar İsmayılova, şöbə müdiri, Azərbaycan Kitabxana İnformasiya Konsorsiumunun rəhbəri Cəmilə Yusifova və hər iki kitabxananın əməkdaşları iştirak ediblər.

NDU və BDU Elmi Kitabxanaları arasındakı görüşdə əsas məqsəd əməkdaşlığın daha da inkişaf etdirilməsi, kitab resurslarının mübadiləsi və beynəlxalq elektron bazalara yeni çıxış imkanlarının genişləndirilməsi olub.

Onlayn formatda baş tutan görüşdə Xumar Məmmədova və Nigar İsmayılova universitet kitabxanalarının fəaliyyəti, resursları və inkişaf perspektivləri barədə ətraflı məlumat veriblər. Sonra qarşılıqlı fikir mübadiləsi və müzakirələr aparılıb.

# Universitetdə ağacəkmə aksiyası keçirilib





Naxçıvan Dövlət Universitetinin ərazisində ekoloji mühitin sağlamlaşdırılması məqsədilə ağacəkmə aksiyası təşkil olunub. Aksiyada universitetin rektoru Elbrus İsayev, Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Cabbar Musayev, Azərbaycan Dövlət İqtisad Universiteti "Elmi fəaliyyətin təşkili və idarə edilməsi departamenti"nin direktoru Zahid Məmmədov, azərbaycanlı alim, ixtiraçı, elektronika mühəndisi Xəlil Kələntər və universitetin prorektorları, rektor müşavirləri, bütün fakültələrin dekanları iştirak ediblər.

Aksiya çərçivəsində 50 ədəd "Xan çinar" ağacı əkilib.

Qeyd edək ki, hər bir əkilən ağac üçün xüsusi QR kod yaradılacaq və bu kod vasitəsilə aksiyanın gedişatını əks etdirən videogörüntülərə baxmaq mümkün olacaq.

# Süni intellektin media sektorundakı tətbiqi və riskləri

NDU-nun Elmi Kitabxanasının direktoru Xumar Məmmədova çıxış edərək Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilmiş "Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt strategiyası"nın əhəmiyyətindən bəhs edib. O, strategiyada nəzərdə tutulan tədbirlərin icrasının ölkədə süni intellektin inkişafına və onun müxtəlif sahələrdə, xüsusilə media sektorunda tətbiqinə töhfə verəcəyini vurğulayıb.





Universitetin "Jurnalistika və xarici ölkələr ədəbiyyatı" kafedrasının müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Şəhla Şirəliyeva mediada süni intellektin effektivliyi, təsirləri və riskləri barədə geniş çıxış təqdim edib. O, süni intellektin informasiya axınının sürətlənməsinə, jurnalistikanın yeni imkanlar qazanmasına şərait yaratdığını, eyni zamanda saxta xəbərlərin yayılma riskini artırdığını bildirib.

Şəhla Şirəliyeva süni intellektin xəbərlərinin hazırlanması və redakte prosesində istifadəsi ilə bağlı nümunələr təqdim edərək jurnalistlərin etik məsuliyyətinin vacibliyini diqqətə çatdırıb.

Tədbir müzakirələrlə davam edib.

# Akademik Zərifə Əliyevanın anım günü ilə əlaqədar dəyirmi masa keçirilib

15 apreldə keçirilən tədbirdə Tibb fakültəsinin dekanı Ənvər İbrahimov, Şəfiqə Süleymanova, "Klinik fənlər və hərbi tibb" kafedrasının müdiri Gültəkin Əliyeva, "Təməl tibb fənləri" və "Əczaçılıq və biokimya" kafedrasının əməkdaşları iştirak ediblər.



Çıxışlarda Zərifə Əliyevanın həyatı, elmi fəaliyyəti, xüsusilə oftalmologiya sahəsindəki böyük xidmətləri haqqında məlumatlar diqqətə çatdırılıb, onun elmi irsinin Azərbaycan xalqı və təhsil sistemi üçün böyük əhəmiyyət kəsb etdiyi vurğulanıb.

Qeyd olunub ki, Zərifə xanım Əliyeva Azərbaycan tibb elminin önəmli simalarından biri olub, onun 1960-cı ildə müdafiə etdiyi namizədlik dissertasiyası "Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi" mövzusu traxoma xəstəliyinin müalicəsində yeni yanaşmaların inkişafına və bu yanaşmaların ölkə boyu tətbiqinə imkan yaradıb.

Vurğulanıb ki, görkəmli oftalmoloq-alim Zərifə xanımın həyatını və işlərini yad etmək, onun şəxsiyyətinin və elmi irsinin əhəmiyyətini xatırlamaq, gənc nəsillərə bu böyük alimdən örnək götürməyi təşviq etmək vacibdir. Zərifə Əliyeva, ümumiyyətlə, tibb elminə olan böyük marağı və zəhməti ilə tanınır və öz fəaliyyəti ilə Azərbaycanda tibbin yüksək səviyyəyə yüksəlməsinə xidmət edib. Zərifə xanımın xatirəsi hər zaman hörmətlə anılacaq.

# "Molla Nəsrəddin" jurnalında müqəddəs Vətən idealı" mövzusunda dəyirmi masa keçirilib

Naxçıvan Dövlət Universitetinin Elmi Kitabxanasında universitetin Tarix-filologiya fakültəsinin müəllim və tələbələrinin iştirakı ilə "Molla Nəsrəddin" jurnalında vətənpərvərlik ideyaları mövzusuna həsr olunan dəyirmi masa təşkil edilib.







Elmi Kitabxananın direktoru Xumar Məmmədova bildirib ki, kitabxanada Cəlil Məmmədquluzadənin redaktorluğu ilə nəşr edilən "Molla Nəsrəddin" jurnalının müxtəlif illərə aid cildləri saxlanılır və bu nəşrlər tələbələr üçün dəyərli elmi mənbədir.

Universitetin filologiya üzrə fəlsəfə doktoru, dosent İman Cəfərli jurnalın milli oyanış və maarifçilik missiyasını vurğulayaraq Cəlil Məmmədquluzadənin rəhbərliyi ilə nəşr edilən bu jurnalın Azərbaycan xalqının milli kimliyinin formalaşmasına və vətənpərvərlik duyğularının gücləndirilməsinə böyük töhfə verdiyini qeyd edib. İman Cəfərli "Molla Nəsrəddin" jurnalının təkcə dövrünün ictimai-siyasi problemlərini tənqid etmədiyini, eyni zamanda Vətənə bağlılıq və milli dəyərlərin qorunması ideyalarını da aşıladığını diqqətə çatdırıb. Onun sözlərinə görə, jurnalın satirik dili və cəsarətli tənqidləri xalqın sosial-siyasi şüurunu oyatmaq, ədalətsizliklərə qarşı mübarizəyə ruhlandırmaq məqsədi daşıyırdı.

Tədbir müzakirələr və "Molla Nəsrəddin-119" adlı sərgiyə baxış ilə yekunlaşıb.

***Nardanə Əliyeva***
***Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı***

# "Bədii yaradıcılıq müsabiqə-festivalı": Naxçıvan Dövlət Universitetində əhəmiyyətli mədəni təhsil tədbiri

Öncə universitetin İncəsənət fakültəsində tələbələrin rəsm əsərlərindən ibarət sərgiyə baxış olub.

Sonra "Bədii yaradıcılıq müsabiqə-festivalı"nın açılış mərasimi başlayıb. Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.





Tədbir Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsi, Naxçıvan Dövlət Universiteti və universitetin Tələbə Həmkarlar İttifaqı Komitəsinin təşkilatçılığı ilə keçirilib.

Tədbirdə rektor Elbrus İsayev, Azərbaycan Respublikasının Xalq artisti Mübariz Tağıyev, Bakı Xoreoqrafiya Akademiyasının prorektoru, Xalq artisti Təranə Muradova, Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi Baba Vəziroğlu, Xalq artisti Gülyanaq Məmmədova, Qarabağ Universitetinin İncəsənət fakültəsinin "İfaçılıq və musiqi müəllimliyi" kafedrasının müdiri Arslan Növrəsli və digər nümayəndələr, universitetin rəhbər heyəti, müəllim və tələbələri iştirak ediblər.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev ali təhsil müəssisələrinin tələbələri arasında Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102, Naxçıvan Muxtar Respublikasının yaranmasının 101 illiyinə həsr olunmuş "Bədii yaradıcılıq müsabiqə-festivalı"nı açıq elan edərək qonaqları salamlayıb. Rektor ənənəvi olaraq keçirilən və dördüncü dəfə universitetdə təşkil olunan müsabiqə-festivalın mədəniyyətimizə qazandırdığı dəyərlərin mahiyyətindən danışıb. Bildirilib ki, tədbir özfəaliyyət qruplarında istedadlı gənclərin aşkarlanması, qiymətləndirilməsi və tanıdılması yönündə ölkədə keçirilən mütərəqqi və əsas tədbirlərdən biridir. Eyni zamanda tələbələri milli vətənpərvərlik, mədəniyyətimizə, incəsənətimizə, milli adət-ənənələrimizə hörmət ruhunda tərbiyə etmək baxımından xüsusi əhəmiyyət daşıyır. Həmçinin gənclərin bədii-estetik zövqünü inkişaf etdirmək, incəsənət və mədəniyyətimizin ayrı-ayrı sənət növləri üzrə istedadlarının üzə çıxarılması, onların qabiliyyətlərinin inkişaf etdirilməsi baxımından önəmli rola malikdir.





Daha sonra "Cəngi" nağara çalanlar ansamblı, "Qədim xalq çalğı alətləri ansamblı" və Rəqs kollektivinin ifasında rəngarəng çıxışlar ilə davam edib.

Universitetin Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Hüseyn İmanov çıxış edərək beş kateqoriyada fərqli və zəngin təqdimatların yer aldığı müsabiqə mərhələsi haqqında məlumat verib.



Sonra müsabiqəyə start verilib. Milli və dünya xalqlarının çalğı alətlərinin ifası, bədii qiraət, vokal, saz, rəqs kateqoriyalarında iştirakçıların təqdimatı izlənilib. Tələbələrdən ibarət özfəaliyyət yaradıcılıq kollektivləri, dərnək və studiyalar, solo ifaçılar, bədii qiraətçilər, həvəskar rəqqas və musiqiçilər, həmçinin orkestr və ansamblar, rəqs kollektivləri, solo ifaçılar çıxışlarında bacarıqlarını nümayiş etdiriblər. Çıxışlar münsiflər heyəti tərəfindən qiymətləndirilib. Bildirək ki, müsabiqə-festival müxtəlif nominasiyalar üzrə təşkil olunub və bütün mərhələlərdən uğurla keçən tələbələr may ayında yekun konsertdə iştirak hüququ qazanıblar.



Qeyd edək ki, müsabiqə mərhələsindən sonra həmin gün növbəti görüşdə münsiflər heyətinin üzvləri Xalq artistləri Mübariz Tağıyev, Təranə Muradova, Gülyanaq Məmmədova, Əməkdar incəsənət xadimi Baba Vəziroğlu, Arslan Növrəsli tələbələr üçün ustad dərsi keçiblər.

# Tələbələrə ustad dərsləri keçirilib

Naxçıvan Dövlət Universitetində ali təhsil müəssisələrinin tələbələri arasında Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102, Naxçıvan Muxtar Respublikasının yaranmasının 101 illiyinə həsr olunmuş "Bədii yaradıcılıq müsabiqə-festivalı" çərçivəsində münsiflər heyəti tələbələr üçün ustad dərsi keçiblər.

Azərbaycan Respublikasının Xalq artistləri Mübariz Tağıyev və Gülyanaq Məmmədova ilə ali təhsil ocağının İncəsənət fakültəsində görüş keçirilib. Universitetin "Orkestr alətləri və dirijorluq" kafedrasının müdiri Mübariz Əsgərov qeyd edib ki, hər iki sənətkarın yaradıcılığı Azərbaycan musiqi mədəniyyətində özünəməxsus yer tutur, onların zəngin repertuarları, əsrarəngiz ifaları yaddaşlara həkk olunub.



Görüş zamanı xalq artistləri Mübariz Tağıyev və Gülyanaq Məmmədova bildiriblər ki, Azərbaycan musiqisi çoxəsrlik inkişaf tarixinə, zəngin ənənələrə malikdir. Musiqimizin hər bir sahəsində incəliklər dərindən mənimsənilməli və doğru təqdim edilməlidir.

Universitetin Elmi Kitabxanasında isə əməkdar incəsənət xadimi Baba Vəziroğlu ilə görüş olub. Görüşdə universitetin tarix-filologiya fakültəsinin dekanı Arif Ağalarov nasir, şair, tərcüməçi, kinodramaturq Baba Vəziroğlunun yaradıcılığı haqqında danışıb. Görüşün hər kəs üçün xoş təəssürat oyatdığına əminlik ifadə olunub. Diskussiya formatında davam edən görüşdə Baba Vəziroğlu müəllim və tələbələrin suallarını cavablandırıb.



Bakı Xoreoqrafiya Akademiyasının prorektoru, xalq artisti Təranə Muradova ilə ustad dərsi isə universitetin İdman Kompleksində baş tutub. Təranə Muradova NDU-nun və universitetin nəzdində Musiqi Kollecinin tələbələrinin musiqi və rəqs bacarıqlarını qiymətləndirib, əyani şəkildə həm elementlər, həm də rəqslər nümayiş etdirib, iştirakçıların suallarını cavablandırıb.



Həmçinin Qarabağ Universitetinin İncəsənət fakültəsinin ifaçılıq və musiqi müəllimliyi kafedrasının müdiri Arslan Növrəsli ilə də universitetin İncəsənət fakültəsində görüş olub. Naxçıvan Dövlət Universiteti nəzdində Naxçıvan Musiqi Kollecinin direktor müavini Fətəli Axundzadə və "Xalq Çalğı Alətləri" kafedrasının kafedra müdiri əvəzi İsmayıl Mürsəlov Arslan Növrəslinin fəaliyyəti və yaradıcılığı haqqında danışıb. Musiqinin bütün janrlarını böyük - klassik, caz, xalq mahnılarını daim öz kompozisiyalarında tətbiq edən Arslan Növrəsli xüsusilə tarın çoxşaxəliliyi barədə incəliklərə diqqət çəkib, müasir yanaşmalar improvizasiya üsulu ilə ifa və digər başlıqlarda məlumatlar bölüşüb, həmçinin universitetin və NDU nəzdində Musiqi Kollecinin müəllim və tələbələrinin suallarını cavablandırıb.

***Kifayət Mahmudova***
***Media və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri***

# “Bədii yaradıcılıq müsabiqə-festivalı”nda iştirak edən nümayəndə heyəti ilə görüş



Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102, Naxçıvan Muxtar Respublikasının yaranmasının 101 illiyinə həsr olunmuş “Bədii yaradıcılıq müsabiqə-festivalı”nda iştirak edən nümayəndə heyətini qəbul edib.

Görüşdə Azərbaycan Respublikasının Xalq artisti Mübariz Tağıyev, Bakı Xoreoqrafiya Akademiyasının prorektoru, Xalq artisti Təranə Muradova, Azərbaycan Respublikasının Əməkdar İcəsənət xadimi Baba Vəziroğlu, Qarabağ Universitetinin İncəsənət fakültəsinin “İfaçılıq və musiqi müəllimliyi” kafedrasının müdiri Arslan Növrəsli, Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin müşaviri, baş katib Pərvanə İsmayılova, Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Elnur Cəfərov, Mədəni, kütləvi və idman işləri şöbəsinin baş mütəxəssisi Rüstəm Nəsirov, Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin baş mütəxəssisi Aygül Bağırova və universitetin rəhbər şəxsləri iştirak ediblər.

Rektor Elbrus İsayev qonaqları salamlayıb, dəvəti qəbul edib iştirak etdikləri üçün təşəkkürünü bildirib. Rektor artıq dördüncü dəfədir universitetdə təşkil olunan “Bədii yaradıcılıq müsabiqə-festivalı”nın əhəmiyyətindən danışıb, vurğulayıb ki, ali təhsil ocağında keçirilən mədəni-kütləvi tədbirlərdə milli dəyərlərimiz hər zaman əsas tutulur.

Qonaqlar “Bədii yaradıcılıq müsabiqə-festivalı”nın NDU-da keçirilməsi təşəbbüsünü yüksək qiymətləndirib.

Qeyd edək ki, tədbir Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsi, Naxçıvan Dövlət Universiteti və universitetin Tələbə Həmkarlar İttifaqı Komitəsinin təşkilatçılığı ilə keçirilib.







# Qonaqların universitet haqqında təəssüratları

**Bakı Xoreoqrafiya Akademiyasının prorektoru, Xalq artisti Təranə Muradova: “Mən hər dəfə Naxçıvana gələndə xüsusi bir məmnunluq hissi keçirirəm. Bizim üçün sevindirici haldır ki, bu doğma elm ocağında – Naxçıvan Dövlət Universitetində, Ümummilli Liderimiz Heydər Əliyevin adına həsr olunmuş festivala qatılırıq”.**



“Görürəm ki, burada olduqca istedadlı tələbələr yetişir. Onların çıxışları – rəqslər, şeirlər, mahnılar, vokal və saz ifaları böyük zövqlə təqdim olunur. Bu da onu göstərir ki, gənclərə öz istedadlarını nümayiş etdirmək üçün lazımi şərait yaradılıb. Ümid etdiyimiz kimi, builki festival da yüksək səviyyədə təşkil olundu və istedadlı tələbələr seçildi. Onlar qarşıdan gələn möhtəşəm yekun konsert proqramında – Bakı şəhərində, Ümummilli Liderimiz Heydər Əliyevin adına keçiriləcək tədbirdə iştirak edəcəklər. Hər kəsə uğurlar arzulayıram”.

***

**Azərbaycan Respublikasının Xalq artisti Mübariz Tağıyev: “Naxçıvanda həmişə istedadlı gənclər çox olub”.**

“Mən Naxçıvanda tez-tez oluram. Bu dəfəki səfərim isə bir qədər fərqli məqsədlədir. Hazırda universitetlər arasında keçirilən özfəaliyyət dərnəklərinin baxışındayıq. Bu mərhələnin sonunda isə Heydər Əliyev Sarayında möhtəşəm yekun konsert təşkil olunacaq. Təbii ki, həmin konsertdə iştirak edəcək istedadlı tələbələr bu günlərdə keçirilən baxışlarda seçilirlər. Məni xüsusilə sevindirən məqam odur ki, bugünkü baxış zamanı təxminən on iki uğurlu və xoş təsir bağışlayan çıxış izlədik. Görürük ki, universitetlərin rəqs ansamblları yaxşı hazırlıq səviyyəsindədir. Hətta saz ifaları da ruhumuzu oxşayacaq qədər gözəl təqdim olundu. Biz bu səviyyəyə təəccüblənmirik. Çünki Naxçıvan hər zaman istedadlı və bacarıqlı gəncləri ilə seçilib. Bütün iştirakçılara uğurlar arzulayıram. Əminəm ki, yekun konsertdə bu gənclər parlaq çıxışları ilə tamaşaçılara gözəl anlar yaşadacaqlar”.



***

**Qarabağ Universitetinin İncəsənət fakültəsinin ifaçılıq və musiqi müəllimliyi kafedrasının müdiri Arslan Növrəsli: “Bu gün sizin görüşə Bakıdan yox, Xankəndindən gəlmişəm”.**



“Ulu Öndərin adını daşıyan bədii yaradıcılıq müsabiqə-festivalı bizim üçün artıq bir bayrama çevrilib. Hər il Naxçıvana gələndə burada yüksək səviyyədə təşkil olunan gözəl konsert proqramlarını izləyirik. Uşaqlara deyirəm ki, çıxışları çox bəyənirəm. Qeyri-ixtisas sahibləri olsa belə, səhnədə çox uğurlu və peşəkar performans nümayiş etdirirlər. Hər bir iştirakçıya uğurlar arzulayıram. Bu gün sizin görüşə Bakıdan deyil, Xankəndindən – Qarabağ Universitetindən gəlmişəm. Hazırda fəaliyyətimi orada davam etdirirəm. Bu iştirakım eyni zamanda universitetlərarası əməkdaşlıq kimi də dəyərləndirilə bilər. Burada çox gözəl ab-hava var. Başda Elbrus müəllim olmaqla, bütün əməkdaşlar bizə qarşı son dərəcə doğma və səmimi münasibət göstərirlər. Bunun üçün təşəkkür edirəm və hər birinizi yekun konsertə dəvət edirəm”.

***

**Xalq artisti Gülyanaq Məmmədova: “Naxçıvan Dövlət Universitetində dərs prosesi, məsuliyyət və zəhmət çox böyükdür”.**



“Bu gün belə bir müsabiqə-festivalın keçirilməsi olduqca təqdirəlayiqdir. Mən Həmkarlar İttifaqının bu təşəbbüsünü alqışlayıram. Universitetlər arasında, həmçinin qeyri-peşəkarlar sırasından istedadlı gəncləri üzə çıxarmaq istiqamətində atılan bu addım əsl sənət sevgisinin göstəricisidir. Bu festivallarda elə ifaçılarla rastlaşırıq ki, əsas peşələri başqa sahəyə aid olsa da, səsləri ilə hər kəsi heyran edirlər. Belə istedadların kəşf olunması və dəstəklənməsi vacibdir. Çünki gözəl səslər səhnəmizin bəzəyidir və bizim uğurumuzdur. Mən dəfələrlə Naxçıvan Dövlət Universitetində olmuşam. Orada dərs prosesi, məsuliyyət və zəhmət çox yüksək səviyyədə təşkil olunub. Hiss olunur ki, burada həm rəhbərlik, həm kollektiv, həm də tələbələr arasında ciddi nizam-intizam və elmə maraq var. Bir universitetin rəhbəri yaxşı olanda, onun kollektivi, tələbələrinin biliyi və savadı da o səviyyədə olur. Bütün Naxçıvanlılara sevgilərimi və dərin hörmətimi çatdırıram”.

***

**Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi Baba Vəziroğlu: “NDU-nun tələbələrinin qaliblər sırasında olması sevindirici haldır”.**

“Bilirsiniz ki, artıq neçə illərdir Ulu Öndər Heydər Əliyevin ad günü ərəfəsində respublika miqyaslı bədii yaradıcılıq müsabiqəsi keçirilir. Bu layihə gənc istedadların üzə çıxarılması baxımından çox önəmlidir. Müsabiqənin qalibləri Bakıda – Heydər Əliyev Sarayında təşkil olunan yekun konsertə dəvət olunur, mükafatlandırılır. Mən xüsusilə sevinirəm ki, Naxçıvandan olan gənclər bu tədbirlərdə hər zaman uğurla çıxış edirlər. Bu ilki müsabiqə isə əvvəlkilərlə müqayisədə daha da yüksək səviyyədə təşkil olunmuşdu. Gənclərin çıxışlarında böyük inkişaf hiss olunur. Mən hər zaman düşünürəm ki, hər bir kollektivin uğuru onun rəhbərindən asılıdır. Ən kiçik müəssisədən tutmuş böyük təşkilatlara qədər – rəhbərin diqqəti və qayğısı həlledici rol oynayır. Elbrus müəllimin bu sahəyə göstərdiyi diqqət və qayğını eşidəndə, əldə olunan nəticələr mənə təəccüblü gəlmir. Əgər mən də bu tələbələrin sırasında olsaydım və mənə bu qədər ehtiram, diqqət və qayğı göstərilsəydi, mütləq bu etimadı doğrultmağa çalışardım. Sağ olsun bizim gənclərimiz – onlar bu diqqəti yüksək səviyyəli çıxışları ilə layiqincə cavablandırırlar. Bu gün izlədiyimiz konsert proqramı çox gözəl idi. Ən istedadlı gəncləri mayın 16-da Bakının ən mötəbər konsert salonlarında görəcəyik. Bu gənclər arasında Naxçıvan Dövlət Universitetinin tələbələrinin də yer alması, sözsüz ki, sevindirici və qürurverici haldır”.



## Elbrus İsayev rəqs üzrə Azərbaycan birincisi olan tələbələrlə görüşüb

Xəbər verdiyimiz kimi, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş "Sən elə bir zirvəsən" adlı respublika ifa müsabiqəsində Naxçıvan Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən Naxçıvan Dövlət Texniki Kollecinin rəqs qrupu "Tənzərə" (Şərur yallısı) ilə iştirak edərək, rəqs nominasiyası üzrə birinci yerə layiq görülüb.



Bu münasibətlə Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev rəqs qrupunun üzvləri ilə görüşüb.

Görüşdə universitetin Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Nicat Yaqubov, kollecin direktoru Asəf Ruşanov da iştirak edib.

Rektor Elbrus İsayev tələbələri birincilik münasibətilə təbrik edib, kollecin elmi, sosial və mədəni fəaliyyətini yüksək qiymətləndirib. Bildirib ki, bu il 100 illiyi qeyd olunan kollec, bir əsrlik fəaliyyəti ərzində təhsil və peşə bacarıqlarının inkişafına mühüm töhfələr verib, yüksək istedadlı tələbələr yetişdirib. Kollec məzunları subbakalavr kimi ali təhsil müəssisələrində təhsillərini davam etdirərək ixtisaslı kadr kimi müvafiq sahələrdə uğurla fəaliyyət göstərirlər.

Kollecin direktoru Asəf Ruşanov yeni tədris ili üçün planlaşdırılan yeniliklərdən bəhs edib, tələbələrin universitetin təhsil bazasından yararlanmasının üstünlüklərini diqqətə çatdırıb.

Sonra tələbələr göstərilən diqqətə görə minnətdarlıqlarını bildiriblər.

Görüşün sonunda xatirə fotosu çəkilib.

Qeyd edək ki, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin təşkilatçılığı ilə keçirilən müsabiqə peşə və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında keçirilib. Müsabiqənin yekun konserti və qaliblərin mükafatlandırılması mərasimi may ayında Bakı şəhərində baş tutacaq.

**Fəxriyyə Səyyadova**
**Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı**

## "Erudit onlayn" Beynəlxalq Kimya Müsabiqəsinin qalibləri



Universitetin "Kimya" kafedrasının müdiri Şəmil Mahmudov və Təbii Ehtiyatlar İnstitutunun Hidrogeologiya və mineral sular laboratoriyasının rəhbəri Fizzə Məmmədovanın rəhbərliyi ilə Kimya müəllimliyi III kurs tələbələri Aliyə Cəfərova və Nurtac Rəhimova beynəlxalq səviyyədə uğur əldə ediblər.



Belə ki, tələbələr "Erudit onlayn" Beynəlxalq Kimya Müsabiqəsində iştirak edərək I yerə layiq görülüblər. Göstərilən yüksək nəticəyə görə onlar I dərəcəli diplom və qızıl medalla təltif ediliblər.

Qeyd edək ki, "Erudit onlayn" Beynəlxalq Kimya Müsabiqəsi müxtəlif ölkələrin tələbələri arasında keçirilən nüfuzlu elmi yarışdır. Müsabiqə iştirakçılarının kimya bilikləri və analitik düşünmə bacarıqlarını qiymətləndirməyə yönəlib.

## Tərcümə ixtisası tələbələrinin Bakı şəhərində istehsalat təcrübəsi davam edir

Universitetin Xarici Dillər fakültəsinin Tərcümə ixtisası üzrə təhsil alan tələbələri Azərbaycan Dillər Universiteti ilə NDU arasında mövcud olan əməkdaşlıq çərçivəsində Bakı şəhərində fəaliyyət göstərən "Şəms" Tərcümə Mərkəzində istehsalat təcrübəsi keçirlər.



Xarici Dillər fakültəsinin nümayəndələri təcrübənin gedişi ilə yerində tanış olaraq tələbələrin fəaliyyətini yaxından izləyiblər. Tərcümə Mərkəzinin direktoru Nəsimi Həsənov tələbələrin təcrübə müddətində qazandıqları bilik və bacarıqlar, proqramın məzmunu və əldə edilən nəticələr barədə ətraflı məlumat verib. Görüşdə, eyni zamanda, Azərbaycan Dillər Universitetinin Tərcümə fakültəsinin dekanı, filologiya elmləri doktoru Bənövşə Məmmədova da iştirak edib.

Belə əməkdaşlıqlar tələbələrin nəzəri biliklərini real iş mühitində tətbiq etməsi, peşəkar tərcümə bacarıqlarını inkişaf etdirməsi və gələcəkdə əmək bazarında rəqabətqabiliyyətli mütəxəssis kimi formalaşması baxımından xüsusi əhəmiyyət daşıyır.

Tələbələrimizə uğurlar arzulayır, Azərbaycan Dillər Universitetinin rəhbərliyinə və "Şəms" Tərcümə Mərkəzinə göstərdikləri dəstəyə görə xüsusi təşəkkürümüzü bildiririk.

## Mini futbol yarışının açılışı baş tutub

Naxçıvan Dövlət Universitetində XVI Universiada proqramına daxil olan "Konstitusiya və Suverenlik ili"nə həsr olunmuş mini futbol yarışının açılış mərasimi baş tutub. Yarışlarda universitet fakültələrinin komandaları və universitet nəzdində fəaliyyət göstərən kolleclərin komandaları iştirak edir. Ümumilikdə 10 komandanın qatıldığı yarışlar dairəvi sistem üzrə keçirilir.



## NDU-nun tələbələri Stolüstü tennis birinciliyində yarışın qalibi olublar




Birincilik 9 aprel tarixində Naxçıvan şəhərində keçirilib və "Konstitusiya və Suverenlik İli"nə həsr olunub. Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən Naxçıvan Hərbi Kollecində təşkil olunan yarış, ali və orta ixtisas təhsili müəssisələrinin tələbələrini və hərbi liseyin kursantlarını əhatə etməklə, oğlanlar və qızlar arasında keçirilib.

Yarışın nəticələrinə əsasən, Naxçıvan Dövlət Universitetinin (NDU) tələbələri Lalə Musayeva və Zabihi İlyas birinci yerin qalibi olublar. İkinci yeri Naxçıvan Müəllimlər İnstitutunun tələbəsi Rübab Əliyeva və NDU tələbəsi Elşən Quliyev tutublar. Üçüncü yerə isə NDU tələbəsi Obut Beyza və Naxçıvan Hərbi Kollecinin kursantı Uğur Həsənov layiq görülüblər.



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin, Naxçıvan Hərbi Kollecinin dəstəyi, Naxçıvan şəhər Gənclər və İdman İdarəsinin və Naxçıvan şəhər Uşaq-Gənclər İdman Məktəbinin təşkilatçılığı ilə keçirilən yarışın sonunda ilk üç yerin sahiblərinə diplom və medallar, hakimlərə isə təşəkkürnamələr təqdim edilib.

## Naxçıvan Dövlət Universitetinin tələbəsi "Grand Prix" Azərbaycan Beynəlxalq Karate Turnirində III yeri qazandı

Bakı şəhərində, Sərhədçi Olimpiya İdman Kompleksində keçirilən "Grand Prix" Azərbaycan beynəlxalq karate turnirində 30 ölkənin idmançısı mübarizə aparıb. Ölkəmizin ev sahibliyi etdiyi bu turnirdə Naxçıvan Dövlət Universitetinin İqtisadiyyat və idarəetmə fakültəsinin Menecment ixtisasının I kurs tələbəsi Qafar Hüseynov III yerin qalibi olub.



# Tibb fakültəsinin tələbələri Rumıniyada təcrübə keçiblər

Tələbələr “Carol Davila” Tibb və Əczaçılıq Universitetində praktiki təcrübə qazanıblar.

Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin “Müalicə işi” ixtisası üzrə təhsil alan tələbələri, EMSA (Avropa Tibb Tələbələri Təşkilatı) üzvü olaraq, beynəlxalq mübadilə proqramı çərçivəsində Rumıniyanın paytaxtı Buxarest şəhərindəki “Carol Davila” Tibb və Əczaçılıq Universitetində olublar. Tələbələr, universitetin Praktiki Anatomiya dərsində iştirak edib, Tədris Xəstəxanasında ortopedik əməliyyatlarda yaxından iştirak ediblər.

Eyni zamanda ümumi cərrahi əməliyyatlarda iştirak edən tələbələr, laparoskopiya simulyasiya üzrə təlimlər alıblar. Bu təcrübə, tələbələrə cərrahi prosedurları daha dərindən anlamaq və tətbiq etmək imkanı verib.

Bundan əlavə, tələbələr Buxarest şəhərində müxtəlif mədəni və sosial proqramlara da qatılıblar. Bu, onların həm peşəkar, həm də şəxsi inkişafları üçün böyük bir fürsət olub.

Mübadilə proqramı çərçivəsində, 6-13 may 2025-ci il tarixlərində Buxarestdən 11 tələbənin Naxçıvan Dövlət Universitetinə gəlməsi gözlənilir. Bu, tələbələr arasında mədəni və tədris sahəsindəki əməkdaşlığı daha da inkişaf etdirəcək.

Naxçıvan Dövlət Universiteti, yerli və xarici universitetlərlə bağladığı əməkdaşlıq müqavilələri və mübadilə proqramları vasitəsilə müəllim və tələbələrin beynəlxalq təcrübə qazanmasını təmin edir. Bu proqramlar tələbələrə daha keyfiyyətli və innovativ təhsil yanaşmaları əldə etmək, həmçinin digər universitetlərin proqramlarından istifadə edərək daha yaxşı mütəxəssis kimi yetişmək imkanı yaradır.







## “Yaşıl Kimya və Dayanıqlı İnkişaf” mövzusunda tələbə konfransı

Konfrans Tələbə Elmi Cəmiyyəti xətti ilə 7 aprel – Kimya Günü münasibətilə təşkil olunub.



Konfransı giriş sözü ilə Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsinin dekanı Bəhruz Məmmədov açaraq, ekoloji problemlərin müasir dövrdə aktuallığından və kimyanın bu problemlərin həllindəki rolundan bəhs edib.

“Kimya” kafedrasının müdiri Şəmil Mahmudov və Tələbə Elmi Cəmiyyətinin sədri Yusif Mirzəzadə çıxış edərək konfransın əhəmiyyətindən danışıblar.

Sonra Kimya, Torpaqşünaslıq və aqrokimya, Ekologiya mühəndisliyi və Biologiya ixtisaslarında təhsil alan tələbələrin məruzələri dinlənilib.

Ayla Abbasova “Sənaye tullantılarının yenidən istifadəsi və kimyəvi dövriyyə”, Şahmurad Rüstəmov “Yaşıl kimyada katalizatorların rolu və tətbiqi”, Nurlan Cəfərli “Ekoloji təmiz gübrələr və torpaq münbitliyinə təsiri”, Rüfət İsayev “Sənaye çirklənməsinin azaldılmasında yaşıl kimyanın rolu”, Zeynəb Əlizadə isə “Sintetik biologiya və yaşıl kimya: Ekoloji problemlərin həlli” mövzularında çıxış ediblər.

Sonda mövzuya dair videoçarx nümayiş olunub.

## STEAM Təlim-Tədris Mərkəzində innovativ texnologiyalar üzrə təlimlər keçirilib

İxtisas biliklərinin innovativ sahələrə inteqrasiyası və elektronika sahəsində mütəxəssisləşmənin əhəmiyyəti vurğulanıb.



Naxçıvan Dövlət Universitetinin STEAM Təlim-Tədris Mərkəzində keçirilən təlimlərdə bir sıra innovativ sahələr üzrə nəzəri və praktiki biliklər tələbələrə təqdim edilib. Təlimlərdə CNC Lazer texnologiyaları, 3D printer və 3D modelləmə, Pilotsuz uçuş texnologiyaları, Microbit, Arduino proqramlaşdırma, sensorlarla iş və elektrik dövriyyələrinin qurulması kimi müasir mövzular ətrafında geniş məlumat verilib.




Təlimin əsas məqsədi tələbələrin öz ixtisas biliklərini innovativ sahələrə inteqrasiya edərək, real həyatda effektiv şəkildə tətbiq etməkdir. Həmçinin tələbələr elektronika sahəsində mütəxəssisləşmənin əhəmiyyətini başa düşüb və bu sahədə gələcək inkişaf üçün yeni bacarıqlar qazanıblar.

Təlimin ilk günündə iştirakçılara Mikrokontrollerlər, Microbit arduino sensor və modullarla iş, eləcə də elektrik və elektronika bağlantılarının düzgün şəkildə həyata keçirilməsi haqqında dərs keçirilib. Bu, tələbələrin gələcəkdə layihə hazırlayarkən istifadə edə biləcəyi vacib biliklərdən biri olub.

## NDU Tələbələri Proqramlaşdırma kursunu uğurla tamamlayıb

Kursda iştirak edən tələbələr yeni biliklər və təcrübələr qazanıblar.



Naxçıvan Dövlət Universitetində proqramlaşdırma sahəsində keçirilən kurs başa çatıb. Kurs müddətində tələbələr müxtəlif proqramlaşdırma problemlərini həll etmək üçün gərəkli strategiyalar və texnikalar haqqında geniş məlumat alıblar. Tələbələr, həmçinin verilmiş tapşırıqların analiz edilməsi, alqoritmlərin və proqramlaşdırma strukturlarının düzgün tətbiq edilməsi, eləcə də kodun sınanması kimi vacib məsələlərə dair yeni biliklər əldə ediblər.



Kursun sonunda tələbələr real həyatda tədqiqatların tətbiqi və layihə üzərində işləmə bacarıqlarını inkişaf etdirib. Bu təcrübələr onlara gələcəkdəki karyeralarında böyük fayda verəcək.

## NDU Tələbəsi Babək Bəhrami Amerika Ürək Assosiasiyasının EKQ təhlili proqramını uğurla tamamlayıb

***Tibb fakültəsinin V kurs tələbəsi beynəlxalq sertifikat qazanaraq "Təlimçi" olmaq hüququ əldə edib.***



Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin V kurs tələbəsi Babək Bəhrami Amerika Ürək Assosiasiyasının (AHA) təşkil etdiyi EKQ (elektrokardioqramma) təhlili proqramını uğurla başa vurub.

Proqram çərçivəsində keçirilən imtahandan müvəffəqiyyətlə keçən Babək Bəhrami beynəlxalq səviyyədə tanınan sertifikat əldə edib. Bu sertifikat EKQ təhlil bacarığının qızıl standartı kimi qəbul edilir və Babəkə Amerika Tibb Assosiyasiyasından (AMA) PRA kateqoriyasında bir kredit qazandırıb.

Bundan əlavə, o, proqram əsasında "Təlimçi" olmaq hüququ qazanıb, bu isə onun gələcəkdə digər mütəxəssisləri təlimləndirmək imkanını təmin edir.

# 6 ölkədən 21 ekspertlə beynəlxalq təlimlər: NDU-da təcrübə və bilik mübadiləsi

Naxçıvan Dövlət Universitetində genişmiqyaslı Beynəlxalq Təlim Aylığı proqramının açılış tədbiri keçirilib. Tədbirdə Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev, universitetin rəhbər heyəti, Tibb fakültəsinin müəllim və tələbələri, eyni zamanda Acıbadem Xəstəxanasının Ürək-Damar klinikasının qurucusu, professor Cem Alhan iştirak ediblər.

Universitetin Strateji məsələlər üzrə rektor müşaviri Rəcəb Cəfərli proqram haqqında məlumat verib. Bildirib ki, proqram çərçivəsində 6 fərqli ölkədən 21 təlimçi universitetdə təlimlər aparıb. Təlimlər ABŞ, Yaponiya, İngiltərə, Türkiyə, Hollandiya və Özbəkis-



tandan olan tanınmış ekspertlər tərəfindən keçirilib. BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə uyğun olaraq təhsil, elm, beynəlmiləlləşmə, resurslar, dayanıqlılıq olmaqla 5 əsas sahə üzrə 21 mövzuda təşkil olunan təlimlər 3 dildə - Azərbaycan, türk və ingilis dillərində olub.

Tədbiri açıq elan edən Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev vurğulayıb ki, bu il aprel ayı Naxçıvan Dövlət Universitetində öncədən elan olunmuş Beynəlxalq Təlimlər aylığıdır. Dünyanın fərqli ölkələrinin universitetlərindən, elmi-tədqiqat institutlarından Naxçıvana dəvət olunan ixtisaslı mütəxəssislər tərəfindən sertifikatlı təlimlər verilib. Bu proqram iştirakçılara qlobal bilik və təcrübə mübadiləsi imkanı yaradılıb. Hər təlim müasir metodlar əsasında təşkil olunub və interaktiv müzakirələr, praktiki çalışmalar və qrup işləri ilə zənginləşdirilib. Rektor diqqətə çatdırıb ki, əcnəbi müəllimlərin təlimlərinin təşkili hər zaman diqqətdə olub, ancaq bu dəfə belə genişmiqyaslı beynəlxalq təlimlər aylıq çərçivəsində həm ölkə universitetləri arasında, həm də Naxçıvan Dövlət Universitetində ilk dəfədir təşkil olunub. Elbrus İsayev əlavə edib ki, bu tədbir universitetin ümumi inkişaf strategiyası planının tərkib hissəsidir və bütün sahələrdə innovativ yenilikləri universitetə gətirməkdə maraqlıyıq.

Türkiyənin Acıbadem Xəstəxanasının Ürək-Damar klinikasının qurucusu, professor Cem Alhan çıxış edərək tədbir iştirakçılarını salamlayıb və dəvət üçün təşəkkürünü bildirib. Professor təhsil və fəaliyyət dövrü haqqında məlumatları diqqətə çatdırıb. Qeyd edib ki, Robotik ürək cərrahiyəsi əməliyyatlarında dünya əhəmiyyətli ilklərə imza atıb. Türkiyədə ilk dəfə robotik



üsulla ürək qapağı dəyişdirmə əməliyyatını edib. Həmçinin dünya tibb tarixində robotik üsulla ürəkdə eyni anda beş fərqli əməliyyat edib. Bu günə qədər 15 mindən artıq uğurlu ürək əməliyyatı aparıb və Bypass əməliyyatlarında 99%-lik uğur qazanıb. Professor Naxçıvanda ilk dəfə olması ilə bağlı təəssüratlarını bölüşüb və Robotik cərrahiyyə haqqında ətraflı məlumat verib.

Qeyd edək ki, proqram 1-30 aprel tarixlərini əhatə edib. Ay ərzində Beynəlxalq sertifikatlı təlim keçirmək hüququna malik mütəxəssislər tərəfindən sertifikatlı təlimlər verilib. Həmçinin muxtar respublikada fəaliyyət göstərən bütün qurumların nümayəndələri də ödənişsiz olaraq təlimlərdə iştirak edə biliblər.

***Kifayət Mahmudova***

# Türkiyəli mütəxəssisdən NDU-da innovativ farmakoloji təqdimat

***Erciyes Universitetinin alimindən psixiatrik pozuntuların yeni müalicə üsulları barədə elmi əsaslı çıxış və interaktiv müzakirə.***



Ali təhsil ocağının Tibb fakültəsində təşkil olunan tədbirdə Erciyes Universitetinin "Farmakologiya" kafedrasının dosenti Gökhan Ünal universitetin professor-müəllim heyəti və tələbələri üçün "Nevropsixoloji farmakologiyada yeni müalicə üsulları" mövzusunda geniş təqdimatla çıxış edib. Təlimdə dosent Gökhan Ünal nevropsixoloji pozuntular, o cümlədən alzheimer, depressiya və şizofreniyanın müalicəsində tətbiq edilən yeni yanaşmalar haqqında ətraflı məlumat verib. O, bu xəstəliklərin patofiziologiyasını izah edərək müasir farmakoloji tədqiqatların nəticələrinə əsaslanan müalicə metodlarını diqqətə çatdırıb. Təqdimat zamanı dərman vasitələrinin beynin neyron şəbəkəsinə təsiri, psixiatrik pozuntuların genetik və biokimyəvi əsasları, eləcə də innovativ terapiya strategiyaları müzakirə olunub. Təlimçi yeni dərman preparatlarının tədqiqi və klinik sınaqlarla bağlı əldə olunan nəticələri auditoriya ilə bölüşərək gələcəkdə nevropsixoloji xəstəliklərin daha effektiv müalicəsi üçün mümkün perspektivlərə toxunub. Tədbirin sonunda iştirakçılar tərəfindən verilən suallar cavablandırılıb, müzakirələr aparılıb.

# "Dayanıqlılıq və enerji səmərəliliyi strategiyaları" mövzusunda təlim




Naxçıvan Dövlət Universitetinin Elmi Kitabxanasında Beynəlxalq Təlim Aylığı çərçivəsində Adana Alparslan Türkeş Elm və Texnologiya Universiteti, "Memarlıq" kafedrasının dosenti Gökhan Uşmanın iştirakı ilə "Dayanıqlılıq və enerji səmərəliliyi strategiyaları" mövzusunda müəllim və tələbələr üçün geniş təqdimatla çıxış edib.

Tədbirdə NDU-nun Strateji məsələlər üzrə rektor müşaviri Rəcəb Cəfərli çıxış edərək memarlıq sahəsində ixtisaslaşmış, təcrübəli akademik Gökhan Uşmanın 2024/2025-ci tədris ilinin ikinci semestrində universitetdə qonaq müəllim kimi fəaliyyət göstərdiyini diqqətə çatdırıb.

Təlim zamanı dosent Gökhan Uşma dayanıqlılıq anlayışı, onun memarlıqla əlaqəsi və bu istiqamətdə qoyulan hədəflər barədə ətraflı məlumat verib. O, həmçinin yaşıl binalar, onların əhəmiyyəti və beynəlxalq sertifikatlaşdırma sistemləri ilə bağlı vacib məqamlara toxunub.

# Hesablama Palatasının təlim proqramı çərçivəsində aralıq imtahan və növbəti görüş keçirilib









Naxçıvan Dövlət Universitetinin Magistratura və Doktorantura Mərkəzində Azərbaycan Respublikası Hesablama Palatasının təşkil etdiyi təlim proqramında iştirak edən tələbələr üçün aralıq sınaq imtahanı və təlimlərin növbəti mərhələsi baş tutub.

Sınaq imtahanı tələbələrin təlim müddətində qazandıqları nəzəri və praktiki bilikləri qiymətləndirmək məqsədilə təşkil olunub. Açıq tipli dörd sualdan ibarət olan imtahan yazılı formada aparılıb və iştirakçılar cavablarını təqdim ediblər. Qiymətləndirmə prosesi tələbələrin tədris materiallarını hansı səviyyədə mənimsədiyini müəyyən etmək üçün həyata keçirilib. Təlim iştirakçıları əldə etdikləri bilik və bacarıqları sınaqdan keçirmək imkanı qazanıblar.

Ardınca Hesablama Palatasının Səmərəlilik Auditi şöbəsinin müdir müavini, Layihələrin və Proqramların Auditi sektorunun müdiri Sənan Ağakişiyev tərəfindən "Səmərəlilik Auditi" mövzusunda əhatəli təlim keçirilib. Təlimdə auditin mahiyyəti, istiqamətləri, əhatə dairəsi və əhəmiyyəti barədə geniş məlumat verilib. Sənan Ağakişiyev qeyd edib ki, səmərəlilik auditi yalnız maliyyə yoxlamalarından ibarət deyil, həm də dövlət vəsaitlərinin düzgün idarə olunması, səmərəli xərclənməsi və maksimum nəticənin əldə olunması üçün mühüm bir mexanizmdir. Təlim zamanı real təcrübə nümunələri əsasında praktiki biliklər paylaşılıb və tələbələrin aktiv iştirakı ilə interaktiv sual-cavab sessiyası keçirilib.

Qeyd edək ki, 18 fevral 2025-ci il tarixində Azərbaycan Respublikasının Hesablama Palatası ilə Naxçıvan Dövlət Universiteti arasında əməkdaşlıq memorandumu imzalanıb. Memoranduma əsasən, elmi-praktik əlaqələrin genişləndirilməsi, ixtisaslı kadr hazırlığının təmin olunması və qarşılıqlı maraq doğuran sahələrdə təcrübə mübadiləsi nəzərdə tutulur. Bu əməkdaşlıq çərçivəsində Hesablama Palatasının əməkdaşları universitetin tələbələri üçün indiyədək 10 təlim keçiblər. Təlimlər auditoriya dərsləri, praktiki məşğələlər və seminarlar formatında təşkil olunaraq tələbələrin maliyyə nəzarəti, audit prosedurları və dövlət maliyyə sisteminin idarə olunması sahəsində bilik və bacarıqlarının inkişafına xidmət edib.

***Nardanə Əliyeva***

# NDU-da Azərbaycan Respublikası Hesablama Palatasının növbəti təlimi keçirilib

Naxçıvan Dövlət Universitetinin magistr və bakalavr tələbələri üçün “Kənar dövlət maliyyə nəzarəti tədbirlərinin həyata keçirilməsində risklərin müəyyən edilməsi” mövzusunda növbəti təlim təşkil olunub.



Tədbirdə istehsal sferasında mühasibat uçotu, beynəlxalq iqtisadi münasibətlər ixtisasının magistrləri və mühasibat və maliyyə ixtisaslarının tələbələri iştirak ediblər.

Azərbaycan Respublikası Hesablama Palatasının Dövlət gəlirlərinin və iqtisadi sahələrin audit şöbəsinin müdiri Azim Abbasov maliyyə nəzarəti prosesində risklərin vaxtında müəyyən edilməsinin əhəmiyyəti haqqında ətraflı məlumat verib. O, dövlət maliyyə nəzarətinin əsas məqsədlərindən, audit prosesində rast gələnən risk faktorlarından və onların idarə olunması yollarından bəhs edib. Azim Abbasov risk əsaslı yanaşmanın tətbiqinin dövlət və özəl sektorda şəffaflığın artırılmasına və maliyyə intizamının gücləndirilməsinə töhfə verdiyini bildirib.

Təlim interaktiv formada keçib və sual-cavab sessiyası ilə davam edib.



***Nardanə Əliyeva***
***Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı***

# Serdar Biroğul NDU-da: “ISO 42001 süni intellekt sistemlərinin gələcəyini müəyyən edəcək”

***Mühəndislik üzrə tanınmış mütəxəssis süni intellektin təhlükəsiz və etik idarəetməsi barədə praktik biliklərini bölüşüb.***

Naxçıvan Dövlət Universitetinin Elmi Kitabxanasında baş tutan təlimi Düzce Universitetinin, Mühəndislik Fakültəsinin “Kompüter Mühəndisliyi” kafedrasının dosenti Serdar Biroğul təqdim edib.

NDU-nun Strateji məsələlər üzrə rektor müşaviri Rəcəb Cəfərli çıxış edərək Serdar Biroğul haqqında məlumatları diqqətə çatdırıb. Bildirib ki, təlimçi kompüter mühəndisliyi sahəsində bir çox elmi tədqiqatlar aparıb. Vurğulanıb ki, Serdar Biroğulun araşdırma sahələri süni intellekt, məlumatların emalı, maşın öyrənməsi və proqram mühəndisliyi kimi mövzuları



əhatə edib, təlimçi bir çox yerli və beynəlxalq layihələrdə iştirak edib. Elmi və akademik fəaliyyətində elmi məqalə, konfrans materialı, kitab, müxtəlif layihələr yer alıb.

Təlimdə Serdar Biroğul “ISO 42001 Süni İntellekt İdarəetmə Sistemi nədir, kimlər qurmalıdır” mövzusunda danışıb və bu mövzuda bir çox məlumatları diqqətə çatdırıb. Süni intellektin sistem etibarlılığına və təhlükəsizliyinə töhfəsi barədə gərəkli məlumatları başlıqlar ətrafında izah edib.

Daha sonra Naxçıvan Dövlət Universiteti adından ali təhsil ocağının elmi fəaliyyətinə verdiyi töhfələrə görə dosent Serdar Biroğula təşəkkürnamə təqdim edilib.

# “İnformasiya Təhlükəsizliyi və ISO 27001” mövzusunda açıq dərs

Naxçıvan Dövlət Universitetinin Memarlıq və mühəndislik fakültəsində “İnformasiya təhlükəsizliyi



və ISO 27001 məlumat güvənliyi” mövzusunda açıq dərs təşkil olunub. Dərsi universitetin İnformasiya texnologiyaları şöbəsinin müdiri, “Elektronika və informasiya texnologiyaları” kafedrasının müəllimi Hüseyn Əsgərli və Türkiyə Cümhuriyyətinin Düzce Universitetinin dosenti, Naxçıvan Dövlət Universitetinin müəllimi Serdar Biroğul tədris edib. Dərsdə informasiya təhlükəsizliyi sahəsində qlobal trendlər, müasir risklər və onların idarə olunması yolları haqqında ətraflı məlumat verilib.

Serdar Biroğul çıxışı zamanı ISO 27001 standartının tətbiqi ilə bağlı praktiki nümunələr əsasında məlumat güvənliyi, menecment sistemlərinin necə formalaşdırıldığı mövzusunda ətraflı məlumatları diqqətə çatdırıb. O vurğulayıb ki, informasiya təhlükəsizliyi təkcə texniki sahə deyil, hüquq, idarəetmə və etik prinsiplərlə sıx bağlı, multidisiplinar bir elmi-tədqiqat istiqamətidir.

Hüseyn Əsgərli tələbələrin mövzuya olan marağını yüksək qiymətləndirərək NDU-da bu istiqamətdə həm praktiki, həm də elmi-tədqiqat bazasının gücləndirilməsi üçün atılan addımlardan danışıb. Bildirilib ki, universitetdə bu sahədə elmi işlərin təşviqi, tələbələrin yerli və beynəlxalq layihələrə cəlb olunması gələcəkdə yüksəkixtisaslı kadrların formalaşmasına təkan verəcək.

Sonda tələbələrlə interaktiv sual-cavab sessiyası keçirilib, elmi maraq doğuran mövzular ətrafında müzakirələr aparılıb və gələcəkdə bu sahədə tədqiqat layihələrinin həyata keçirilməsi təşviq olunub.

Bildirək ki, müasir dövrdə rəqəmsal texnologiyaların sürətli inkişafı ilə informasiya təhlükəsizliyi məsələsi qlobal miqyasda strateji və elmi-tədqiqat baxımından önəmli sahələrdən birinə çevrilib. Bu reallığı nəzərə alaraq Naxçıvan Dövlət Universitetində tələbələrin nəzəri və praktiki biliklərinin artırılması məqsədilə ardıcıl olaraq maarifləndirici tədbirlər təşkil olunur. Bu kimi tədbirlər universitetdə elmi-tədqiqatyönümlü tədrisin təşviqi, tələbələrin beynəlxalq bilik sisteminə inteqrasiyası və müasir texnologiyalara uyğun ixtisaslı kadrların yetişdirilməsi istiqamətində mühüm rol oynayır.

# Şəmil Sadiq: “Uğur üçün daima öyrənmək və dəyişən çağırışlara uyğunlaşmaq vacibdir”

***Naxçıvan Dövlət Universitetinin tələbələrinə müəllif və təhsil eksperti tərəfindən motivasiyaedici çıxış təqdim olunub.***

Naxçıvan Dövlət Universitetinin Beynəlxalq Məktəbində yazıçı, filologiya üzrə fəlsəfə doktoru, Hədəf Liseyinin direktoru Şəmil Sadiqin təlimi baş tutub. Təlimdə universitetin pedaqoji ixtisasları tədris edən müəllimləri və bu ixtisaslarda təhsil alan sonuncu



kurs tələbələri iştirak ediblər.

Universitetin Tədris Departamentinin direktoru Şahin Əliyev Hədəf Liseyinin direktoru Şəmil Sadiq haqqında geniş məlumat verib. Bildirib ki, Naxçıvan Muxtar Respublikası Babək rayonunun Nehrəm qəsəbəsində dünyaya gələn Şəmil Sadiqin uğurlu təhsil və iş fəaliyyətindəki təcrübələri tələbələr üçün nümunədir. Şahin Əliyev qeyd edib ki, müxtəlif illərdə fərqli müsabiqələrdə “İlin ən yaxşı müəllimi” seçilən, bir çox elmi-metodik, bədii kitabın, elmi məqalənin müəllifi olan yazıçının auditoriya qarşısında təlimi tələbələr üçün böyük fürsətdir.

Şəmil Sadiq çıxış edərək təhsil və iş həyatında uğur qazanmağın yollarından, müasir dövrün tələblərinə uyğun bilik və bacarıqların əhəmiyyətindən bəhs edib, tələbələri daim öyrənməyə, yeni çağırışlara hazır olmağa və peşəkar inkişaflarını davam etdirməyə təşviq edib. Eyni zamanda təlimçi “HƏDƏFDƏ STEM və ya peşəyönümlü təhsil”, “Korporativ mədəniyyət” adlı təqdimatlarında təhsilyönümlü müxtəlif başlıqlı məlumatlara diqqət çəkib. Tələbələrə müəllimlik peşəsi və şəxsi inkişaf barədə tövsiyələrini bölüşən



Şəmil Sadiq karyera planlaması necə aparılmalı, korporativ ünsiyyət, uğurlu və düzgün CV hazırlama qaydaları və bir çox gərəkli bilgilər barədə məlumatları qeyd edib.

Görüş interaktiv formada keçib və tələbələr öz suallarını ünvanlayaraq Şəmil Sadiqin şəxsi və peşəkar təcrübəsindən faydalana biliblər.

# Beynəlxalq Təlim Aylığında NDU-da yüksək səviyyəli elmi təqdimat: gələcəyin displey texnologiyaları

***SID Cəmiyyətinin üzvü, "Ən yaxşı məqalə" və "Texnoloji İnkişaf Mükafatı" sahibi Xəlil Kələntər elektronika üzrə son yenilikləri tələbələrlə paylaşdı.***

Ali təhsil ocağında Beynəlxalq Təlim Aylığı çərçivəsində təşkil olunan növbəti təlimi Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının üzvü, elektronika sahəsində dünyaşöhrətli alim, ixtiraçı, professor Xəlil Kələntər keçib.

Universitetin Strateji məsələlər üzrə rektor müşaviri Rəcəb Cəfərli çıxış edərək ümumdünya miqyasında tanınan professorun elmi fəaliyyətlərindən bəhs edib. Bildirib ki, artıq bir neçə ildir, Xəlil Kələntər Naxçıvan Dövlət Universiteti ilə əməkdaşlıq edir, burada təlim və tədqiqat proseslərinə töhfə verir. Onun universitetdə apardığı elmi araşdırmalar bir sıra yüksək indeksli beynəlxalq jurnallarda, o cümlədən Yaponiyada dərc olunub. Professorun NDU əməkdaşları ilə birgə ortaq elmi məqalələri də mütəmadi olaraq çap olunur.

Sonra professor Xəlil Kələntər LCD ekranlar, mikroreflektor və mikro-deflektorlar, dəyişdirilmiş BLU strukturu, 3D üçün eynəyin sturukturu, ikiqat səth emissiyalı arxa işıqlandırma texnologiyaları və digər innovativ displey texnologiyaları haqqında ətraflı təqdimatla çıxış edib. Həmçinin özünün patentləşdirdiyi texnologiyaları təlim iştirakçılarına izah edərək praktik tətbiqlərindən bəhs edib.

Daha sonra Naxçıvan Dövlət Universiteti adından



ali təhsil ocağının elmi fəaliyyətinə verdiyi töhfələrə görə professor Xəlil Kələntərə təşəkkürnamə təqdim edilib.

Bildirək ki, professor Xəlil Kələntər elektronika mühəndisliyi və yeni nəsil displey texnologiyaları üzrə 100-ə yaxın patentin, 130-dan artıq elmi məqalənin və 6 kitabın müəllifidir. O, ilk dəfə olaraq məişətə daxil olan LCD televizor, kompüter və mobil telefonların əsas hissəsi olan maye kristal displeylərin arxa fon işıqlarını yaradan mütəxəssis kimi tanınır. Alim 1995-ci ildən etibarən LCD blokları üçün optik cihazlar və modullar üzərində çalışır. İşıqla yönləndirilən mikro-reflektorlu və mikro-deflektorlu optik lövhələrin, mikro-strukturlu funksional optik dizaynların ilk dizayneri və istehsalçısıdır. Elmi nailiyyətlərinə görə 2007-ci ildə LCD işıqlandırılmasında istifadə edilən optik-dizayn metoduna görə xüsusi mükafata layiq görülən professor 2011-ci ildə "SID" konfransında "Ən yaxşı məqalə" mükafatını alıb. O, həmçinin "Journal of SID" jurnalının xüsusi buraxılışının redaktoru, SID Cəmiyyətinin proqram komitəsinin üzvü və Yaponiyada keçirilən beynəlxalq seminarların daimi iştirakçısıdır. 2016-cı ildə isə Yaponiya Maye Kristal Cəmiyyətinin "Texnoloji İnkişaf Mükafatı"na layiq görülüb. 40 ilə yaxındır. Yaponiyada fəaliyyət göstərən professor Xəlil Kələntər təkcə bu ölkədə deyil, həmçinin Amerika, Asiya və Avropada elektronika və displey texnologiyaları sahəsində nüfuzlu mütəxəssis kimi tanınır. Professorun elmi göstəriciləri də yüksəkdir: h indeksi –20, i10 indeksi –48-dir.

**Fəxriyyə Səyyadova**

# "AI ilə öyrət, AI ilə öyrən": NDU-da Kembric təlimçisindən innovativ təqdimat

***Fabian Chavez dil bacarıqlarının inkişafında süni intellektin rolunu praktiki nümunələrlə izah etdi, müəllimlərə müasir yanaşmalar təklif etdi.***

Naxçıvan Dövlət Universitetinin Xarici Dillər Fakültəsində Beynəlxalq Təlim Aylığı çərçivəsində növbəti təlim baş tutub. Təlimi universitetin Beynəlxalq Kembric Məktəbində fəaliyyət göstərən və xaricdən dəvət olunan akademik koordinator, müəllim Fabian Chavez fakültənin müəllim və tələbələrinə təqdim edib.



Tədbirdə NDU-nun Strateji məsələlər üzrə rektor müşaviri Rəcəb Cəfərli çıxış edərək Fabian Chavez haqqında məlumatları diqqətə çatdırıb, beynəlxalq təhsil sahəsindəki uğurları və NDU-nun Kembric məktəbindəki fəaliyyəti barədə danışıb.



Fabian Chavez dil tədrisində süni intellekt tətbiqi mövzusunda interaktiv təlim keçib. O, üz-üzə tədris metodu əsasında iştirakçılara süni intellekt texnologiyalarının dil öyrənmə prosesində effektiv istifadəsi barədə praktiki nümunələr təqdim edib. Təlim zamanı müasir pedaqoji yanaşmalar, fərdiləşdirilmiş öyrənmə metodları, süni intellektin adaptiv qiymətləndirmə sistemlərində rolu və tədris materiallarının avtomatlaşdırılması kimi mövzular ətrafında geniş müzakirələr aparıb. Təlimdə iştirakçılar eyni zamanda süni intellektin dil bacarıqlarını inkişaf etdirmək üçün müxtəlif platformalar və alətlər vasitəsilə necə tətbiq oluna biləcəyini öyrəniblər.

Nəzərinizə çatdıraq ki, Fabian Chavez CELTA, DELTA Modul 1, Cambridge Teacher Trainer sertifikatlarına, həmçinin Cambridge CEFR C2 sertifikatına sahibdir. Bu sertifikatlar onun tədris metodlarının peşəkarlığını və beynəlxalq təhsil standartlarına uyğunluğunu göstərir. Chavez tədris zamanı müəllimlərə konstruktiv feedbacklər verərək şagirdlərin psixologiyasına uyğun ən müasir qaydalarla öyrətməyin yollarını paylaşıb.

# "Uğurlu layihənin arxasında sistemli idarəetmə dayanır" – NDU-da praktiki təlim

***PMO üzrə ekspert, peşəkar layihə rəhbəri Rəşad İbrahimov ali təhsildə layihə mədəniyyətinin əhəmiyyətindən və icra mərhələlərinin incəliklərindən danışdı.***



Növbəti təlim Xarici Dillər fakültəsində layihə idarəetməsi sahəsində ölkəmizin aparıcı mütəxəssislərindən biri, PMO.az Layihə Düşüncə Məktəbinin təsisçisi və direktoru Rəşad İbrahimov tərəfindən keçirilib.

Təlimin əvvəlində NDU-nun Strateji məsələlər üzrə rektor müşaviri Rəcəb Cəfərli qonağı iştirakçılara təqdim edərək onun peşəkar fəaliyyəti barədə məlumat verib. Bildirilib ki, Rəşad İbrahimov 20 ildən artıqdır müxtəlif sahələrdə layihə idarəetməsi ilə məşğuldur və bu sahədə həm yerli, həm də beynəlxalq miqyasda uğurlu təcrübəyə malikdir. O, PMO Global Awards müsabiqəsinin münsiflər komitəsinin üzvü, eyni zamanda "Layihə Rəhbəri 2019" ümumrusiya yarışmasının finalçısı olmuşdur. Rəcəb Cəfərli qeyd edib ki, müasir dövrdə ali təhsil müəssisələrində akademik heyətin layihə mədəniyyətinə yiyələnməsi, eləcə də innovativ təşəbbüslərin həyata keçirilməsi baxımından layihələrin hazırlanması və icrasının əhəmiyyəti böyükdür.



Təlim zamanı Rəşad İbrahimov layihə idarəetməsinin əsas prinsipləri, beynəlxalq standartlara əsaslanan yanaşmalar və effektiv idarəetmə metodologiyaları barədə geniş məlumat verib. O, iştirakçılarla layihənin bölgüsü, maraqlı tərəflərlə kommunikasiya, risklərin idarə olunması, layihə planlaşdırılması və nəticələrin qiymətləndirilməsi mövzularında praktiki biliklər bölüşüb. Eyni zamanda uğurlu layihə rəhbərliyinin sirlərindən, real nümunələr əsasında qarşılaşılan çətinliklərdən və onların həlli yollarından bəhs edib.

Təlim sual-cavab və müzakirələrlə davam edib.

***Nardanə Əliyeva***
***Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı***

# "AI strategiyaları rəqəmsal transformasiyanın açarıdır" – Professor Rüya Şamlı NDU-da

***Təlimdə süni intellektin tətbiq sahələri, analiz imkanları və müəssisələr üçün innovativ üstünlükləri təqdim olunub.***

Növbəti elmi-praktiki təlim Magistratura və Doktorantura Mərkəzində İstanbul Universitetinin Cərrahpaşa Kompüter mühəndisliyi fakültəsinin tanınmış akademiki Rüya Şamlı tərəfindən keçirilib.

Tədbirin əvvəlində çıxış edən NDU-nun Strateji məsələlər üzrə rektor müşaviri Rəcəb Cəfərli qonağı iştirakçılara təqdim edərək bildirib ki, professor Rüya Şamlı e-ticarət platformalarında türk dilindəki məhsul rəylərinin duyğu analizi, video məlumatlarda təhlükəli obyektlərin dərin öyrənmə metodları ilə aşkarlanması kimi müxtəlif istiqamətlərdə elmi araşdırmalar aparıb.



O, həmçinin "Avrupa Bilim ve Teknoloji Dergisi" və "Uludağ Üniversitesi Mühendislik Fakültesi Dergisi" kimi nüfuzlu elmi jurnallarda hakim kimi fəaliyyət göstərir.

Təlim zamanı professor Rüya Şamlı süni intellektin əsas anlayışları, onun müxtəlif tətbiq sahələri, eləcə də "AI strategiyaları: rəqəmsal transformasiya üçün yeni perspektivlər" mövzusunda geniş təqdimatla çıxış edib. O vurğulayıb ki, AI strategiyalarının qurulması müəssisələrə daha dəqiq analizlər aparmaq, ehtiyacları öncədən görmək və rəqəmsal çevikliyə nail olmaqda ciddi üstünlüklər qazandırır.

# Professor Əzəmət Əkbərov təlim keçib



Naxçıvan Dövlət Universitetinin Xarici dillər fakültəsində Özbəkistanda yerləşən İpəkyol Araşdırma Akademiyasının, xarici filologiya və tətbiqi dilçilik professoru Əzəmət Əkbərov fakültənin müəllim və tələbələrinə təlimi baş tutub.

NDU-nun Strateji məsələlər üzrə rektor müşaviri Rəcəb Cəfərli, professor Əzəmət Əkbərov elmi-pedaqoji fəaliyyəti haqqında ətraflı məlumat verib, onun beynəlxalq təcrübəsindən bəhs edib.

Əzəmət Əkbərov təlimdə "Sinif idarəçiliyi: Müsbət öyrənmə mühiti yaratmaq üçün strategiyalar" mövzusunda çıxış edərək ingilis dilinin öyrənilməsi məqsədləri, texniki üsullar, müxtəlif pedaqoji yanaşmalar və effektiv tədris metodları barədə iştirakçılarla fikirlərini bölüşüb.Təlim iştirakçıların sualları və interaktiv müzakirələrlə davam edib.



# Türkiyəli professor NDU-da heyvan sağlamlığı ilə bağlı elmi təqdimat etdi

***İsa Özaydın yoluxucu ayaq xəstəliklərinin təsiri, yayılma səbəbləri və qarşısının alınma yolları barədə geniş məlumat verdi.***

Naxçıvan Dövlət Universitetinin Baytarlıq fakültəsində Türkiyənin Qafqaz Universiteti Baytarlıq fakültəsinin "Cərrahiyyə" kafedrasının professoru İsa Özaydın "Xırdabuynuzlu heyvanlarda yoluxucu ayaq xəstəliklərinin əhəmiyyəti və qorunma yolları" mövzusunda universitetin müəllim və tələbələri üçün təqdimatla çıxış edib.



NDU-nun Strateji məsələlər üzrə rektor müşaviri Rəcəb Cəfərli professor haqqında bəhs edərək qeyd edib ki, ölkənin nüfuzlu universitetlərindən dəvət olunan xarici professorların universitetdə təlimlər keçməsi müəllim və tələbələrin peşəkar inkişafına mühüm töhfə verir. Bildirib ki, İsa Özaydın artıq 2 ildir ki, NDU ilə əməkdaşlıq edir, dərslər aparır və məqalələri yüksək impakt faktorlu beynəlxalq jurnallarda dərc olunur.

Qafqaz Universitetinin professoru İsa Özaydın xırdabuynuzlu heyvanlarda, xüsusilə qoyun və keçilərdə müşahidə edilən yoluxucu ayaq xəstəliklərinin növləri, bu xəstəliklərin heyvan sağlamlığına, məhsuldarlığına və təsərrüfata təsiri barədə ətraflı məlumat verib. O, ayaq-dırnaq nahiyəsinin anatomik və fizioloji xüsusiyyətləri, infeksiyaların yayılmasına səbəb olan amillər, eləcə də bakterial mənşəli xəstəliklər haqqında danışıb. Xəstəliklərin yayılmasının qarşısını almaq üçün gigiyenik şəraitin təmin olunması, təsərrüfatda müntəzəm dezinfeksiya işlərinin aparılmasının önəmini vurğulayıb.

Daha sonra Naxçıvan Dövlət Universiteti adından elmi fəaliyyətə və beynəlxalq əməkdaşlığa verdiyi töhfələrə görə professor İsa Özaydına təşəkkürnamə təqdim edilib.

# "Sahibkarlıqda iş planı" mövzusunda təlim

Naxçıvan Dövlət Universitetinin Magistratura və Doktorantura Mərkəzində Düzce Universitetinin Biznesin idarəedilməsi fakültəsinin, Beynəlxalq Ticarət və Maliyyə ixtisası üzrə dosenti Özkan Şahin universitetin İqtisadiyyat fakültəsinin müəllim və tələbələri üçün "Sahibkarlıqda iş planı" mövzusunda təlim keçib.

Tədbirdə çıxış edən NDU-nun Strateji məsələlər üzrə rektor müşaviri Rəcəb Cəfərli dosent Özkan Şahinin elmi-pedaqoji fəaliyyəti haqqında məlumat verərək bildirib ki, o, Texnoparkların Sənaye 4.0 dövründəki rolu və innovasiya idarəçiliyi sahəsində ixtisaslaşmış mütəxəssisdir. Qeyd olunub ki, dosent Özkan Şahin 2023-cü ildə Naxçıvan Dövlət Universitetini ziyarət edib və burada yaradılması planlaşdırılan texnopark layihəsi çərçivəsində məsləhətçi qismində iştirak edib, həmçinin tələbələr üçün seminarlar təşkil edib.

Təlim zamanı dosent Özkan Şahin sahibkarlığın mahiyyəti, biznesin qurulması mərhələləri, müasir dövrdə rəqəmsal alətlərin sahibkarlıqda rolu və Canva iş modeli vasitəsilə ideyaların strukturlaşdırılması mövzularında ətraflı məlumat verib. O, həmçinin müasir dövrdə sahibkarlıq bacarıqları gənclərin və



gənc sahibkarların əldə etməsi üçün vacib şərtləri iştirakçılarla bölüşüb.

Daha sonra Naxçıvan Dövlət Universiteti adından elmi fəaliyyətə və beynəlxalq əməkdaşlığa verdiyi töhfələrə görə dosent Özkan Şahinə təşəkkürnamə təqdim edilib.

# "Fənlərarası tədqiqat - yeni bacarıqların inkişafı" adlı beynəlxalq təlim

Naxçıvan Dövlət Universitetində Beynəlxalq Təlim Aylığı çərçivəsində silsilə təlimlər davam edir. Növbəti təlim qonaq professor Aysel Ersoy tərəfindən keçirilib.

Təlimin əvvəlində NDU-nun Strateji məsələlər üzrə rektor müşaviri Rəcəb Cəfərli professoru iştirakçılara təqdim edərək onun elmi-pedaqoji fəaliyyəti haqqında ətraflı məlumat verib, beynəlxalq təcrübəsindən bəhs edib. Bildirib ki, İstanbul Universiteti - "Cerrahpaşa Elektrik və Elektronika Mühəndisliyi" kafedrasının professoru Aysel Ersoy öz sahəsində ixtisaslaşmış mütəxəssisdir və təlimçi bir çox yerli və beynəlxalq layihələrdə iştirak edib. Professorun akademik fəaliyyətinə elmi məqalələr, konfrans materialları və müxtəlif layihələr daxildir.

Təlimçi fənlərarası əməkdaşlıqda uğur nümunələri, XXI əsrdə bu yanaşmanın rolu, sənaye və akademik sahələrdə tətbiqi, kommunikasiyanın rolu, multidisiplinar və fənlərarası yanaşmalar arasındakı fərqlər və bir sıra mövzular barədə ətraflı məlumat verib.

Tədbirin sonunda Naxçıvan Dövlət Universiteti tərəfindən professor Aysel Ersoya ali təhsil ocağı-



nın elmi fəaliyyətinə verdiyi töhfələrə görə təşəkkürnamə təqdim olunub.

Qeyd edək ki, 1-30 aprel tarixlərini əhatə edən Beynəlxalq Təlim Aylığı çərçivəsində dünyanın 6 ölkəsindən 21 təlimçi 5 əsas sahə üzrə 3 dildə 21 mövzuda təlimlər keçib. Bu təlimlərdə muxtar respublikada fəaliyyət göstərən bütün qurumların nümayəndələri də ödənişsiz olaraq iştirak ediblər.

**Lamiyə Abbasova**
**Jurnalistika ixtisası üzrə I kurs tələbəsi**

# Milli Observatoriyanın əməkdaşı təlim keçib

Universitetin Magistratura və Doktorantura Mərkəzində Azərbaycan Respublikası Əmək və



Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriyanın Təlimlərin təşkili və koordinasiya şöbəsinin müdiri Elvira Sadıqova tərəfindən təlim keçirilib. Təlim "Fərdi karyera planlama" mövzusunu



əhatə edib. Tədbirdə NDU-nun Tədris departamentinin direktoru Şahin Əliyev, İqtisadiyyat fakültəsinin müəllim və tələbələri iştirak ediblər.

Tədris departamentinin direktoru Şahin Əliyev çıxış edərək universitetin Milli Observatoriya ilə əməkdaşlığının əhəmiyyətini vurğulayıb. Bildirib ki, memorandum çərçivəsində birgə layihələrin, təlimlərin həyata keçirilməsi planlaşdırılır. O, təlimlərin məqsədinin tələbələrin əmək bazarına uyğun formalaşmasına dəstək və töhfə vermək olduğunu vurğulayıb.

Təlimçi Elvira Sadıqova təqdimatla çıxış edərək "Fərdi karyera planlaması" mövzusunda ətraflı məlumat verib. O, karyera anlayışının yalnız peşə seçimi ilə məhdudlaşmadığını, həyat tərzi, dəyərlər və fərdi məqsədlərlə sıx bağlı olduğunu qeyd edib. Təlim zamanı tələbələrə fərdi bacarıqlarını necə kəşf etməli, hədəflərini necə düzgün müəyyənləşdirməli və bu istiqamətdə hansı addımlar atmalı olduqları barədə praktiki məsləhətlər verilib. Eyni zamanda iştirakçılarla interaktiv müzakirələr aparılıb, onların sualları cavablandırılıb.

***Nardanə Əliyeva***

# Beynəlxalq təlim aylığında “Sənaye 4.0” və təhsil sahəsində gələcək çağırışlar müzakirə olundu

***Qaziantep Universitetinin professoru yeni dövrün insan resurslarına uyğun təhsil sisteminin zəruriliyindən danışdı.***

Beynəlxalq təlim aylığı çərçivəsində Naxçıvan Dövlət Universitetinin Magistratura və Doktorantura Mərkəzində Qaziantep Universitetinin “Təhsil elmləri” kafedrasının professoru Erdal Bayın iştirakı ilə təlim keçirilib. Professor “Sənaye 4.0 – İxtisaslı insan resursları tələblərinə cavab verəcək yeni təhsil sistemi” mövzusunda universitetin müəllim və tələbə heyətinə geniş təqdimatla çıxış edib.



NDU-nun strateji məsələlər üzrə rektor müşaviri Rəcəb Cəfərli qonaq professorun akademik fəaliyyəti barədə məlumat verərək onun beynəlxalq elmi konfranslarda çıxışları olduğunu, bir sıra nüfuzlu jurnallarda elmi məqalələrinin dərc olunduğunu və təhsil sahəsində müxtəlif mükafatlara layiq görüldüyünü qeyd edib. O, bu cür təlimlərin universitetdə beynəlxalq təcrübənin öyrənilməsi baxımından olduqca faydalı olduğunu bildirib.

Qaziantep Universitetinin professoru Erdal Bay dördüncü sənaye inqilabı mərhələsində ixtisaslı kadrların yalnız mövcud texnologiyanı istifadə etməklə kifayətlənməyəcəyini, həm də onun dizaynı, inkişafı və istehsalında birbaşa iştirak edəcəyini vurğulayıb. Diqqətə çatdırıb ki, gələcəyin insan resursları texnologiyanın idarəsində əsas rol oynayan qüvvəyə çevrilməlidirlər.

# “Konstitusionalizm və gənclər: hüquqi maarifləndirmənin rolu” mövzusunda dəyirmi masa

Tədbiri giriş sözü ilə açan Elmi Kitabxananın direktoru Xumar Məmmədova Prezident İlham Əliyevin 28 dekabr 2024-cü il tarixli Sərəncamı ilə 2025-ci il Azərbaycan Respublikasında “Konstitusiya və Suverenlik İli” elan edildiyini bildirib.



Daha sonra “Ümumi hüquq” kafedrasının müəllimləri Əziz Qasımov və Yunis Xəlilov çıxış edərək, gənclər arasında hüquq mədəniyyəti və düşüncəsinin inkişaf etdirilməsi, hüquqi maarifləndirmənin artırılmasının zəruriliyindən bəhs ediblər. Natiqlər bildirib ki, Gənclər siyasəti ölkənin gələcəyi üçün strateji əhəmiyyət daşıyır, bu istiqamətdə çoxşaxəli tədbirlər həyata keçirilir və bu əsasda gənclər arasında hüquq və qanunvericilik barədə məlumatlılıq səviyyəsinin artırılması davamlı diqqətdə saxlanılmalıdır.

Müzakirə şəklində davam edən tədbirdə iştirakçılar insan və vətəndaş hüquqları və azadlıqları haqqında ətraflı məlumat əldə edib.

# Beynəlxalq Təlim Aylığı çərçivəsində NDU tələbələrinə süni intellektin mühəndislikdə rolu izah edilib

***Dosent Murat Karakılıç maşın öyrənməsi, data elmi və podşipnik nasazlıqlarının aşkarlanması barədə nümunələr təqdim edib.***

Naxçıvan Dövlət Universitetinin Elmi Kitabxanasında Beynəlxalq Təlim Aylığı çərçivəsində Iğdır Universitetinin “Kompüter mühəndisliyi” kafedrasının dosenti Murat Karakılıçın iştirakı ilə “Mühəndislik ixtisaslarında maşın öyrənməsi və data elmi” mövzusunda təqdimat keçirilib.

Tədbirdə NDU-nun Memarlıq və mühəndislik fakültəsinin dekanı Cavanşir Zeynalov çıxış edərək universitetdə təşkil olunan beynəlxalq təlimlərin əhəmiyyətini vurğulayıb, bu kimi tədbirlərin tələbə və müəllimlər üçün praktiki biliklərin artırılması baxımından




önəmini qeyd edib.

Təlimçi Murat Karakılıç maşın öyrənməsi anlayışı, məqsədləri və növləri haqqında ətraflı məlumat verib. O, data elminin maşın öyrənməsindəki rolunu izah edib və mühərriklərdə podşipnik nasazlıqlarının faza yaddaşı əsasında aşkarlanması ilə bağlı nümunələr təqdim edib.

Daha sonra Naxçıvan Dövlət Universiteti adından elmi fəaliyyətə və beynəlxalq əməkdaşlığa verdiyi töhfələrə görə professor Murat Karakılıça təşəkkürnamə təqdim edilib.

**Nardanə Əliyeva**
**Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı**

# “Təhsildə VR (Virtual Reallıq) istifadəsi” mövzusunda ustad dərs



Universitetin qonaq professorları təlimlər və dərslərdə nəzəri və praktiki nümunələr əsasında iştirakçılara geniş məlumatlar çatdırıb.

Növbəti ustad dərs Naxçıvan Dövlət Universitetinin Pedaqoji fakültəsində “Pedaqogika və psixologiya” kafedrasında Türkiyənin Qaziantep Universitetinin Təhsil fakültəsinin professoru Erdal Bay tərəfindən keçirilib.

Pedaqoji fakültənin dekanı Vəli Əliyev fakültə haqqında məlumat verib və nüfuzlu universitetlərdən dəvət olunan xarici professorların universitetdə təlimlər keçməsini müəllim və tələbələrin peşəkar inkişafına mühüm töhfə olduğunu bildirib.

”Pedaqogika və psixologiya” kafedrasının müdiri Taleh Xəlilov qonaq professor Erdal Bayı tələbələrə təqdim edib və onun akademik fəaliyyəti barədə məlumat verib.

Professor Erdal Bay təhsildə istifadə olunan VR eynəyin əhəmiyyəti və proqram təminatı barədə geniş məlumatı nəzəri və praktiki olaraq diqqətə çatdırıb. Müəllim və tələbələrin iştirakı ilə VR eynəkdən istifadə qaydalarını nümayiş etdirib.

Daha sonra iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

Sonda qonaq professora kafedra adından xatirə hədiyyəsi təqdim olunub.

# “Beynəlxalq Təlim Aylığı” proqramının son görüşü keçirilib

Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsində Böyük Britaniyanın Kembric şəhərində yerləşən molekulyar biologiya üzrə “Medical Research Council” laboratoriyasının professoru Qərib Müşüdov son təlimini keçib. Tədbirdə Tibb, Fizika-riyaziyyat və Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsinin müəllim və tələbə heyəti iştirak edib.



Tədbiri giriş sözü ilə açan NDU-nun Strateji məsələlər üzrə rektor müşaviri Rəcəb Cəfərli “Beynəlxalq Təlim Aylığı” proqramının əhəmiyyətindən danışıb. O bildirib ki, proqram çərçivəsində ABŞ, Yaponiya, Böyük Britaniya, Türkiyə, Hollandiya və Özbəkistan da daxil olmaqla 6 fərqli ölkədən 21 təlimçi Naxçıvan Dövlət Universitetində müxtəlif sahələr üzrə təlimlər keçib. Bu beynəlxalq təlimlər həm müəllimlər, həm də tələbələr üçün yeni bilik və yanaşmaların qazanılmasında mühüm rol oynayıb.

Son təlimin çıxışçısı professor Qərib Mürşüdov əvvəlcə öz elmi fəaliyyəti və beynəlxalq təcrübəsi barədə iştirakçılara ətraflı məlumat verib. O, molekulyar biologiya sahəsində apardığı tədqiqatlardan, dünya elmi ictimaiyyətindəki mövqeyindən və əldə etdiyi nailiyyətlərdən söz açıb. Professor tələbələrə uğur qazanmağın yolları, qlobal miqyasda tanınan ekspert olmaq üçün hansı keyfiyyətlərin vacib olduğunu vurğulayıb. O qeyd edib ki, daim öyrənmək, əməksevərlik, elmi maraq və beynəlxalq əlaqələr qurmaq müasir alim və mütəxəssisin əsas silahıdır.

Tədbirin sonunda iştirakçıların çoxsaylı suallarını cavablandıran alim, gənclərə tövsiyələr verib və onların elmi maraqlarını dəstəkləyəcəyini bildirib.

# Orta Doğu Texniki Universitetinin rektor müşaviri Adəm Kalınlı təlim keçib

Naxçıvan Dövlət Universitetində Beynəlxalq Təlim Aylığı çərçivəsində təlimlər davam edib. Növbəti təlimdə qonaq professor Orta Doğu Texniki Universitetinin rektor müşaviri, professor Adəm Kalınlı “Akademik məlumat idarəetmə sistemi və verilənlərin qiymətləndirilməsi sistemləri” mövzusunda geniş təqdimatla çıxış edib. Təlim Beynəlxalq münasibətlər və hüquq fakültəsində baş tutub.

NDU-nun Strateji məsələlər üzrə rektor müşaviri Rəcəb Cəfərli bildirib ki, professorun əsas elmi istiqamətləri süni intellekt və kompüter elmləridir. O, 6 beynəlxalq layihənin rəhbəri olub, 200-dən çox elmi məqaləsi nüfuzlu jurnallarda dərc olunub. Həmçinin qeyd edib ki, professor Adəm Kalınlı AVESİS (Akademik Verilənlərin İdarə Edilməsi Sistemi) və APSİS (Akademik Performansın Sistemli İzlənməsi Sistemi) proqram təminatlarının yaradıcılarındandır və bu sahədə mühüm texnoloji yeniliklərə imza atıb.

Rektor müşaviri, professor Adəm Kalınlı AVESİS VƏ APSİS tətbiqinin xüsusiyyətləri, texniki aspektləri haqqında bəhs edib. O, AVESİS-in akademiklərin məlumat



əldə edə və dəyişə biləcəyi müstəqil platforma olduğunu vurğulayıb. AVESİS-in sadəcə şəxsi internet saytı kimi qəbul edilməməsi lazım olduğunu vurğulayan professor, bölmə rəhbərlərinin AVESİS vasitəsilə Akademik Performans Nəticəsi ilə bölmədəki tədqiqatçıların fəaliyyətini təhlil edə biləcəyini bildirib. APSİS isə universitetin professor-müəllim heyətinin illik elmi və akademik fəaliyyətlərinin obyektiv qiymətləndirilməsini təmin edən sistemdir.

Təlim sual-cavab və müzakirələrlə davam edib.

Daha sonra Naxçıvan Dövlət Universiteti adından elmi fəaliyyətə və beynəlxalq əməkdaşlığa verdiyi töhfələrə görə rektor müşaviri Adəm Kalınlıya təşəkkürnamə təqdim edilib.

**Nardanə Əliyeva**
**Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı**

# Təhsilə verdikləri töhfələrlə yadda qalan müəllimlərə ehtiram göstərildi

Zenfira Seyidova, Nadir İsmayılov və İlqar Kəngərlinin elmi-pedaqoji fəaliyyəti yüksək qiymətləndirilib.

Naxçıvan Dövlət Universitetinin Tarix-filologiya fakültəsində "Muzeyşünaslıq, arxiv işi və kitabxanaçılıq" kafedrasının baş müəllimi Zenfira Seyidova, "Azərbaycan ədəbiyyatı" kafedrasının baş müəllimi, filologiya üzrə fəlsəfə doktoru Nadir İsmayılovun 65 illik və "Ümumi tarix" kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru, Əməkdar müəllim İlqar Kəngərlinin 70 illik yubileyləri münasibətilə tədbir keçirilib.







Tədbirdə universitetin rektoru Elbrus İsayev çıxış edərək yubilyarların uzun illər ərzində elmi-pedaqoji fəaliyyətləri ilə universitetin inkişafında mühüm rol oynadıqlarını vurğulayıb. Bildirib ki, hər üç müəllim universitetin elmi və mədəni həyatının zənginləşməsinə mühüm töhfələr verib və gənc nəslə nümunəvi pedaqoqlar kimi dəyərli örnəklərdir. Rektor Zenfira Seyidova və Nadir İsmayılova elmi-pedaqoji fəaliyyətlərinə görə təşəkkürnamə, İlqar Kəngərliyə isə fəxri fərman təqdim edib.

Tarix-filologiya fakültəsinin dekanı, filologiya üzrə fəlsəfə doktoru, dosent Arif Ağalarov yubilyarları təbrik edərək onların elmi fəaliyyətinə yüksək qiymət verdiyini bildirib və tədbirdə şeir səsləndirib.

Tədbirdə həmçinin "Azərbaycan ədəbiyyatı" kafedrasının müdiri dosent Nurlana Əliyeva, "Ümumi tarix" kafedrasının müdiri dosent Rəsul Bağırov, "Muzey, arxiv işi və kitabxanaçılıq" kafedrasının müdiri dosent Məmməd Əliyev və digər çıxışçılar yubilyarların həm elm, həm də şəxsiyyət kimi universitetin dəyərli simaları olduğunu qeyd ediblər. Onlara yeni elmi uğurlar, sağlam və uzun ömür arzu olunub.

Sonda yubilyarlar göstərilən diqqət və ehtirama görə universitet rəhbərliyinə və həmkarlarına təşəkkürlərini bildiriblər.

***Əliyeva Nardanə***
***Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı***

# Təcrübə, zəhmət və nüfuzun yubiley təntənəsi



İnformasiya texnologiyaları sahəsində göstərdiyi xidmətlər professorun elmi və pedaqoji fəaliyyətinə dəyər qatıb.

Naxçıvan Dövlət Universitetinin Elmi Kitabxanasında "Elektronika və informasiya texnologiyaları" kafedrasının professoru, texnika elmləri doktoru Cavanşir Zeynalovun 60 illik yubileyi münasibətilə tədbir keçirilib. Tədbirdə universitetin rəhbərliyi və professor-müəllim heyəti iştirak edib.

Universitetin rektoru Elbrus İsayev çıxış edərək yubilyarın uzunmüddətli elmi-pedaqoji fəaliyyətini yüksək qiymətləndirib. Bildirib ki, Cavanşir Zeynalov informasiya texnologiyaları sahəsində universitetin, xüsusilə müvafiq fakültənin inkişafında mühüm xidmətlər göstərib. Gənc kadrların hazırlanmasında, müasir tədris metodlarının tətbiqində fəallığı ilə seçilən professorun fəaliyyəti təqdirəlayiqdir. Rektor həmçinin fakültənin elmi potensialının gücləndirilməsi və tələbələrin praktiki bacarıqlarının artırılması istiqamətində gələcək layihələrin zəruriliyini diqqətə çatdırıb.



Tədbirdə çıxış edən "Memarlıq" kafedrasının müdiri dosent Gülnarə Qənbərova, "Elektroenergetika mühəndisliyi" kafedrasının müdiri dosent Məftun Əliyev, "Elektronika və informasiya texnologiyaları" kafedrasının müdiri Hüseyn Qasımov, "Meliorasiya və ekologiya mühəndisliyi" kafedrasının müdiri dosent Cabbar Nəcəfov, "Elektroenergetika mühəndisliyi" kafedrasının müəllimi dosent Validə Hacıyeva və digər iştirakçılar professorun müasir texnologiyalar sahəsindəki tədqiqat və layihələrinin əhəmiyyətindən danışıblar. Qeyd olunub ki, Cavanşir Zeynalov tələbələrin elmi biliklərinin inkişafında və universitetin innovativ potensialının gücləndirilməsində mühüm rol oynayır.




Tədbirin sonunda professor Cavanşir Zeynalova xatirə hədiyyələri təqdim olunub. Yubilyar göstərilən diqqət və ehtirama görə minnətdarlığını bildirib və tədbir çay süfrəsi ətrafında davam edib.

# Dosent Əli Tahirovun 60 illik yubileyi qeyd olundu

***Baytarlıq sahəsində ixtisaslı kadrların hazırlanmasına verdiyi töhfələrə görə alimə fəxri fərman təqdim edildi.***

Naxçıvan Dövlət Universitetinin Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsində "Baytarlıq təbabəti" kafedrasının dosenti, biologiya üzrə fəlsəfə doktoru Əli Tahirovun 60 illik yubileyi münasibətilə tədbir keçirilib. Universitet rəhbərliyi, müəllim heyəti və tələbələrin iştirakı ilə təşkil olunan tədbirdə dosentin elmi-pedaqoji fəaliyyətinə yüksək dəyər verilib.



NDU-nun rektoru Elbrus İsayev çıxış edərək, Əli Tahirovun baytarlıq sahəsində ixtisaslı kadrların hazırlanması və elmi tədqiqatların inkişafına verdiyi töhfələrdən bəhs edib, onu yubileyi münasibətilə təbrik edib və fəxri fərmanla təltif edib.

Tədbirdə çıxış edən AMEA-nın müxbir üzvü Hacıfəxrəddin Səfərli, fakültə və kafedra rəhbərləri, eləcə də həmkarları və qonaq professorlar Əli Tahirovun universitetdəki xidmətlərini, yüksək insani keyfiyyətlərini və tələbələr arasında qazandığı nüfuzu xüsusi vurğulayıblar.

Sonda yubilyar göstərilən diqqət və təqdirə görə universitet rəhbərliyinə və kollektivə təşəkkürünü bildirib.

# NDU-da dosent Arif Zeynalovun 60 illik yubileyi qeyd olunub

Universitetin rektoru Elbrus İsayev yubilyarın tədris və metodika sahəsindəki xidmətlərini yüksək qiymətləndirib.

Naxçıvan Dövlət Universitetində "Rus və şərq dilləri" kafedrasının baş müəllimi Arif Zeynalovun 60 illik yubileyi münasibətilə tədbir keçirilib. Universitetin rəhbər heyəti və professor-müəllim heyətinin iştirak etdiyi tədbirdə yubilyarın elmi-pedaqoji fəaliyyətinə yüksək dəyər verilib.



Rektor Elbrus İsayev çıxışında Arif Zeynalovun uzunmüddətli və səmərəli fəaliyyəti ilə universitetin inkişafına verdiyi töhfələri vurğulayıb. Bildirilib ki, Arif Zeynalov pedaqoji fəaliyyəti ilə yanaşı, dil öyrətmədə tətbiq etdiyi metodik yeniliklərlə seçilir. Rektor yubilyara təbriklərini çatdırıb və ona universitetin fəxri fərmanını təqdim edib.

Tədbirdə Xarici dillər fakültəsinin dekan müavini Yasin Babazadə, "Rus və şərq dilləri" kafedrasının müdiri Lalə Allahverdiyeva, baş müəllim, Əməkdar müəllim Rəmziyyə Əsgərova və digər çıxışçılar yubilyarın universitet həyatında oynadığı mühüm roldan bəhs ediblər. Qeyd olunub ki, Arif Zeynalov gənc mütəxəssislərin yetişdirilməsində böyük xidmətlər göstərib və tələbələr arasında yüksək nüfuz qazanıb.

Sonda yubilyara xatirə hədiyyələri təqdim olunub və o, göstərilən diqqət və ehtirama görə universitet rəhbərliyinə minnətdarlığını bildirib.



# NDU-da müəllim Kövsər Abbasovanın 75 illik yubileyi qeyd olundu

***Alman dili müəlliminin pedaqoji fəaliyyəti və tələbələrə verdiyi töhfələr tədbirdə yüksək dəyərləndirilib.***

Ali təhsil ocağının Xarici dillər fakültəsində "Roman-german dilləri" kafedrasının baş müəllimi Kövsər Abbasovanın 75 illik yubileyi münasibətilə tədbir keçirilib.

Tədbirdə Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev çıxış edərək yubilyarın elmi-pedaqoji fəaliyyətindən bəhs edib. Rektor Kövsər Abbasovanın uzun illər ərzində universitetdə alman dili fənninin tədrisinə verdiyi töhfələri və tələbələrin dil biliklərinin inkişafında mühüm rol oynadığını vurğulayıb. Daha sonra Elbrus İsayev yubilyara elmi-pedaqoji fəaliyyətinə görə fəxri fərman təqdim edib.

Universitetin xarici dillər fakültəsinin dekanı Yasin Babazadə, "Roman-german dilləri" kafedrasının müdiri Məhsəti Əsgərova, kafedranın dosenti Əli Allahverdiyev və digər çıxışçılar yubilyarın pedaqoji fəaliyyəti və mənəvi keyfiyyətləri haqqında fikirlərini bölüşüblər.



Natiqlər Kövsər Abbasovanın tələbələrə yüksək səviyyədə bilik verməklə yanaşı, onların xarici dil bacarıqlarının inkişafına xüsusi diqqət yetirdiyini qeyd ediblər. Eləcə də tələbələr də çıxış edərək Kövsər Abbasovanın onlara qazandırdığı bilik və bacarıqlardan, mehriban və qayğıkeş münasibətindən danışıblar.

Sonra Kövsər Abbasovanın tələbəsi Xəzər Bayramov Almaniyanın Frayberq şəhərindən alman dilində öz təbriklərini çatdırıb.

Tədbirin sonunda yubilyarın xoş xatirələrindən ibarət videoçarx izlənilib.



# İman Cəfərovun 60 illik yubileyi və yeni monoqrafiyasının təqdimatı keçirildi

***NDU-da "Molla Nəsrəddin" jurnalı və Şərq ədəbiyyatı" adlı kitabın təqdimatı və yubiley tədbiri böyük maraqla qarşılanıb.***

Naxçıvan Dövlət Universitetinin "Jurnalistika və xarici ölkələr ədəbiyyatı" kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru İman Cəfərovun 60 illik yubileyi və müəllifi olduğu "Molla Nəsrəddin" jurnalı və Şərq ədəbiyyatı" adlı monoqrafiyasının təqdimat mərasimi keçirilib.








Tədbiri universitetin rektoru Elbrus İsayev açaraq dosent İman Cəfərovun həm tədris, həm də idarəetmə sahəsindəki çoxillik səmərəli fəaliyyətindən danışıb. Bildirib ki, İman Cəfərov Azərbaycan ədəbiyyatının tədqiqi və təbliği istiqamətində mühüm araşdırmalar aparıb, gənc nəsil üçün dəyərli elmi irs təqdim edib. Rektor qeyd edib ki, "Molla Nəsrəddin" jurnalı və Şərq ədəbiyyatı" adlı monoqrafiya milli mətbuat tariximizin və Şərq ədəbi düşüncəsinin dərindən anlaşılmasına töhfə verir. Daha sonra Elbrus İsayev 60 yaşını qeyd edən İman Cəfərova elmi-pedaqoji fəaliyyətinə görə təşəkkürnamə təqdim edib.

Universitetin Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Nicat Yaqubov kitabın məzmununa toxunaraq vurğulayıb ki, əsərdə Molla Nəsrəddin ədəbi cəbhəsinin nümayəndələrinin orta əsrlər Şərq ədəbiyyatına münasibəti, habelə qüdrətli qələm sahiblərinin yaradıcılığını xatırladan materiallar yer alır. Nicat Yaqubov dosent İman Cəfərovu yeni kitabı və yubileyi münasibətilə təbrik edib, ona gələcək elmi və pedaqoji fəaliyyətində uğurlar arzulayıb.

Universitetin Tarix-filologiya fakültəsinin dekanı Arif Ağalarov, "Jurnalistika və xarici ölkələr ədəbiyyatı" kafedrasının müdiri Şəhla Şirəliyeva və filologiya üzrə fəlsəfə doktoru Mehriban Sultanova dosentin elmi yaradıcılığının əhəmiyyətindən bəhs edib, yeni nəşrin Azərbaycan ədəbiyyatşünaslığı sahəsində dəyərli mənbə olduğunu vurğulayıblar. Natiqlər yubilyarı təbrik edərək ona xatirə hədiyyələri təqdim ediblər.

Universitetin Tarix-filologiya fakültəsinin tələbələri yubilyarın qələmə aldığı "Uşaq ömrüm", "Qorx", "Səndən ötrü", "Yuxu" və "Vaqif Məmmədova" adlı şeirlərini səsləndiriblər.

Sonda dosent İman Cəfərov göstərilən diqqətə görə universitetin rektoru Elbrus İsayevə və müəllim yoldaşlarına təşəkkürünü bildirib.

***Əliyeva Nardanə***
***Media və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı***

# "Ümumi fizika (Atom fizikası)" adlı dərs vəsaitinin təqdimatı

NDU Elmi Kitabxanasında "Ümumi və nəzəri fizika" kafedrasının baş müəllimi, fizika üzrə fəlsəfə doktoru Nuridə Əkbərova və həmin kafedranın əməkdaşları Yaqut Şükürova, Xuraman Məmmədovanın həmmüəllifi olduqları "Ümumi fizika (Atom fizikası)" adlı dərs vəsaitinin təqdimatı keçirilib.




Fizika-riyaziyyat fakültəsinin dekanı, riyaziyyat üzrə fəlsəfə doktoru, dosent Məftun İsmayılov kitabın elmi dəyərindən bəhs edərək müəlliflərin atom fizikası sahəsindəki elmi araşdırmalarını yüksək qiymətləndirib.

"Ümumi və nəzəri fizika" kafedrasının müdiri, fizika üzrə fəlsəfə doktoru, dosent Billurə Hacıyeva, "Ümumi və nəzəri fizika" kafedrasının dosenti, fizika üzrə fəlsəfə doktoru Fərman Qocayev və Fizika ixtisasının IV kurs tələbəsi Fuad Vəlizadə anlayışların sadə və aydın şəkildə təqdim edildiyi dərs vəsaitinin fizika elminə dəyərli töhfə olduğunu qeyd edib.

Sonda həmmüəllif Nuridə Əkbərova göstərilən diqqətə görə universitet rəhbərliyinə öz minnətdarlığını bildirib.






## Müəllim ömrü

Enişində, yoxuşunda dünyanın,
Həyat adlı naxışında dünyanın,
Zülmətində, işığında dünyanın,
İnsan ömrü, müəllim ömrü yaşadım.

Qayğılarım, möhnətlərim min oldu,
Vaxt oldu ki, arzularım çin oldu,
Bu günlərim, sabahlarım dün oldu,
Fırtınalı müəllim ömrü yaşadım.

Ömür keçir, qocalırıq sən demə,
Qocalmırıq, ucalırıq sən demə,
Bu zamandan bac alırıq sən demə,
Deyə-gülə müəllim ömrü yaşadım.

Şair demiş şaxələnən çinaram,
Ömür boyu tufan əyəm, dağ yaram,
Əziz dostlar, mən sizinlə bəxtiyaram,
Bəxtiyar bir müəllim ömrü yaşadım!

***Şərəbanı Məmmədova***
***Muzeyşünaslıq, arxiv işi və kitabxanaçılıq" kafedrasının dosenti***

# Milli-mənəvi dəyərlərimizin himayədarı

*"Bizim borcumuz xalqımızın tarixini, mədəniyyətini qorumaq və inkişaf etdirməkdir".*

***Heydər ƏLİYEV***
***Azərbaycan xalqının Ümummilli Lideri***

Azərbaycan xalqı tarix boyunca sınaqlardan keçərək, milli dəyərlərini və mənəvi irsini qorumağı bacarmışdır. Bu çətin yolda Ümummilli Lider Heydər Əliyevin rolu əvəzsiz olmuşdur. Azərbaycan zəngin mədəni irsə malik bir xalq kimi formalaşmışdır. Lakin bu irsin qorunması hər zaman asan olmamışdır. Xüsusilə də XX əsrdə Azərbaycanın üzləşdiyi siyasi və ideoloji təzyiqlər fonunda milli kimliyi qoruyub saxlamaq böyük əzmkarlıq tələb edirdi. Məhz belə bir zamanda xalqın taleyüklü məqamlarında Heydər Əliyevin uzaqgörən siyasəti və fədakar fəaliyyəti ön plana çıxır.

Heydər Əliyev Azərbaycanın müstəqilliyini bərpa etdiyi dövrdən etibarən milli-mənəvi dəyərlərimizin qorunmasını dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevirdi. Onun rəhbərliyi ilə həyata keçirilən tədbirlər nəticəsində Azərbaycan dili, mədəniyyəti və milli irsimiz yeni inkişaf mərhələsinə qədəm qoydu.

Sovet hakimiyyəti illərində milli kimliyimizin qorunması olduqca çətin idi. Mərkəzləşdirilmiş ideoloji təzyiqlər nəticəsində Azərbaycan dili və mədəniyyətinin mövcudluğu təhlükə altına düşmüşdü. Bu dövrdə Heydər Əliyev Naxçıvan rəhbəri kimi yerli mədəni irsin qorunmasına xüsusi önəm verdi. Naxçıvanda açılan mədəniyyət mərkəzləri, sənətkarlıq nümunələrinin bərpası və dilimizin təbliği bu yöndə atılmış mühüm addımlar idi.

Bu fəaliyyətlər təkcə regional mahiyyət daşımırdı, eyni zamanda Azərbaycanın milli kimliyinin qorunması üçün vacib zəmin yaradırdı. Heydər Əliyev öz siyasəti ilə göstərdi ki, xalqın ruhunu yaşadan əsas qüvvə onun milli-mənəvi dəyərləridir.

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra qarşıya çıxan əsas məsələlərdən biri də milli kimliyimizin möhkəmləndirilməsi oldu. Heydər Əliyev hakimiyyətə gəldikdən sonra bu istiqamətdə qətiyyətli addımlar atdı. Azərbaycan dilinin dövlət dili kimi qəbul edilməsi, onun tədrisinin genişləndirilməsi milli ruhun dirçəlişinə böyük təkan verdi.

Dövlət səviyyəsində həyata keçirilən tədbirlər sayəsində Azərbaycan dili nəinki ölkə daxilində, həm də beynəlxalq aləmdə tanıdıldı. Heydər Əliyevin təşəbbüsü ilə keçirilən beynəlxalq mədəni tədbirlər, sərgilər və festivallar ölkəmizin zəngin mədəni irsini dünyaya tanıtdı.

2000-ci illərin əvvəlində fəaliyyətə başlayan Heydər Əliyev Mərkəzi Azərbaycanın mədəniyyət diplomatiyasının rəmzinə çevrildi. Bu mərkəz ölkəmizin mədəni irsinin və müasir incəsənətinin beynəlxalq aləmdə tanıdılması üçün əhəmiyyətli platformadır. Burada keçirilən tədbirlər Azərbaycanın mədəni zənginliyini, çoxşaxəli irsini bütün dünyaya nümayiş etdirir.

Heydər Əliyev həm də mədəniyyətin sosial həyatda rolunu daim vurğulayırdı. Onun dövründə muzeylər, teatrlar, konsert zalları və digər mədəniyyət müəssisələri yaradıldı, dövlət büdcəsindən mədəniyyətə ayrılan vəsaitlər artırıldı.

Heydər Əliyev təhsili yalnız elmi biliklərin əldə olunması vasitəsi kimi deyil, həm də milli dəyərlərin qorunub saxlanması və yeni nəslə ötürülməsi aləti kimi dəyərləndirirdi. Təhsil proqramlarında Azərbaycan tarixinin, ədəbiyyatının və mədəniyyətinin geniş yer alması gənc nəslin milli ruhda formalaşmasına xidmət edirdi.

O, gənclərə daim səslənir, milli kimliyimizi qorumağın və gələcək nəsillərə ötürməyin vacibliyini xüsusi vurğulayırdı.

Heydər Əliyev Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin qorunması sahəsində misilsiz xidmətlər göstərmişdir. Onun uzaqgörən siyasəti nəticəsində bu gün Azərbaycan dünya birliyində öz zəngin mədəni irsi ilə tanınan, milli kimliyini qürurla qoruyan bir ölkəyə çevrilmişdir. Heydər Əliyevin qoyduğu irs gələcək nəsillər üçün də yol göstəricisi olmaqda davam edir. Onun fəaliyyəti sübut etdi ki, mədəniyyət və milli dəyərlər yalnız bir xalqın keçmişi deyil, eyni zamanda onun gələcəyidir.

**Gülxarə Əhmədova**
**"Teatr və mədəniyyətşünaslıq" kafedrasının müdiri,**
**filologiya üzrə fəlsəfə doktoru, dosent,**
**Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi**

# Media və süni intellekt: yeni dövrün təsiri və gələcək perspektivləri

Texnologiyanın inqilab etdiyi indiki dövrdə aktual mövzulardan biri də süni intellektin ən müxtəlif sahələrə, xüsusilə də işçi qüvvəsinə təsiridir. Zaman keçdikcə daha da təkmilləşən süni intellektin müxtəlif fəaliyyət sahələrinə hər nə qədər çox müsbət töhfəsi olsa da, bir sıra peşələri tədricən sıradan çıxaracağı əsas müzakirə mövzularındandır. Xüsusilə süni intellektin media sektorunda tətbiqi, müasir dünyanın ən əhəmiyyətli inqilablarından biri kimi qarşımıza çıxır. Süni intellektin media ilə inteqrasiyası, informasiya əldə etmə, xəbər yayma və insanların gündəlik həyatını dəyişdirməkdə yeni bir mərhələyə gətirib çıxarıb.

Süni intellekt rəsmi olaraq 1956-cı ildə ABŞ-nin Dartmut Kollecində keçirilən elmi konfransda yaranıb. Bu konfransda "süni intellekt" termini ilk dəfə rəsmi olaraq istifadə olunub. Konfransı təşkil edən alimlər, süni intellekti insan zəkasını kompüter vasitəsilə təqlid etmək məqsədi kimi müəyyənləşdiriblər. Bu hadisə süni intellekt araşdırmalarının başlanğıc nöqtəsi olub.

Süni intellekt insanın düşünmə və qərar qəbul etmə proseslərini təqlid etməyə çalışan bir texnologiyadır. Media sektoru da bu texnologiyaların ən çox istifadə olunduğu sahələrdən biridir. Bugünkü media mühiti artıq süni intellektlə birgə inkişaf edir. İstər xəbər istehsalı, istərsə də reklam hədəfləri olsun, süni intellekt media istehsalını sürətləndirir və daha səmərəli edir.

Ənənəvi media orqanlarında xəbərlər insan jurnalistləri tərəfindən yazılarkən, son illərdə süni intellektin köməyi ilə xəbər mətnləri avtomatik olaraq yazılır. Məsələn, "Automated Insights" və "Wordsmith" kimi alətlər, maliyyə və idman xəbərlərini sürətlə və insan müdaxiləsi olmadan yaradır. Bu alətlər böyük məlumatları analiz edir və insan oxucularına asanlıqla təqdim edilə bilən xəbərləri avtomatik olaraq formalaşdırır. Süni intellekt bu sahədə daha az işçi qüvvəsi ilə daha çox məzmun istehsal etməyə imkan verir.

"Associated Press" və "Bloomberg" kimi nüfuzlu media qurumları süni intellekt vasitəsilə avtomatik xəbər yazan sistemlərdən istifadə edir. Bundan başqa, fakt-yoxlama və dezinformasiyanın aşkarlanması süni intellektin vacib funksiyalarından biridir. Süni intellekt məlumatların təhlilini və fakt yoxlama prosesini sürətləndirir. Müasir media məkanında dezinformasiyanın yayılma sürətinin artması jurnalistikanı ciddi çağırışlarla qarşı-qarşıya qoyub. "Google Fact Check Tools" və digər fakt-yoxlama alətləri süni intellekt vasitəsilə yanlış informasiyaların mənbəsini araşdırır və oxuculara etibarlı məlumat təqdim etməyə kömək edir. Bot Sentinel aləti isə sosial şəbəkələrdə yayılan şübhəli və saxta xəbərləri müəyyən edir. Süni intellekt vasitəsilə xəbərin doğruluğu yoxlanılır, yanlış məlumatlar süzülür, jurnalistlərin saxta xəbərləri aşkarlamağı daha sürətli həyata keçirilir.

Media orqanları, xəbərləri daha düzgün şəkildə təşkil etmək və lazımi auditoriyaya çatdırmaq üçün süni intellektdən istifadə edirlər. Məsələn, süni intellektin nəzarət etmə və təhlil etmə qabiliyyəti, məlumat axınını asanlaşdırır. Bununla yanaşı, süni intellekt axtarış motorlarında məlumatları təhlil edərək istifadəçilərin daha uyğun nəticələr əldə etmələrini təmin edir. Bu həm də daha geniş auditoriyaların xəbər məzmununa daha sürətli çatmasını təmin edir.

Süni intellektin media sahəsində tətbiqi yalnız təklif etdiyi texniki yeniliklərlə məhdudlaşmır. Bu həm də cəmiyyətin xəbərə münasibətini və informasiya istehlakını dəyişdirir.

Süni intellekt informasiya cəmiyyətində yeni çağırışlar yaradır. Alqoritmlər və şəbəkə sistemləri, müəyyən mesajları daha geniş kütlələrə çatdırmaq və ya müəyyən informasiya ilə insanların düşüncələrini formalaşdırmaq üçün istifadə edilə bilər. Bu isə məlumatların manipulyasiya olunmasına və cəmiyyətin təhrif olunmuş xəbərlərlə yönləndirilməsinə səbəb ola



bilər. "Fake news" (yalan xəbərlər) və dezinformasiya süni intellektin ən böyük təhdidlərindən biridir. Buna görə də xəbər istehsalçısı faktların araşdırılması, məlumatın toplanılması üçün "Süni intellekt" proqramlarından yararlanarkən nəzərə almalıdır ki, bu proqramlar təkcə etimadlı mənbələri, doğru məlumatları deyil, həm də saxta xəbərləri, dezinformasiya mahiyyətli qondarma faktları tapır, toplayır, təqdim edir. Jurnalist "süni intellekt" proqramına qeyd-şərtsiz etimad göstərirsə, saxta xəbərin təsirinə düşür, yoxlanılmamış, dəqiqləşdirilməmiş məlumatların paylanılmasında iştirak edir. Peşəkar media etimadlı məzmun yaratmaq üçün süni intellekt vasitələrindən istifadə edərkən, proqram tərəfindən təqdim edilmiş məzmunu təkrarən nəzərdən keçirməli, onun həqiqiliyini yoxlamalı, məsuliyyətli davranmalıdır.

Süni intellektdən istifadə edilməsi yönündə diqqət çəkən məqamlardan biri də müəllif hüquqlarının pozulmasıdır. Proqram, adətən, jurnalistə təqdim etdiyi hazır mətndə faktların mənbəyini göstərmir, gerçək müəllifə istinad etmir. Beləliklə, müəllif hüquqlarının pozulmasına yol açır. Bu, bütün dünyada müzakirə olunan məsələdir. Süni intellekt insan yaradıcılığına və yaxud jurnalistlərin yazdığı fərdi məqalələrə istinad etdiyinə görə həmin insanların fikirlərini götürür. Burada təbii ki, müəllif hüquqları məsələsi ortaya çıxır, bu da qanunvericilik bazası ilə qorunmalıdır. Hazırda beynəlxalq jurnalist təşkilatları bunun üzərində müxtəlif çalışmalar aparırlar ki, məhz süni intellektin müəllif hüquqlarına əməl etməsinə diqqət ayırsınlar. Bu mövzunun etik tərəfləri işlənilir. 2023-cü il noyabrın 10-da "Süni intellekt və jurnalistika üzrə Beynəlxalq Xartiya" hazırlanaraq imzalanılıb. Sənəd ilkin mərhələdə 17 beynəlxalq jurnalist təşkilatı tərəfindən imzalanıb. 10 maddədən ibarət olan xartiya "süni intellekt"in peşəkar media mühitinə təsirini detallı şəkildə əks etdirir. Problem və onun aradan qaldırılması üzrə aydın təsəvvür yaradır, onların aradan qaldırılması üçün istiqamət verir. Artıq bəzi ölkələrdə "Süni intellekt və media" üzrə Beynəlxalq Xartiyaya istinad edilərək, milli versiyalar hazırlanıb və qəbul edilib. Ehtimal etmək olar ki, növbəti mərhələdə bu məsələ daha dərindən işləniləcək, "Süni intellekt və media" üzrə beynəlxalq prinsiplər Azərbaycan Jurnalistlərinin Etik Davranış Kodeksinə də əlavə olunacaq.

Süni intellektin media sahəsində daha da geniş tətbiqi, fərdi istifadəçilərə daha uyğunlaşdırılmış və hədəflənmiş məlumat təqdim etmək üçün imkanlar yaradır. Reklam sektoru süni intellektin gücündən yararlanaraq hər bir istifadəçiyə xüsusi olaraq uyğun reklamlar göstərməkdədir. Sosial media platformaları, istifadəçilərin davranışlarını izləyərək onların nə ilə maraqlandığını təhlil edir və bu məlumatları onlara uyğunlaşmış reklamlar təqdim edir. Bu həm gəlir artırıcı bir yanaşma, həm də informasiya təhlükəsizliyi sahəsində müzakirə olunan bir məsələdir.

Süni intellektin media sahəsindəki rolu hələ tam şəkildə inkişaf etməyib. Ən yaxşı halda bu sahədə daha da genişlənən, daha səmərəli, amma həm də etik və hüquqi məsələlərlə üzləşən bir dövr bizləri gözləyir.

Süni intellekt təkcə xəbərləri yazmaqla kifayətlənmir, həm də məzmun yaratma və təhlil etmə qabiliyyətinə sahibdir. Yaxın gələcəkdə dərin öyrənmə (deep learning) alqoritmaları, çox daha mükəmməl və müxtəlif məzmunlar yaradacaq. Bu həm mətbuat, həm də kino, televiziya və video oyun sahələrində yeni bir yaradıcı dövrün başlanğıcı olacaq.

Süni intellektin media sahəsindəki gələcəyi yalnız avtomatlaşdırma ilə məhdudlaşmayacaq. Bunun əksinə, jurnalistlər və texnologiya mütəxəssisləri arasındakı əməkdaşlıqda yeni bir mərhələ başlayacaq. Gələcəkdə süni intellektin redaktə, təhlil və məzmun istehsalı işlərində jurnalistlərə dəstək verdiyi, eyni zamanda onların işlərini daha yaradıcı və effektiv hala gətirdiyi bir dövr gözlənilir.

Süni intellektin media sahəsində tətbiqi, həm texnologiyanın, həm də informasiya mühitinin necə dəyişdiyini göstərir. Bu yalnız xəbərlər və məlumatlar istehsal etməkdə deyil, həm də insanların xəbərlərə münasibətində və onları istehlak etmə formasında ciddi dəyişikliklərə səbəb olur. Media və süni intellektin qarşılıqlı əlaqəsi, yeni dövrün tələblərinə cavab verir, lakin bu münasibətin etik və hüquqi tərəfləri də diqqət mərkəzində olmalıdır. Gələcəkdə bu sahədə daha çox inkişaf, həm də müsbət, həm də mənfi nəticələr doğura bilər. Bu dəyişiklikləri düzgün istiqamətləndirmək, təkcə texnoloji deyil, həm də sosial məsuliyyət tələb edir.

Süni intellektin media sahəsində istifadəsi həm imkanlar, həm də risklər təqdim edir. Süni intellektin media sahəsində istifadəsi düzgün şəkildə idarə olunarsa, bu, daha səmərəli və məlumatlı bir cəmiyyətə yol açacaq.

***Şəhla Şirəliyeva***
**Filologiya üzrə fəlsəfə doktoru, dosent**

# ƏQİDƏ DOSTLARI

Totalitar sovet rejiminin amansız məngənəsində sıxılaraq mərkəzdə – Bakıda yaşayan Xalq şairi Bəxtiyar Vahabzadə və qədim elm və mədəniyyət mərkəzi olan Naxçıvanı yaşayış məskəni seçən Hüseyn Razi rus imperiya siyasəti və kommunist ideologiyasının məkrli niyyətlərinə yaxşı bələd idi. Onlar fürsət tapdıqca bu mənfur siyasətə və ideologiyaya etiraz, nifrət və lənətlərini sandıq şeirlərində açıq, mətbu əsərlərində isə eyham və sətiraltı mənalarla münasibət bildirmişlər.

Müşahidələri, əqidə və düşüncə yaxınlığı bu şairlərin bir-birindən xəbərsiz yazdıqları bəzi misraları, ifadələri və fikirlərinin səsləşməsinə, hətta eyniliyinə gətirib çıxarmışdır.

Bir nümunəyə diqqət edək.

H.Razi "Dedilər" adlı şeirini B.Vahabzadənin "Səbr elədik" şeirindən 15 il əvvəl yazıb, 1966-cı ildə:

Dedilər ömrümüz gözəldir, fəqət,
Gedirik daha xoş, gözəl sabaha.
Qalınca gözdə nur, qollarda qüvvət,
Əlləşib çalışın ürəkdən daha.

Daha şən, daha xoş, daha da yüksək
Günlərin eşqiylə coşdu ürəklər.
Dahalar sıxlaşdı məngənələr tək,
Düzüldü beşikdən məzara qədər.

Dəryalar adladıq daha sərt, dərin
Getməyi məsləhət görən çox oldu.
"Daha da irəli" söyləyənlərin
Səsini eşitdik, özü yox oldu.

Fəth etdik dağların zirvələrini,
Arxadan səs gəldi: "daha da qəlbi!"
Daha da, daha da kəlmələrini
Bəzən xoş dedilər, bəzən əsəbi.

Gözəli tapmamış, ən gözəl deyə,
Ən böyük bir eşqin izinə düşdük.
Qanadsız şığamaq istədik göyə,
Sıldırım daşlardan yerə sürüşdük.

Hər gün plov yedik söz qaşığıyla,
Fəqət çörəyə də qənaət oldu.
Həyatın ən böyük yaraşığıyla
Görüşmək xəyali bir qismət oldu.

Qopdu dizlərimiz, dirsəklərimiz,
Dedilər daha da dözümlü olun.
Daha da səbrlə addımladıq biz
Sonu görünmədi başlanan yolun.

Bəzən zəfər çalıb getdik irəli,
Bilmədik rahatlıq dinclik hardadır.
Dedilər xoş günün daha gözəli,
Daha fərəhlisi sabahlardadır.

B.Vahabzadənin 1981-ci ildə qələmə aldığı şeirin bir parçası isə belədir:

Bizə ancaq döz, dedilər.
Elə bildik, düz dedilər.
Hər gecənin gündüzü var,
Gələcək gündüz, dedilər
Biz gözlədik
Qəlbimizdə baş qaldıran
ümidləri əzizlədik.
Hey izlədik,
Uca-uca kürsülərdən
vəz olunan nitqləri.
Həyatda yox
Qəzetlərdə göstərdilər
Bizə yalnız xeyri-şəri.
Şirin-şəkər yalanları yeyə-yeyə
Biz inandıq gələcəyə.
O gəlmədi,
Düz əyildi,
Əyriliklər düzəlmədi.
Arzumuzun əvəzinə
Bizə yenə söz verdilər.
Həqiqəti görməməkçün
Dəyişdirib gözümüzü
Bizə başqa göz verdilər.
Baxıb saxta gözümüzlə
Hamar gördük çuxuru biz,
Saray bildik axuru biz.

Şeirlər arasındakı yaxınlıq, az qala eynilik göz qabağındadır. Nə B.Vahabzadə, nə də H.Razi adı çəkilən şeirlərini yazarkən bir-birlərinin şeirindən xəbəri ola bilməzdi. Çünki bu əsərlər onların sandıq şeirlərindəndir və SSRİ dağılandan sonra çap olunan kitablarına daxil edilib.

Bəs bu yaxınlıq haradan qaynaqlanır? Bu suala cavab vermək üçün əvvəlcə B.Vahabzadə ilə H.Razinin şəxsi tanışlığı və münasibətləri məsələsinə nəzər salmaq lazımdır.

B.Vahabzadə ilk dəfə Naxçıvana 1959-cu ildə gəlib: "1959-cu ildə C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Dram Teatrı (o vaxt həmin teatr M.F.Axundovun adını daşıyırdı – F.X.) "Ədalət" pyesimi tamaşaya hazırlayırdı. Bu münasibətlə Naxçıvana getmişdim... Naxçıvanın böyük yüksəliş və tərəqqisini mən 1973-cü ildə "Yağışdan sonra" pyesimin tamaşasına getdiyim zaman – bu diyara ikinci gəlişimdə daha böyük bir anlayışla gördüm".

Xatırlatma: O vaxtlar H.Razinin hər iki tamaşaya həsr olunan "Ədalət" və "Yağışdan sonra" sərlövhəli resenziyaları "Şərq qapısı" qəzetində dərc olunub.



B.Vahabzadə H.Raziyə yazdığı 4 dekabr 1984-cü il tarixli məktubunda Naxçıvana hər iki gəlişindən razı qaldığını belə ifadə edir: "Azərbaycanda mən ilk dəfə Naxçıvanda sevilmiş, şair kimi naxçıvanlılar tərəfindən qəbul olunmuşam. Son gəlişimdə də mən bu məhəbbəti hiss etdim. Çox sağ olun. Camaata mənim salam-larımı yetirin. Sizə bir daha təşəkkür edirəm".

B.Vahabzadənin Naxçıvana ilk gəlişində H.Razi onunla şəxsən tanış olub, sonralar bu tanışlıq məktublaşma, Bakıda və Naxçıvanda görüşüb "dərdləşməklə" səmimi münasibətlərə və əqidə dostluğuna çevrilib.

H.Razinin "Gündəliy"indən: "8 aprel 1973. Yağışlı gündür. Bəxtiyar Vahabzadəni qarşılamağa getdim. Bir az söhbətdən sonra ayrıldım. Onun Mehmandarov haqqında söhbəti mənim üçün təzə idi.

9 aprel 1973. İnstitutda Bəxtiyarla görüşdə oluram. Axşam onun "Yağışdan sonra" tamaşasına baxıb xeyli söhbət etdik. Söhbətimiz çox tuturdu, fikirlərimiz uzlaşırdı.

10 aprel 1973. Bəxtiyarla söhbət etdim. Şeirlər oxuduq, dərdləşdik".

B.Vahabzadənin H.Razinin anadan olmasının 60 illiyi münasibətilə ona göndərdiyi təbrik sözləri də bu şairlərin arasındakı səmimiyyətdən xəbər verir: "Sənə Azərbaycan SSR Əməkdar incəsənət xadimi adının verilməsini Naxçıvanın 60 illiyi təntənəsində eşitdim. Çox şad oldum. Hamımız üçün doğma və kövrək səslənən Arazın sahilində yazıb-yaradan şairimizə daha xoş günlər, tükənməz sevinc qaynaqları, bir-birindən gözəl əsərlər arzu edirəm".

1984-cü ildə H.Razinin "Sovet Naxçıvanı" qəzetində B.Vahabzadənin yaradıcılığına həsr olunan "Yüksək fikirlər poeziyası" sərlövhəli məqaləsi dərc olunur. B.Vahabzadə ona ünvanladığı 4 dekabr 1984-cü il tarixli məktubunda yazır:

"Salam, əzizim Hüseyn Razi!

Göndərdiyin qəzeti aldım. Məqaləni oxudum. Ürəklə yazmısan, çox təşəkkür edirəm, zəhmət çəkmisən".

H.Razi 1986-cı ildə M.Əzizbəyov adına Azərbaycan Dövlət Akademik Dram Teatrının Naxçıvanda göstərdiyi B.Vahabzadənin "Fəryad" pyesinin tamaşasına yazdığı "Fikirlərin üsyanı" adlı rəydə onun yaradıcılığını çox yüksək qiymətləndirmişdir.

B.Vahabzadə də H.Razinin yaradıcılığı ilə yaxından tanış idi və onu layiqincə dəyərləndirirdi.

"Hörmətli Hüseyn, salam!

"Sovet Naxçıvanı"nda çıxan məqaləni ("Fikirlərin üsyanı" məqaləsi nəzərdə tutulur – F.X.) və kitabını (Sahil həsrəti. Bakı: Yazıçı, 1985 – F.X.) oxudum. Hər ikisinə görə çox sağ ol. Məqalədən aydın olur ki, "Fəryad"ın fəryadı sənin də ürəyində əks-sədasını tapıb.

"Keçəl Həmzə" misilsiz dərəcədə gözəl şeirdir. Dərdimizin ifadəsidir...

O zaman başımıza kül olub ki, dəlilər dəliliyindən çıxıb müasir havaya uyğunlaşıblar. Koroğlunun, Giziroğlunun başında şapka, boynunda qalstuk gördüyümüz gün evimiz yıxılıb. Nə isə... Bu şeirə görə çox sağ ol.

Poemada ("Sahil həsrəti" – F.X.) fikirlər çox gözəldir..."

Bütün bunları nəzərə alaraq belə qənaətə gəlmək olar ki, yuxarıda adlarını çəkdiyimiz bir-birindən xəbərsiz yazılan və qələmə alınmalarının arasında 15 illik fasilə olan "Dedilər" (H.Razi) və "Səbr elədik" (B.Vahabzadə) şeirlərinin və aşağıda nümunə göstərdiyimiz sandıq şeirlərində bəzi misraların səsləşməsi müəlliflərin müxtəlif vaxtlarda görüşləri zamanı ətraflı fikir mübadilələrindən, necə deyərlər, "dərdləşərkən" bir-birinə ötürdükləri ideyalardan qaynaqlanır.

H.Razi 1967.

Odum sönsə, kül altında közəm mən (Göz, ayd, s.38)

B.Vahabzadə 1981:

Çözələsən, görərsən kül altında köz yatır (Vahabzadə B. Seçilmiş əsərləri, İki cilddə. I c. (şeirlər) Bakı: "Öndər nəşriyyat", 2004, s.242

B.Vahabzadə 1965:

Atasını söyən, yada baş əyən
rəhbərlər görmüşəm qəddar, amansız (Vahabzadə B. Seçilmiş əsərləri, İki cilddə. I c. (şeirlər) Bakı: "Öndər nəşriyyat", 2004, s.233 (328).

H.Razi 1988:

Dədəsinin qəbrini beş şahıya
Anasının ismətini havayı verər
Təki qan sormaq imkanını əlindən almasınlar (G, a, s.55)

B.Vahabzadə 1968:

Vicdan, düzlük, həqiqət sürgün oldu...
Ruhumuz qəlbimizdə əbədi dustaq oldu (Vahabzadə B. Seçilmiş əsərləri, İki cilddə. I c. (şeirlər) Bakı: "Öndər nəşriyyat", 2004, s.234

H.Razi 1990:

Ürəyimdə arzu dustaq, fikir sürgün ( Göz. Ayd, s.81)

B.Vahabzadə 1976:

Bir baxaq, bir görək,
bilək biz nəyik (Vahabzadə B. Seçilmiş əsərləri, İki cilddə. I c. (şeirlər) Bakı: "Öndər nəşriyyat", 2004, s.237 (328).

H.Razi 1983:

Kimik, kimliyimiz bilinsin gərək (S.H. s.88)

Burada bir məsələnin də üzərində dayanma ehtiyacı duyuruq. İstər B.Vahabzadə, istərsə də H.Razi yaşadıqları sovet dönəmində kommunist ideologiyasının diktə etdiyi mövzulardan yaxa qurtara bilməmiş, həmin mövzularda bəzi şeirlər yazmağa məcbur olmuşlar. Hər iki şair belə şeirləri boğazdan yuxarı yazdıqlarını yaxşı bilirdilər.

H.Razi. "Gündəlik"dən: "3 noyabr 1966. Hər anın bir hökmü olur ki, o hökmün qılıncına baş əyməmək olmur".

B.Vahabzadə 2004: "Ömür yollarında büdrəmələrim olmuş, duyğu və fikirlərimi açıq-aşkar və tam dəqiqliyi ilə yaza bilməmiş, zamanın tufanlarından ehtiyat etdiyim hallar da olmuşdur".

Bu acı gerçəklik sovet rejimində "zamanın tufanlarının" burulğanına düşərək diktə olunan "hökmlərin qılıncına baş əyməyə" məcbur olan milli ruhlu şairlərimizin faciəsi idi.

**Fərman Xəlilov**
**AMEA-nın Naxçıvan Bölməsinin Əlyazmalar Fondunun direktoru, filologiya elmləri doktoru**

# Yaşamaq yanmaqdır, yanasan gərək!

Bəxtiyar Vahabzadənin 100 illik yubileyini qeyd etdiyimiz bu il onun ədəbi irsinə yeni baxışlarla yanaşmaq vacibdir. XX əsrin ikinci yarısında və XXI əsrin başlanğıcında Azərbaycan poeziyasının ən parlaq nümayəndələrindən biri olan Vahabzadə poeziyanı milli şüur, azadlıq, vətənpərvərlik ideyaları ilə bəzəmişdir. Onun söz sənətinə verdiyi töhfələr klassik ədəbi irs və çağdaş dünyagörüşü arasında körpü yaratmış, milli poeziyanın yeni istiqamətdə inkişaf etməsinə təkan vermişdir.

Bəxtiyar Vahabzadənin həm poeziya, həm də dramaturgiya sahələrindəki düşüncə tərzini dəyərləndirmək lazımdır. Onun poetik dili xalq ədəbiyyatı və klassik poeziya əsasında formalaşaraq böyük bir ictimai-estetik funksiyanı daşıyır. Şair xalq mənəviyyatının, milli şüurun ən dərin qatlarını əks etdirməklə yanaşı, eyni zamanda ictimai problemlərə yaradıcılığında çox ciddiliklə toxunur, vətən, azadlıq, haqq və ədalət kimi anlayışları poeziyanın bədii dilində canlandırmağı bacarırdı. Onun yaradıcılığı Azərbaycan ədəbiyyatının inkişafına böyük təsir göstərmiş və müxtəlif ədəbi cərəyanlarla vəhdət təşkil etmişdir.

Şairin şeirlərində müstəqillik ruhu, xalqın azad iradəsinə olan inamı açıq-aşkar hiss olunur. "Gülüstan" poeması onun ən dərin ictimai-siyasi məzmunlu əsərlərindəndir. Burada tarix, siyasi təhlil və poetik emosiyalar bir-birinə qovuşaraq bütövləşmiş bir bədii struktur yaradır. Vahid süjet xəttinə malik olmayan poema əslində tarixi mövzulu bir əsər olmaqla bərabər, Azərbaycanın Sovet İmperiyası tərkibində olmasına sərt bədii etiraz idi.

B.Vahabzadənin dramaturgiyası onun poeziyası qədər bədii dəyərli və ictimai cəhətdən dərin məzmunludur. Sənətkarın "Yağışdan sonra", "Vicdan", "Fəryad" kimi pyeslərində şəxsi və cəmiyyəti dilemma, insan taleyi və ictimai vicdan kimi anlayışlar çox zəngin bədii formalarla əks olunmuşdur.

Bəxtiyar Vahabzadə təkcə şair deyil, həm də düşüncəli bir insan idi. O, sözün gücünə inanırdı. Gecə saatlarında oğluna zəng vurub yeni yazdığı şeiri oxumağı adi bir şey kimi görürdü. Şair üçün ilhamın vaxtı olmazdı. Oğlu isə bu zənglərdən bir qədər narahat olurdu, çünki, adətən, pis xəbər gələndə insanlar gecə zəng vururlar. Ancaq atası sadəcə şeir oxumaq istəyirdi. Bu, bir növ onun üçün öz fikirlərini paylaşmaq, başqasının reaksiyasını görmək vasitəsi idi.

Oğlu bəzən şeirləri bəyənmirdi. Bunu atasına açıq deyirdi. Vahabzadə isə bəzən övladının fikri ilə razılaşır, bəzən də sadəcə "Get, öz işinlə məşğul ol" deyirdi. Bu ifadə bir az gülməli səslənir. Bir anlıq küsmək, incimək var bu sözlərin arxasında. Amma əslində, oğlu ilə bu cür danışması onların nə qədər yaxın olduqlarını göstərir.

Ən maraqlısı odur ki, Bəxtiyar Vahabzadə oğluna fəlsəfə kitabları oxudubmuş. O, şeir yazan biri olsa da, təkcə poeziyanın içində itib getmək istəmirdi. Şopenhaueri, Kantı, Nitşeni oxutdurubsa, deməli, düşünməyi, analiz etməyi öyrətmək istəyib. Amma bunun nəticəsində oğlunun inanc məsələsində şübhəyə düşməsi onu narahat edib. Bir tərəfdən bu kitabları oxumağı məsləhət görüb, digər tərəfdən oğlunun gəldiyi qənaətləri qəbul etmək istəməyib.

İsfəndiyar Vahabzadə və jurnalist arasında keçən bu maraqlı dialoqda həm ata-oğul münasibətlərinin səmimiliyi, həm də bir şairin düşüncə dünyası görünür. Oğlu onun həm şeirlərinə qulaq asır, həm mübahisə edir, həm də onu öz baxışları ilə tanıyır. Bu da göstərir ki, Vahabzadə təkcə böyük şair yox, həm də maraqlı bir insan olub.



Bəxtiyar Vahabzadənin poeziyasında lirika xüsusi yer tutur. Onun lirikasında insan taleyi, sevgi, vətən sevgisi, milli kimlik və mənəvi axtarışlar mühüm yer tutur. Xalq ruhunun ən incə çalarlarını əks etdirən şeirlərində bəzən incə bir nisgil, bəzən isə dərin fəlsəfi düşüncələr hiss olunur.

Ona zirvə mənəm, ona son mənəm.  
Yata da bilmirsən uzun gecələr,  
Gözlərindən qaçan o yuxun mənəm...  
Hər kəsə tutmadın, axı, tən məni.  
Sən də bu dünyada mənimçün təksən.  
Sən qova bilərsən evindən məni,  
Qəlbindən ki, qova bilməyəcəksən.  
Sənin hər dəqiqən, hər anın mənəm,  
Axı adın mənəm, ünvanın mənəm.

Şair "Özündən ayrıla bilməyəcəksən" şeirində insanın öz kimliyindən qaça bilməyəcəyini vurğulayır. İstəsən də, unutmağa çalışsan da, bəzi şeylər içində yaşayır, səni "sən" edən də elə olur. Keçmişinin yükü, duyğularının əksi, gecə qaçan yuxun, səni rahat buraxmayan düşüncələrin – hamısı səndən ayrılmazdır. İnsan bəzən hər şeyi dəyişdirdiyini düşünür, amma nə adını dəyişmək mümkündür, nə də taleyinin yönünü. Bir şeyi həyatından çıxara bilərsən, amma qəlbindən silmək başqa bir aləmdir. Bu həm də insanın taleyi ilə barışmasıdır. İnsan axırda anlayır ki, içində daşıdığı şeylər onun özüdür.

Şirin gülüşlərimiz, acı fəğanlarımız  
Bir salama dəymədi?  
Qayğılı anlarımız, qayğısız anlarımız  
Bir salama dəymədi?  
Sən neylədin, bir düşün!  
Yalnız indi anladım: ah, sən daha mənimçün  
Əlçatmaz bir çiçəksən,  
Yaşanmış günlərim tək geri dönməyəcəksən!...

Bəxtiyar Vahabzadə "Bir salama dəymədi" şeirində ayrılığın ağrısını dərin fəlsəfi duyğularla ifadə edir. Keçmişdə birlikdə yaşanan sevinc və kədər, gülüş və göz yaşları, qayğılı və qayğısız günlər bir salama belə dəymədimi? Əslində buradakı sual öz içində küskünlük, təəccüb, qırılmış ümidlər daşıyır. Sevginin dəyəri hər şeydən yüksək tutulsa da, ayrılıqdan sonra onun qalıqları bəzən bir salam qədər belə önəmsiz görünür. Şair bu hissi vurğulamaq üçün zamanın dönməzliyini xüsusi qeyd edir: sevən insan əlçatmaz bir çiçəyə çevrilir, yaşanmış günlər isə geri dönmür.

Bu misralar sevgidə vəfa və dəyərin nə qədər mühüm olduğunu göstərir. Həyatda bəzi şeylər unudulur, lakin dəyər verilən hisslər heç vaxt unudulmamalıdır. Sevgi təkcə hisslər deyil, o, eyni zamanda hörmət və ehtiramdır. Əgər iki insanın keçmişi bir salama belə dəymirsə, deməli, ya o sevgi heç vaxt olmamışdı, ya da zaman onu çoxdan yox etmişdi.

Dünya həmin dünya deyilmi aya –  
Bəs neçin mənimlə əylənmir yenə?  
Artıq köhnə dünya, bu qoca dünya  
Özgə cür görünür, özgə cür mənə!  
Bəlkə ayrılmışam özüm özümdən,  
Özgə bir adamam bəlkə indi mən?  
Dünya gözəlləşir, dəyişir aləm;  
Ömür yollarını vüqarla keçdim.  
Anlaya bilmirəm, qana bilmirəm  
Dünyamı dəyişdi, mənmi dəyişdim?

Şair bu misralarda özünün və dünyanın əvvəlki kimi olmadığını hiss edir. Lakin bu dəyişikliyin mənbəyi haradadır? Dünya doğrudanmı dəyişib, yoxsa insanın özü, onun baxışları, duyğuları, düşüncələri fərqliləşib?

Dünya, zahirən, eyni dünyadır. Ancaq insan keçmişə boylandıqda gördüyü mənzərə əvvəlki kimi görünmür. Şair burada zamanın keçməsi ilə insanın həyata baxışlarının dəyişməsini vurğulayır. İnsan böyüdükcə, yaşadıqca, gördükləri, yaşadıqları, qazandıqları və itirdikləri onun ruhunu formalaşdırır. Şairin sualı isə əbədidir:

"Dünyamı dəyişdi, mənmi dəyişdim?"  
İlləri dən kimi zaman üyütdü,  
Ocaq heydən düşüb, köz qaralıbdır.  
Ömrün yayı keçdi, baharı ötdü,  
Ömrün iztirablı qışı qalıbdır.  
Onu da bilmirəm, qalıb, qalmayıb?  
Bəlkə köçəcəyəm qışa çatmamış.  
Amma həyat eşqi heç azalmayıb,  
Köçmək istəmirəm qışı dadmamış.

Bəxtiyar Vahabzadənin "Təskinlik" şeirində zamanın sürətlə keçməsi, həyatın qaçılmaz sonlarına doğru yaxınlaşma hissi güclüdür. Lirik qəhrəman artıq ömrünün qışına yaxınlaşır, amma buna baxmayaraq, həyat eşqi itmir. Onun içindəki yaşama arzusunun zəifləmiş olduğu, lakin hələ də ümidin, təskinliyin qaldığı hiss olunur. Burada insanın mövcudluğunun əzablarına baxmayaraq, yenə də həyatın bir an belə gözəlliyini qaçırmaq istəməməsi vurğulanır.

Ah, mən gündən-günə bu gözəlləşən  
İşıqlı dünyadan necə əl çəkim?  
Bu yerlə çarpışan, göylə əlləşən  
Dostdan, aşinadan necə əl çəkim?

Bəxtiyar Vahabzadədən fərqli olaraq, Mikayıl Müşfiqin "Həyat sevgisi" şeirində isə, daha canlı və enerjili bir ruh var. O, həyatın hər bir anını qiymətləndirir, gözəlliklərdən ayrılmaq istəmir. Gözlərindəki həyat sevgisi daha güclü və əzmkardır, hər bir anı doyunca yaşama arzusudur.

Hər iki şeirdə də həyatın gözəlliyi və onun keçiciliyi üzərində düşünülür. Hər iki şairin lirik qəhrəmanları zamanın sərhədləri ilə üzləşirlər, amma həyatın dəyərini dərindən anlayırlar və hələ də ondan əllərini çəkmirlər. Lakin fərq ondadır ki, Vahabzadənin şeiri daha çox mövcud olan ağrı, əzab və həyatda qalan sonuncu ümid ilə bağlıdır. Mikayıl Müşfiq isə həyatın gözəlliklərinə və yaşamağı davam etməyə yönəlmiş bir baxışa sahibdir. Hər iki halda da həyat eşqi, həyat sevgisi, zamanın keçiciliyinə qarşı bir mübarizə kimi ortaya çıxır.

Vahabzadənin şeirləri onun həyat görüşlərini, fəlsəfi baxışlarını və cəmiyyətə olan münasibətini ifadə edən güclü bir vasitə olmuşdur. O, sadəcə şair deyildi, eyni zamanda dərin düşüncəli bir filosof idi. Şeirlərində insan və cəmiyyət münasibətlərini incəliklə təsvir etmiş, ictimai proseslərə poetik baxış bucağından yanaşmışdır.

Onun ədəbiyyatşünaslıq sahəsindəki araşdırmaları da böyük maraq doğurur. O, klassik və çağdaş Azərbaycan poeziyasını təhlil edərək milli ədəbiyyatın inkişaf istiqamətlərini müəyyənləşdirməyə çalışmışdır. Bəxtiyar Vahabzadə ədəbi tənqidin mühüm simalarından biri kimi Azərbaycan poeziyasının dərin qatlarını üzə çıxarmağa çalışmış, gənc şairlərə istiqamət verən yazılar yazmışdır. Onun elmi-nəzəri məqalələri ədəbi proseslərin mahiyyətini açıqlayan, milli poeziyanın inkişaf xəttini müəyyənləşdirən qiymətli mənbələrdir.

Bəxtiyar Vahabzadənin bədii yaradıcılığı ilə yanaşı, publisistik fəaliyyəti də böyük maraq doğurur. O, cəmiyyətin problemlərinə, milli kimlik məsələlərinə və sosial ədalət mövzularına dair çoxsaylı məqalələr qələmə almışdır. Onun publisistikasında milli dəyərlər, mənəvi inkişaf və azərbaycançılıq ideyaları ön plandadır. B.Vahabzadə vətəndaş şair olaraq xalqının taleyini düşünmüş, öz fikirlərini açıq və cəsarətlə ifadə etmişdir.

Bu yubiley ili bizə Bəxtiyar Vahabzadənin poeziyasını daha dərindən öyrənmək və onun mənəvi irsinə yenidən baxmaq imkanı verir. O tək bir şair deyildi, həm də xalqın mənəviyyatının, şüurunun, düşüncələrinin poeziyada bədii simvolu idi. Bu mənada onun irsi, tənqidi və düşüncəli poeziya sevənlər üçün böyük dəyər daşıyır və zamanın sınaqlarını keçərək dəyərli bir miras kimi qalacaq.

**Fərasət Babazadə**  
**Filologiya ixtisası üzrə II kurs tələbəsi**

# Bəxtiyar Vahabzadə - 100 ilin istiqlal şairi

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev görkəmli şair Bəxtiyar Vahabzadənin 100 illiyinin qeyd edilməsi ilə bağlı Sərəncam imzalayıb. Mən də bu məqaləmdə yaradıcılığını çox sevdiyim şair haqqında fikirlərimi paylaşacağam.

Bəxtiyar Vahabzadənin yaradıcılığı sadəcə bir şairin öz dövrünə səslənməsi deyil, həm də zamanın şairə, onun isə zamana verdiyi cavabdır. O, sözün sehrində məfkurə tikən, poeziyanı ideyanın bayrağına və şeiri bir xalqın qürur aynasına çevirən ədəbi simalardandır. Yaradıcılığı bir poeziya faktı olması ilə yanaşı, həm də milli özünüdərketmə hadisəsidir. B.Vahabzadənin sənət dünyasında əsas mövqe insanın azadlıqla münasibətinə, onun mənəvi bütövlüyünə və milli kimliyinə verilən fəlsəfi baxışla müəyyənləşir. O, poeziyanı bəzəkli sözlərin meydanı yox, fikir və ruhi məsuliyyətin daşıyıcısı kimi görürdü. Bu baxımdan onun yaradıcılığı nə yalnız duyğuların axını, nə də təkcə bədii təsvirin qüdrətidir – bu yaradıcılıq daha çox ruhla zamanın dialoqudur.

Şairin poetik duruşunda iki əsas xətt özünü göstərir: milli kimliyin qorunması və insanın daxili azadlıq uğrunda mübarizəsi. O, bu iki anlayışı bir-birindən ayırmadan, bir sistemin parçaları kimi təqdim edir. Onun fikrincə, milli azadlıq mənəvi azadlıqdan doğur, mənəvi azadlıq isə dilə düşüncəyə, dəyərlərə sahib çıxmaqla mümkündür. Bəxtiyar yaradıcılığına hakim olan fəlsəfi ideya həm də zamanın sınağından keçmiş əxlaqi mövqeyə söykənir. Bu mövqe bir sənətkarın ideallaşdırdığı yox, yaşadığı mövqedir. Vahabzadə sözə sırf estetik gözəllik prizmasından baxmırdı, onun üçün hər misra həm də məsuliyyət daşıyırdı. Bu səbəbdən onun poeziyası təkcə oxucuya müraciət etmir, həm də onu oyadır, düşünməyə və mövqe tutmağa səsləyir.

Şairin söz dünyası eyni zamanda sükuta qarşı poetik üsyandır. O, susulmalı olan yerlərdə danışmaq cəsarətini sözlə ifadə edib, qorxunun kölgəsində deyil, vicdanın işığında yazmağa üstünlük verib. Pedaqoqun bədii təfəkkürü yalnız sənətə deyil, həyata da ədalət prizmasından yanaşırdı. Onun dünyagörüşündə ədəbiyyat gözəlliyin yox, gerçəkliyin sınaq meydanıdır.

O, sözün qüdrətinə arxalanaraq xalqının səsinə çevrildi. Qələminin ucunda millətin ağrısı, susqun illərin hayqırtısı vardı. Hər misrasında bir azadlıq həsrəti, hər bəndində bir istiqlal harayı duyulurdu. Şairin sözləri bayraq kimi dalğalanırdı. O, susan bir dövrdə danışmağın adını tapmışdı – şeir. Vətəni onun qələmində dağ deyildi, torpaq deyildi – Vətən bir yanğı idi, içində köz-köz alışan nisgildi. Millət onun üçün sadəcə bir topluluq deyildi, millət yaddaş idi, dil idi, ruh idi. O, dilinə ümidvar yaşayan bir xalqın, kimliyinə qapanıb susan bir millətin içində danışan nəfəsə çevrilmişdi. Misralarında qorxu yox idi, çünki azadlığın heykəlini qorxusuzluqla yonurdu.

B.Vahabzadə bir millətin ürəyində açılmayan pəncərəni araladı, qaranlıqda gəzən düşüncələrə işıq tutdu. Çünki o, şeirləri ilə xalqının yandırılmış ümidlərini yenidən alışdırırdı. Onun üçün şeir bir silah idi – səssizliyin sinəsini yara-yara azadlığa yol açan söz silahı.

Əslində Bəxtiyar Vahabzadə yazmırdı, əksinə, düşünürdü. Onun qələmi poetik təfəkkürün aynası olmaqla bərabər, fəlsəfi çağırışların da səsi idi. Hər misrası bir düşüncə mərkəzinə çevrilə bilərdi. Onun yaradıcılığı zamanla deformasiyaya uğramış mənəvi anlayışları bərpa edən bir fikir laboratoriyasıdır. Bu yaradıcılığın əsas gücü, onun sadəcə keçmişə bağlanmasında deyil, gələcəyi də düşünməsində idi. O, şeiri arxivləşdirmədi, aktuallaşdırdı.

Bəxtiyar Vahabzadə üçün şeir keçmişin izahı yox, gələcəyin izahı idi. Bu baxımdan o, ənənəni qorumaqla onu yeni düşüncə qatları ilə zənginləşdirə bilən müasir klassik idi. Onun yaradıcılığı nə qədər fərdi görünsə də, kollektiv ruhun daşıyıcısı idi. Şair xalqın sözlə ifadə edə bilmədiyi hissləri sətirə çevirib hər bir oxucunun daxili səsinə çevrilə bildi. Bu səbəbdən Bəxtiyar Vahabzadə təkcə şair deyil, həm də bir fikir arxitektoru, milli özünüdərkin bədii portretidir.

Zaman ötür, amma düşüncələr zamanın çərçivəsinə sığmır. Vahabzadənin poetik irsi hələ uzun illər bu millətin fikir yaddaşında yaşayacaq. Çünki bu yaradıcılıq qələm izi olmaqla bərabər, bir millətin ruhuna yazılmış imzadır.

...Beləliklə, zaman onu sadəcə bir şair kimi tanımadı. Zaman onu istiqlalın səsi, azadlığın sözdə bərq vuran haləsi kimi yadda saxladı. O, millətinin könlündə əsrlərin susqunluğunu hayqıran bir nida kimi yaşadı.

**Həqiqət Əsgərova**
**Azərbaycan dili və ədəbiyyatı müəllimliyi ixtisası üzrə II kurs tələbəsi**

# Konstitusiya və Suverenlik: müstəqil dövlətçiliyin hüquqi təməli

Azərbaycan – Odlar Yurdu öz müstəqilliyini və suverenliyini qanla, iradə və əzmlə qazanmış bir xalqın vətənidir. Tarix boyu imperiyaların işğalların və siyasi təzyiqlərin girdabından keçən bu torpaq xalqın milli iradəsi və siyasi yetkinliyi sayəsində hər zaman azad yaşamaq uğrunda mübarizəsini davam etdirmişdir. Məhz bu mübarizənin hüquqi zəfəri – Konstitusiyamız bu gün Azərbaycan dövlətçiliyinin təməl daşı kimi qiymətləndirilir.

1918-ci il 28 May tarixində yaradılan Azərbaycan Xalq Cümhuriyyəti 1920-ci ildə süqut etmiş və SSRİ-nin tərkibinə daxil olmuşdur. Təbii haldır ki, bu hadisə tariximizin ən acı səhifələrindən biri hesab olunur. Azərbaycan 71 il SSRİ-nin tərkibində olmuşdur. Sovet Rusiyasının tabeliyi altında olmaq, onun qaydaqanunlarına əməl etmək, əlbəttə ki, bəzi çətinliklər törədirdi. Danılmaz faktdır ki, dövlətin öz sabitliyinin və mövcudluğunun qorunması üçün maddələr toplusunun, konstitusiyanın qəbul edilməsi əsas idi.

Konstitusiya, dövlətin hüquqi təməlini təşkil edən, dövlətin idarəetmə strukturunu, vətəndaşların hüquq və vəzifələrini, hüquqi təminatlarını müəyyən edən prinsiplər toplusudur. Azərbaycan Respublikasının Konstitusiya quruluşunun tarixi əsasən SSRİ-nin tərkibində olduğu dövrə düşür. Azərbaycanın birinci Konstitusiyası 1921-ci ilin mayın 19-da çağırılan qurultayda qəbul edilmişdir. Azərbaycan SSR Konstitusiyası 1921-ci il SSRİ-nin Konstitusiyasına uyğunlaşdırılmış və yeni redaksiyası 1925-ci il martın 14-də qəbul olunmuşdur. Azərbaycan SSR-in 1978-ci ilin aprelin 21-də qəbul edilmiş son Konstitusiyası da əvvəlki Konstitusiyalar kimi SSRİ Konstitusiyasına uyğunlaşdırılmış şəkildə idi. Lakin qəbul olunan bu konstitusiyalarda bir sıra məhdudiyyətlər var idi. Azərbaycan 1991-ci il 18 Oktyabr tarixində öz müstəqilliyini bərpa etdi. Artıq müstəqil olan Azərbaycanın qarşısında duran əsas məqsədlərdən biri yeni konstitusiyanın qəbul edilməsi və bir sıra məsələlərin həllinin tapılması idi. Yeni konstitusiyanın hazırlanmasında Ulu Öndər Heydər Əliyevin böyük rolu danılmaz faktlardan biri idi. Ümummilli Lider Heydər Əliyev başda olmaqla xüsusi komissiya yaradılmış və hazırlanan layihə ümumxalq müzakirəsinə təqdim edilmişdir. Beləliklə, 1995-ci il noyabrın 12-də ümumxalq referendumu ilə Müstəqil Azərbaycanın ilk Konstitusiyası qəbul olunmuş, 27 noyabr tarixində isə qüvvəyə minmişdir. 1995-ci ildə qəbul olunmuş konstitusiya qüvvəyə mindikdən sonra 1978-ci il 21 aprel konstitusiya qüvvədən düşmüşdür. Azərbaycan Respublikasının yeni Konstitusiyası 5 bölmədən, 12 fəsildən və 158 maddədən ibarətdir. Konstitusiya, həmçinin dövlətin daxili işlərində qanunların tətbiqini və sosial ədalətin təmin edilməsini, həm də beynəlxalq hüquqla uyğunluğunu təmin edir.

Hələ XX əsrin 80-90-cı illərində baş verən haqsızlıqlar, zorakılıqların qarşısının alınması




məqsədilə Azərbaycanda bir sıra xalq çıxışları və hərəkatlar baş tuturdu. Bütün bunların baş verməsində əsas məqsəd Azərbaycanın öz müstəqilliyini geri almaq istəməsi və ermənilərin əsassız olaraq torpaqlarımızı ələ keçirmək istəyindən döndərməkdən ibarət idi. Çıxışların, hərəkatların nəticəsi olaraq Azərbaycan SSR Konstitusiyasına respublikanın sərhədlərinə yalnız ümumxalq referendumu yolu ilə dəyişiklik etməyin mümkünlüyünü nəzərdə tutan əlavələr edilməsi, suverenlik, vətəndaşlıq və iqtisadi müstəqillik haqqında qanun layihələrinin geniş müzakirəyə verilməsi haqqında qərarlar qəbul edildi. Suverenlik haqqında qanun layihəsinin ümumxalq müzakirəsi keçirildi. Qanuna respublikada Azərbaycan SSR qanunlarının ittifaq qanunlarından üstünlüyü və onun SSRİ tərkibindən çıxmaq reqlamenti haqqında mühüm bəndlər daxil edildi. Ali Sovetin sentyabrın 23-də öz işini davam etdirən növbədənkənar sessiyası "Azərbaycan SSR-in suverenliyi haqqında" Konstitusiya qanununu qəbul etdi. Suverenliyin qorunması üçün konstitusiyanın əsas prinsipləri hər bir dövlətin müstəqilliyi və beynəlxalq mövqeyini gücləndirir. Suverenlik, dövlətin heç bir xarici qüvvə və ya orqan tərəfindən tabe edilmədən öz daxilində sərbəst qərarlar vermə hüququdur. Suverenlik dövlətin müstəqilliyini, ərazi bütövlüyünü və siyasi hüququnu qorumağa imkan verir. Təəssüflər olsun ki, I Qarabağ müharibəsi dövründə Azərbaycanın 20% torpaqları ermənilər tərəfindən işğal olundu. Bu hadisə tariximizə qan yaddaşı adı altında daxil oldu. Ermənilər tərəfindən zorla qoparılan Azərbaycan torpaqlarında maddi-mədəniyyət nümunələrinə olduqca zərərlər vurulmuş və dağıdılmışdır. Həmin torpaqlarda işğal müddətində heç bir dinc quruculuq işləri görülməmişdir. Ümummilli Lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin yeritdiyi uğurlu siyasət nəticəsində 2020-ci il sentyabr ayının 27-də başlanan II Qarabağ müharibəsinin nəticəsi olaraq işğal olunan torpaqlarımızın bir hissəsi işğalçılardan azad olundu. 2023-cü ildə 19-20 sentyabr tarixində Azərbaycan ordusu tərəfindən aparılan 23 saatlıq antiterror əməliyyatı nəticəsində Ağdərə, Xankəndi, Xocalı, Xocavənd rayonları da düşmənlərdən azad olundu. Bununla da Azərbaycan öz suverenliyini yenidən bərpa etdi. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin verdiyi Fərmana əsasən hər il sentyabrın 20-si “Suverenlik Günü” olaraq qeyd olunmağa başlandı.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2025-ci ili “Konstitusiya və Suverenlik İli” elan etməsi yalnız tarixi bir xatırlatma deyil, eyni zamanda gələcək nəsillərə hüquqi düşüncə, dövlətçilik mədəniyyəti və vətəndaş məsuliyyəti aşılayan bir çağırışdır. Bu il çərçivəsində hər bir gəncin, xüsusən də tələbə və ziyalı təbəqəsinin üzərinə düşən vəzifə, Konstitusiyamızın mahiyyətini dərindən dərk etmək, onu qorumaq və təbliğ etməkdir. Çünki dövlətin gələcəyi hüquqa, hüququn dayağı isə xalqın milli birliyinə söykənir.

**Aytən Hüseynova**
**Naxçıvan Dövlət Universitetinin I kurs magistrantı**

# Əmək hüquqlarımız və müasir çağırışlar

Əmək hüquqlarını sadəcə hər hansı qanunlar toplusu kimi deyil, cəmiyyətin hər bir üzvünün rifahını təmin edən, eyni zamanda insanların hüquqlarını dərk etməsi, qoruması və vəzifələrini anlamasında yaxından dəstək olan fundamental bir sistem kimi qiymətləndirə bilərik. Bu hüquqlar işçilərin firavan həyat yaşaması, iş şəraitinin ədalətli olması və gələcək üçün güvənli bir iş mühiti yaradılması baxımından çox əhəmiyyətlidir. Şəxsi müşahidələrimə əsasən deyə bilərəm ki, əmək hüququ sadəcə işçilərin maaşı və iş saatları ilə məhdudlaşmır. Bu sahə, həmçinin cəmiyyətdə sosial ədalət və iqtisadi inkişafın ayrılmaz hissəsi, əsas hərəkətverici qüvvəsidir.

Fikrimcə, işçilər, xüsusilə gənc əməkdaşlar iş yerində təhlükəsiz şəraitin yaradılması, ədalətli əməkhaqqı, ədalətli iş saatları və istirahət hüququna malik olmalıdırlar. Təəssüf ki, müxtəlif sahələrdə çalışan bəzi işçilər hələ də öz hüquqlarından xəbərdar deyil. Məsələn; Qeyri-qanuni iş şəraitində çalışan, əmək hüquqlarını bilməyən gənc işçilər hüquqları ilə bağlı tez-tez çətinliklərlə üzləşirlər. Normal olaraq, bu problemlər yalnız şəxsi səviyyədə deyil, bir cəmiyyətin sosial balansına mənfi təsir edir. Bu kimi problemlərin həlli üçün maarifləndirmə işlərinin aparılması zərurət təşkil edir. Əmək hüquqları istər dövlət, istər özəl sektor, istərsə də kiçik bizneslərdə çalışan hər kəs üçün eyni dərəcədə vacibdir desək, yanılmarıq.

Onu da qeyd edək ki, Əmək bazarında baş verən dəyişikliklər bəzi problemlərə səbəb olur. Bu kateqoriyaya aid işçilərin sosial müdafiəsi daha zəif olur və onlar pensiya, tibbi sığorta kimi imkanlardan kənarda qalırlar.

Digər tərəfdən müasir dövrdə avtomatlaşdırma və süni intellektin yayılması bəzi peşələri risk altında qoyur. İşçilərin və qanunvericiliyin bu yeni dövrə adaptasiya olunması üçün daimi inkişaf prinsipinin təşviq edilməsi olduqca vacibdir. İnsanlar üçün lazım olan hüquqi məlumatları, hüquqi maarifləndirməni bir sıra sosial media platformaları, web saytlar vasitəsilə təqdim etmək əlçatan və hərəkətverici qüvvə olar. Əmək hüquqlarını yaxşı mənimsəyən, onların vacibliyini dərk edən şəxslərin uğurlu addımlarını sağlam gələcəyə, daimi inkişafa təsir edən əsas faktor kimi qiymətləndirə bilərik. Bu vasitə ilə gənc kadrlar da daimi inkişafda daha məqsədyönlü addımlar atar, əmək fəaliyyətlərində hüquqi çərçivələri bilməklə özlərini müxtəlif təhlükələrdən və risklərdən qoruya bilərlər.

Ölkəmizdə də Əmək hüquqları Əmək Məcəlləsi və digər normativ-hüquqi aktlarla tənzimlənir. Güclü Əmək qanunlarını tətbiq etməyi, əmək hüquqlarını müdafiəni bacaran işçilər müasir cəmiyyətin davamlı inkişafı üçün əsas amildir. Eyni zamanda işçilərin hüquqlarının qorunması təkcə dövlətin deyil, hər bir vətəndaşın individual öhdəliyidir, deyə bilərəm. Bu yolla ölkəmizdə həm hüquqi savadlılıq artar, həm də şəxslər qanunların tənzimlənməsində və sosial problemlərin həllində öz mövqelərini özgüvənli şəkildə ifadə edərlər. Hər kəs bu məsələyə həssas yanaşarsa, yaranan sosial, iqtisadi, siyasi, ictimai problemlərin həlli intensiv, ölkə iqtisadiyyatı isə daha dayanıqlı olar. Son olaraq qeyd edim ki, Əmək hüquqlarının qorunması sağlam gələcək üçün güclü bir hüquqi sistemin təməlini təşkil edir.

**Niftəliyeva Leyla,**
**İsmayılova Firuzə**
**Sosial iş ixtisası üzrə II kurs tələbələri**

*"Konstitusiya və suverenlik ili"*

# Konstitusion vəzifələrimiz və vətəndaşlıq borcumuz

Hər bir insan vətəndaşı olduğu ölkə qarşısında müəyyən vəzifə və mənəvi məsuliyyət daşıyır. Bu isə vətəndaşlıq borcu və ya vətəndaşların konstitusion vəzifələri ilə bağlıdır. Cəmiyyətdə hər bir şəxsin davranışı və fəaliyyəti isə onun əməllərində ifadə olunur. Elə əməllər ki, bunlar nə cəmiyyətə, nə də şəxsiyyətin mənafeyinə zərər vurmasın. Yəni hüquqauyğun davranış hesab edilsin. Hüquqauyğun davranış isə dövlətin hüquq normalarında nəzərdə tutulan ictimai və şəxsi mənafelərin ödənilməsinə yönəlmiş sosial-faydalı hərəkətdir.

Azərbaycan Respublikası Konstitusiyasının 4-cü fəsli vətəndaşların əsas vəzifələrinə həsr olunub. Əsas Qanunumuzda qeyd olunur ki, dövlət və cəmiyyət qarşısında hər bir şəxs onun hüquq və azadlıqlarından bilavasitə irəli gələn vəzifələr daşıyır. Hər kəsin üzərinə vəzifələr yalnız Azərbaycan Respublikasının Konstitusiyası ilə və ya qanunla qoyula bilər. Hər bir şəxs Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına əməl etməli, başqa şəxslərin hüquq və azadlıqlarına hörmət bəsləməli, qanunla müəyyən edilmiş digər vəzifələri yerinə yetirməlidir. Hər bir şəxs həm dövlət qarşısında, həm də cəmiyyət qarşısında müəyyən öhdəliklər daşıyır. Cəmiyyətin mütəşəkkilliyi isə ümumi maraqlarla şəxsi maraqların harmoniyasından yaranır. Belə maraqların ahəngdarlığı ictimai həyatın sabitliyini və inkişafını təmin edir. Çünki hər birimiz yaşadığımız cəmiyyətin bir üzvü kimi müəyyən öhdəliklər daşıyırıq. Şəxsi hüquq və vəzifələr bir-biri ilə sıx bağlı olan və hüquq münasibətlərinin məzmununu müəyyən edən ən vacib ünsürlərdən biridir. Ulu Öndər Heydər Əliyev deyirdi: **"Heç bir vətəndaş ictimai-siyasi həyata biganə qalmamalıdır".** Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürk isə qeyd edirdi ki, **"Vətənini ən çox sevən vəzifəsini ən yaxşı yerinə yetirəndir".**

Vətən millətin və xalqın yer üzərindəki ünvanıdır. Vətənə sədaqət isə müqəddəsdir. Ulu Öndər Heydər Əliyev qeyd edirdi ki, **"Gərək nəbzin Vətənin nəbzi ilə vursun".** Bu müqəddəslik isə həm mənəvi borc, həm də konstitusion vəzifədir. Vəzifəyə seçilmə və ya təyinat yolu ilə qanunvericilik, icra və ya məhkəmə hakimiyyəti orqanlarında işləyən şəxslər öz vəzifələrini dürüst və layiqincə yerinə yetirməməyə görə məsuliyyət daşıyırlar və qanunla müəyyən edilmiş hallarda and içirlər. Vətənə sədaqət vəzifəsindən və kimliyindən asılı olmayaq, hər bir vətəndaşın müqəddəs borcudur. Əxlaqi baxımdan isə Vətənə sədaqət hər bir şəxsdə vətənpərvərlik hisslərinin olması ilə müəyyən edilir. Vətənə sədaqət vətənpərvərlikdən başlayır. Vətənə sədaqət təkcə vətəndaşların "Sədaqət andı" ilə məhdudlaşmır. Ümummilli Liderimiz deyirdi ki, **"Vətənpərvərlik insanın daxilindəki duyğulardır. Əgər bunlar yoxdursa, o insan mənəviyyatsızdır".**

Dövlət rəmzləri hər bir dövlətin varlığını təcəssüm etdirən əsas amildir. Ulu Öndər qeyd edirdi: **"Xalqımız üçün qürur hissini yaradan, iftixar hissini verən odur ki, o, artıq azad yaşayır, öz taleyinin sahibidir və Azərbaycan xalqının dünya xalqları içərisində imzası var".** Bəli, xalqın imzası onun dövlət rəmzlərində ifadəsidir. Azərbaycan Respublikasının Dövlət Bayrağı Azərbaycan dövlətinin suverenliyinin rəmzidir. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli Dövlət Bayrağı ilk dəfə 1918-ci il noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının binası üzərində qaldırılıb. 1920-ci il aprelin 27-nə - Azərbaycan Xalq Cümhuriyyətinin süqutuna qədər dövlət bayrağı statusuna malik olan bu bayraq Sovet Rusiyasının qoşunlarının Azərbaycanı işğal etməsi nəticəsində 1920-ci il mayın 3-də Azərbaycan parlamentinin binası üzərindən endirilib. Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan həmin bayraq 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə keçirilən sessiyada Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi təsdiq edilib. Eyni zamanda Naxçıvan Muxtar Respublikası Ali Məclisi bu bayrağın Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması barədə Azərbaycan SSR Ali Soveti qarşısında vəsatət qaldırıb. 1991-ci il fevralın 5-də Azərbaycan Respublikasının Ali Soveti həmin vəsatətə baxıb və bu bayrağın yenidən Azərbaycanın Dövlət Bayrağı kimi qəbul olunması haqqında qərar qəbul edib. Sonralar Ümummilli Lider bu barədə deyirdi: **"Mən belə fikirdəyəm ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qəbul etdiyi qərarlar Azərbaycan Respublikasının işinə çox təsir etdi və Azərbaycan rəhbərliyi bir neçə belə qərarın qəbul edilməsində məcburiyyət qarşısında qaldı. Naxçıvan Muxtar Respublikasının üzərində bu bayraq 1990-cı il noyabrın 17-də, Azərbaycan Respublikasında isə 1991-ci il fevralın 5-də dalğalandı".** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2009-cu il noyabrın 17-də imzaladığı Sərəncamla hər il noyabrın 9-u ölkədə Dövlət Bayrağı Günü kimi qeyd edilir. 2010-cu il sentyabrın 1-də Bakıda Dövlət Bayrağı Meydanının təntənəli açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Dövlət Bayrağının xüsusi əhəmiyyətini vurğulayaraq demişdir: **"Bizim bayrağımız qürur mənbəyimizdir. Bizim bayrağımız canımızdır, ürəyimizdir. Bu gün Azərbaycanın hər bir yerində Dövlət Bayrağı dalğalanır. Azərbaycan ərazi bütövlüyünü bərpa edəndən sonra milli Dövlət Bayrağımız bu gün hələ də işğal altında olan torpaqlarda qaldırılacaqdır. Bizim bayrağımız Dağlıq Qarabağda, Xankəndidə, Şuşada dalğalanacaqdır. O günü biz hər an öz işimizlə yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq. Eşq olsun, Azərbaycan Bayrağına!".** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2023-cü il oktyabrın 15-də Xankəndi şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltdıqdan sonra çıxış edərkən söyləmişdir: **"Mən qürur hissi ilə Azərbaycan Bayrağını bu gün qaldırmışam və doğma xalqıma bir daha demək istəyirəm ki, biz bu Qələbəyə layiqik. Azərbaycan xalqı bu Qələbəni öz qanı, canı bahasına əldə etmişdir. Bu gün burada qaldırdığım Bayraq burada əbədi dalğalanacaq və biz burada əbədi yaşayacağıq".** Ölkə Prezidentinin Sərəncamı ilə 2010-cu ildən etibarən hər il noyabr ayının 9-u Azərbaycanda Dövlət Bayrağı Günü kimi qeyd olunur.

Azərbaycan Respublikasının Dövlət Gerbi Azərbaycan dövlətinin müstəqilliyinin rəmzidir. Müasir Dövlət Gerbi Azərbaycan Xalq Cümhuriyyəti dövründə yaradılmış gerb layihəsinin müəyyən dəyişikliklər edilmiş formasıdır. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti 1920-ci il yanvarın 30-da Dövlət Gerbi haqqında müsabiqə elan etmiş və müsabiqədən keçəcək gerb nümunəsinin həmin il mayın 28-də qəbul ediləcəyi haqqında qərar çıxarmışdır. Lakin 1920-ci il aprelin 28-də Azərbaycan Xalq Cümhuriyyətinin süqutu nəticəsində Dövlət Gerbi haqqında qərarın qəbulu mümkün olmamışdır. 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Dövlət Gerbi ilə bağlı məsələni müzakirə edərək, Azərbaycan SSR Ali Soveti qarşısında Azərbaycanın Dövlət Gerbinin hazırlanması üçün yeni müsabiqənin elan olunması haq-



qında vəsatət qaldırmışdır. 1993-cü il yanvarın 19-da Konstitusiya Qanunu ilə Azərbaycan Respublikasının Dövlət Gerbi kimi təsdiq edilmişdir. 2018-ci il noyabrın 2-də "Azərbaycan Respublikası Dövlət Gerbinin təsvirinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunu qəbul edilmişdir.

Azərbaycan Respublikasının Dövlət Himni Azərbaycan dövlətinin, onun müstəqilliyinin və birliyinin müqəddəs rəmzidir. 1920-ci il yanvarın 30-da Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurası Cümhuriyyətin milli himninin hazırlanması haqqında qərar qəbul etdi və bu məqsədlə Xalq Maarif Nazirliyi tərəfindən müsabiqə elan olundu. Lakin 1920-ci il aprelin 28-də Xalq Cümhuriyyətinin süqutu Azərbaycanın milli himnini qəbul etməyə imkan vermədi. 1992-ci il mayın 27-də Azərbaycan Respublikasının Milli Məclisi "Azərbaycan Respublikasının Dövlət Himni haqqında" Qanun qəbul etdi. Azərbaycan Respublikasının 1993-cü il 2 mart tarixli Qanunu ilə "Azərbaycan Respublikasının Dövlət Himni haqqında Əsasnamə" təsdiqlənmişdir. "Azərbaycan Respublikası Dövlət Himninin musiqisinin və mətninin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 2 noyabr tarixli Konstitusiya Qanununa uyğun olaraq musiqisi Üzeyir Hacıbəyliyə, sözləri Əhməd Cavada məxsus olan "Azərbaycan marşı" Azərbaycan Respublikasının Dövlət Himni kimi təsdiq edildi. Ümummilli Lider Heydər Əliyev demişdir: **"Biz öz himnimizi, bayrağımızı özümüz qədər sevməliyik. Çünki bu, bizim Vətənimizə, millətimizə, dövlətimizə olan sədaqət, sevgi və məhəbbətin rəmzidir!".**

Konstitusiyada qeyd olunur ki, Vətəni müdafiə hər bir vətəndaşın borcudur. Qanunla müəyyən edilmiş qaydada vətəndaşlar hərbi xidmət keçirlər. Vətənin müdafiəsində iştirak etmək və hərbi xidmət hər bir vətəndaşın hüquqi vəzifəsi olmaqla yanaşı, həm də onun müqəddəs borcudur. Ulu Öndər qeyd edirdi ki, **"Xalqın, Vətənin taleyi hər bir insanın taleyinə çevrilməlidir".** Hər bir Vətən övladı bilir ki, Vətən ancaq üzərində gəzdiyimiz, yaşadığımız torpaq parçası deyil. Vətən uğrunda nə qədər qurbanlar verilib. Özünün bayrağı, müstəqilliyi, suverenliyi, milli dövlət himni, sərhədləri olan torpağa Vətən deyilir. **"Əgər hər hansı ölkənin xalqları öz hüquqlarını anlayır və onları qoruya bilirsə, o zaman ən kiçik dövlət belə ən böyük məmləkət qədər güclü olar",** - deyirdi Ulu Öndər. Vətən azadlıqdır. Torpağın Vətən olması üçün düşmənlərlə mübarizə aparmaq, onun üzərində zəfər qazanmaq lazımdır. Xalq yalnız öz Vətənini qorumaqla gələcəyinə təminat verə bilər. Vətənə olan sevgimiz bizi ucaldır. Vətənin müdafiəsi bizim üçün inanc, iman olmalıdır. 44 günlük Vətən müharibəsində isə xalqımız Ali Baş Komandanın rəhbərliyi altında müqəddəs Vətən torpaqlarını işğaldan azad etdi. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixinə qızıl hərflərlə Zəfər günü kimi yazıldı. Uğrunda minlərlə şəhid verdiyimiz bu torpağın mənəvi dəyəri çox yüksəkdir. Vətən bizə əcdadlarımızın ən dəyərli əmanətidir. Onu qorumaq isə hər birimizin borcudur. Şair Məmməd Arazın poetik dili ilə desək: Vətən daşı olmayandan, olmaz ölkə vətəndaşı.

**"Mədəniyyət bəşəriyyətin topladığı ən yaxşı nümunələrlə xalqları zənginləşdirir",-** deyirdi Ulu Öndər. Tarix və mədəniyyət abidələrini qorumaq isə hər bir şəxsin borcudur. Çünki tariximizin hər səhifəsi bizim üçün əzizdir. Tarix və mədəniyyət abidələrinin qorunması, öyrənilməsi və ondan səmərəli istifadə edilməsi ilə bağlı münasibətlər isə müfaviq qanunvericilik aktları ilə tənzimlənir. Lakin tarix və mədəniyyət abidələrini qorumaq təkcə qanunvericilik aktları ilə yox, həm də vətəndaşlıq borcu naminə olmalıdır. Çünki Ulu Öndərin qeyd etdiyi kimi: **"Yüksək mədəniyyətə malik olan xalq həmişə irəli gedəcək, həmişə yaşayacaq, həmişə inkişaf edəcəkdir".**

Ətraf mühitin qorunması hər bir şəxsin borcudur. Ətraf mühiti qorumaq və ona qayğı ilə yanaşmaq vəzifəsi həm hüquqi, həm də əxlaqi dəyərlərlə ölçülür. Hər bir şəxs öz həyat fəaliyyəti prosesində bu və ya digər formada təbiətlə, ətraf mühitlə təmasda olur. Bu görə də hər kəs istər məişətdə, istərsə də istirahət zamanı qanunvericiliklə müəyyən edilmiş vəzifəsini yerinə yetirməlidir. Ətraf mühiti qorumaq vəzifəsi əmək fəaliyyəti nəticəsində təbiətdən istifadə edən və ətraf mühitə təsir edə biləcək hər bir şəxsin üzərinə düşür. Təbiəti qorumaq üçün məcburiyyətdən öncə təbiətə sevgi lazımdır. Bəli, təbiət düşünür və düşündürür. Təbiət haqqında yalnız hər il 5 iyun – Ümumdünya ətraf mühitin mühafizəsi günündə yox, ilin bütün günlərində düşünməliyik. Hər bir şəxsin ətraf mühiti qorumaq və ona qayğı ilə yanaşmaq vəzifəsi həm hüquqi, həm də əxlaqi dəyərlərlə ölçülür. Ətraf mühiti qorumaq və ona qayğı ilıə yanaşmaq cəmiyyətin hər bir üzvünün mənəvi borcudur. Ulu Öndər Heydər Əliyevin "Bakını yaşıllıqlar diyarına çevirək" təşəbbüsü ilə köhnə Bakıda yeni bağlar, xiyabanlar, yaşıllıq zonaları salınmışdı. Ulu Öndər bu prosesin icrası məsələsinə məntiqi yanaşaraq qeyd etmişdi: **"Bakı şəhərində 1 milyon 261 min adam yaşayır. Əgər şəhərin hər bir sakini bir neçə il ərzində ikicə ağac əkib yetişdirsə, Bakının ətrafında neçə-neçə park və meşə salınar".**

Ümummilli Lider Heydər Əliyevin ölkənin ekoloji vəziyyətinin yaxşılaşdırılması, ağacların əkilməsi, xüsusən də Bakıda və Abşeron yarımadasında yaşıllıq zolaqların genişləndirilməsi üçün verdiyi tapşırıqlar, su ehtiyatlarının çirklənməsinin qarşısının alınması, ölkənin su təchizatı, inkişafı və dirçəlişi istiqamətində gördüyü tədbirlər onun layiqli davamçısı ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında bu gün də uğurla davam etdirilir. 15 dekabr 2023-cü ildə BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının ölkəmizdə keçirilməsi ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə keçirilən müşavirədə cənab Prezident bildirmişdir: **"Mən şübhə etmirəm ki, COP29 beynəlxalq konfransını da biz yüksək səviyyədə keçirəcəyik, bu, ölkəmizin, xalqımızın növbəti böyük uğuru olacaq. Eyni zamanda, Azərbaycan neft-qaz ölkəsi kimi bu sahədə də özünü göstərəcəkdir və dünyada hər kəs bir daha görəcək ki, bizim gündəliyimiz yaşıl enerji ilə bağlıdır. Yaşıl enerji növlərinin yaradılması və yaşıl enerjinin dünya bazarlarına nəqli hazırda bizim enerji siyasətimizin prioritetidir. Bu, reallıqdır və bütün dünya bunu bir daha görəcək".**

Biz Konstitusiya ilə hər bir şəxsin üzərinə qoyulan vəzifələr barədə qeyd etdik. Bu vəzifələr hər birimiz üçün vətəndaşlıq borcudur. Heç kəs Azərbaycan Respublikasının Konstitusiyasına və ya qanunlarına zidd vəzifələrin icrasına məcbur edilə bilməz. Konstitusiyanın və qanunların pozulması, o cümlədən Konstitusiyada və qanunlarda nəzərdə tutulan hüquqlardan sui-istifadə və ya vəzifələrin yerinə yetirilməməsi qanunla müəyyən edilən məsuliyyətə səbəb olur. Yəni hüquqi vəzifələr hüquq və azadalıqların məhdudlaşdırılmasını tələb edir. Bu məhdudlaşdırmalar isə başqa şəxslərin hüquq və azadlıqlarını lazımi şəkildə qəbul etmək və ona hörmətlə yanaşmaqda ifadə olunur.

Hər bir şəxs isə cəmiyyət qarşısında öz məsuliyyətini dərk edərək vətəndaşı olduğu dövlətin əbədiliyi, mənsub olduğu xalqın tərəqqisi naminə öz vətəndaşlıq borcunu layiqincə yerinə yetirməlidir. Çünki bu əminliyi və inamı müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı Ulu Öndər vermişdir: "Mən inanıram, əminəm ki, biz müstəqilliyinin geniş yoluna çıxacağıq və Azərbaycan müstəqil dövlət kimi yaşayacaq, Azərbaycanın dövlət müstəqilliyi əbədi, dönməz olacaq və bizim müstəqilliyimizi, milli azadlığımızı heç kəs heç bir yolla sarsıda bilməyəcəkdir".

**Faiq Səfərov**
**Naxçıvan Muxtar Respublikası Prokurorluğunun şöbə rəisi, baş ədliyyə müşaviri**

# Muzeylərdə mədəni irsin qorunmasında beynəlxalq əməkdaşlıq

Qlobal mədəni irs, insanlıq tarixinin müxtəlif dövrlərini, mədəniyyətlərini və ənənələrini təmsil edən bir xəzinədir. Bu irs, yalnız bir xalqın və ya regionun mədəniyyətini əks etdirmir, əksinə, bəşəriyyətin ümumi zənginliyini və müxtəlifliyini göstərir. Mədəni irs, tarix boyu insan cəmiyyətlərinin inkişafını, həyat tərzini, inanclarını və yaradıcı qabiliyyətlərini əks etdirən əvəzolunmaz dəyərlərdən ibarətdir. Mədəni irsin qorunması yalnız bir ölkənin və ya millətin məsuliyyəti deyil, qlobal bir öhdəlikdir. Qlobal mədəni irsin qorunması, insanlığın tarixə və mədəniyyətə olan hörmətinin göstəricisidir. Hər bir irs nümunəsi, bir xalqın kimliyini və dünyagörüşünü əks etdirir, bu isə digər xalqlar tərəfindən anlaşılan və qiymətləndirilən dəyərlərə çevrilir. Buna görə də mədəni irsin qorunması, qarşılıqlı anlaşma və hörmətin inkişafına, həmçinin sülhün möhkəmləndirilməsinə böyük təsir göstərir. Mədəniyyətlər arasında əlaqələrin güclənməsi, müxtəlif xalqların bir-birini daha yaxşı tanımasına və öz aralarındakı fərqlilikləri qiymətləndirməsinə imkan yaradır. Bundan əlavə, qlobal mədəni irs, gələcək nəsillər üçün də vacibdir. Bu irs yalnız bir xalqın keçmişini deyil, həm də onun gələcəyini formalaşdıran təməl dəyərləri saxlayır. Təhsil və öyrənmə vasitəsilə gənc nəslə tarixə, sənətə və ənənələrə dair məlumatlar təqdim edilir, onların öz mədəniyyətlərinə və dünyadakı digər mədəniyyətlərə olan münasibətləri inkişaf etdirilir. Mədəni irs həm də sosial identiklik və kollektiv yaddaş baxımından əhəmiyyətlidir, çünki insanlar öz tarixi və mədəni kökləri ilə əlaqə quraraq, daha sağlam və davamlı bir cəmiyyət yaradırlar. Qlobal mədəni irs, həmçinin iqtisadi baxımdan da vacibdir. Mədəni turizm, tarix və mədəniyyətə olan marağı artırır və bu, yerli iqtisadiyyata müsbət təsir göstərir. Muzeylər, abidələr və digər mədəniyyət obyektləri, dünya miqyasında turistlər tərəfindən ziyarət edilir və bu həm yerli icmaların rifahına, həm də mədəniyyətlərin təbliğinə töhfə verir. Eyni zamanda mədəni irsə qoyulan sərmayələr, bərpa işləri və qoruma fəaliyyətləri yerli əmək bazarını da dəstəkləyir, yeni iş yerləri yaradılır.

Muzeylər və mədəni irs təşkilatları arasında əməkdaşlıq

Muzeylər və mədəni irs təşkilatları arasında əməkdaşlıq, mədəni irsin qorunması və təbliği sahəsində əhəmiyyətli bir rol oynayır. Muzeylər, yalnız mədəni irsi qorumaqla qalmır, həm də onu geniş ictimaiyyətə təqdim edərək, bu irsin gələcək nəsillərə ötürülməsini təmin edir. Mədəni irs təşkilatları isə muzeylərə təlimat verən, dəstək göstərən və resurslar təqdim edən qurumlardır. Bu əməkdaşlıq hər iki tərəfin təcrübə və biliklərini paylaşmasına imkan yaradır, müasir qoruma və bərpa metodları barədə məlumat mübadiləsi aparır. Birgə layihələr və sərgilər təşkil etmək də muzeylər və mədəni irs təşkilatları arasındakı əməkdaşlığın vacib



aspektlərindəndir. Bu fəaliyyətlər müxtəlif ölkələr və mədəniyyətlər arasında əlaqə yaradır, müxtəlif irs nümunələrini bir araya gətirərək geniş auditoriyaya təqdim edir. Eyni zamanda belə əməkdaşlıqlar beynəlxalq səviyyədə diqqət çəkmək və müasir dövrün mədəni irs məsələlərini daha geniş müstəvidə müzakirə etmək baxımından əhəmiyyətlidir. Muzeylər və mədəni irs təşkilatları arasındakı əlaqələr, həmçinin qanunvericilik sahəsində də mühüm əhəmiyyət daşıyır. Birgə fəaliyyətlər, mədəni əşyaların qanunsuz dövriyyəsinin qarşısını almaq və beynəlxalq standartların tətbiqini təmin etmək məqsədini güdür. UNESCO və digər beynəlxalq təşkilatlar muzeylərə və mədəni irs təşkilatlarına bu sahədə düzgün istiqamət verir, müvafiq resurslarla təmin edir. Bərpa və qoruma işlərində bu əməkdaşlıq çox önəmlidir. Mədəni irs təşkilatları muzeylərə qiymətli əşyaların qorunması və təmir edilməsi üçün texniki dəstək göstərir. Bərpa işlərində yeni texnologiyaların tətbiqi, konservasiya və bərpa sahəsindəki mütəxəssislərin bilik və bacarıqlarının artırılması həm yerli, həm də bey-nəlxalq səviyyədə faydalıdır. Məsələn, 3D skanerləmə və digər müasir bərpa texnikaları vasitəsilə mədəni əşyaların daha səmərəli qorunması və bərpası həyata keçirilir. Təhsil və maarifləndirmə də muzeylər və mədəni irs təşkilatları arasındakı əməkdaşlığın mühüm bir hissəsidir. Bu əməkdaşlıq vasitəsilə ictimaiyyətə mədəni irsin qorunmasının vacibliyi barədə məlumat verilir, təhsil proqramları təşkil olunur, sərgilər və seminarlar keçirilir. Belə fəaliyyətlər geniş auditoriyaya mədəni irsin qorunmasının əhəmiyyətini anlatmağa kömək edir, cəmiyyətdə kollektiv şüurun inkişafına zəmin yaradır. Beləliklə, muzeylər və mədəni irs təşkilatları arasındakı əməkdaşlıq, mədəni irsin qorunması, bərpası və təbliği sahəsində mühüm rol oynayır. Bu əməkdaşlıq həm yerli, həm də qlobal səviyyədə mədəni irsin gələcək nəsillərə ötürülməsini təmin edir, müxtəlif xalqlar arasında qarşılıqlı anlayış və hörmətin güclənməsinə kömək edir.

Muzeylər və mədəni irs sahəsində yeni təcrübələr və metodologiyalar.

Bu sahənin inkişafını sürətləndirərək, mədəniyyətin qorunması və təbliğində daha effektiv yanaşmaların ortaya çıxmasına səbəb olub. Son illərdə texnologiyanın sürətli inkişafı, müxtəlif innovativ yanaşmaların tətbiqini mümkün edib, bu da muzeylərə və mədəni irs təşkilatlarına daha geniş imkanlar təqdim edir. Muzeylərdə və mədəni irs sahəsində ən çox istifadə edilən yeni metodologiyalar, digitalizasiyanın tətbiqindən başlayır. Mədəni irs nümunələrinin rəqəmsal şəkildə qorunması, bu əsərlərin gələcək nəsillərə ötürülməsi və dünya miqyasında asanlıqla əldə edilməsini təmin edir. Bu texnologiyalar, həmçinin mədəni əşyaların qorunmasına da kömək edir, çünki rəqəmsal surətlərin yaradılması orijinal əsərlərin fiziki ziyan görməsinin qarşısını alır. Bundan başqa, muzeylərdə kollektiv yaddaş və ictimai iştirakçılıq ön planda tutulur. Bu sahədə yeni yanaşmalar, sərgilərin və layihələrin daha inklüziv və əhatəli olmasını təmin edir. Muzeylər, cəmiyyətin müxtəlif təbəqələrinin və mədəniyyətlərin nümayəndələrini fəaliyyətlərinə cəlb edərək, daha geniş perspektivlər təqdim edirlər. Bu cür tədbirlər həm də cəmiyyətin mədəni irsə olan marağını artırır, onu qorumağa daha çox təşviq edir. Bir başqa müasir yanaşma isə mədəni irsin qeyri-maddi aspektlərinin qorunmasıdır. Mədəni irsin yalnız fiziki əşyalarla məhdudlaşmadığı nəzərə alınaraq, müxtəlif folklor ənənələri, musiqi, rəqs və dillər kimi qeyri-maddi irsin qorunması üçün xüsusi metodologiyalar inkişaf etdirilib. Bu sahədə istifadə edilən metodlar, mədəni irsin daha geniş anlayışını təbliğ etməyə və onu qorumağa yönəlmişdir. Yeni təcrübələr və metodologiyalar həm də müasir dövrün mədəni irsin qorunması sahəsindəki qarşıya qoyulmuş çətinliklərlə mübarizə aparmağa imkan verir. Klimatik dəyişikliklər, təbii fəlakətlər və müharibələr kimi təhdidlərə qarşı daha güclü və çevik qoruma strategiyaları formalaşdırılır. Bu sahədə tətbiq olunan müasir yanaşmalar, mədəni irsin hər cür təhdidlərdən qorunması üçün yeni üsullar təklif edir. Ümumilikdə muzeylər və mədəni irs sahəsindəki yeni təcrübələr və metodologiyalar həm bərpa, həm də qoruma sahəsində daha effektiv və innovativ yanaşmalar ortaya qoyur. Bu təcrübələr mədəni irsin gələcək nəsillərə ötürülməsini və onun qorunmasını təmin etmək məqsədini güdür.

**İntiqam Hüseynov**
**Muzey, arxiv işi və abidələrin qorunması ixtisası üzrə II kurs tələbəsi**

## MƏNİM DƏYƏRİM

Əvvəllər çox pessimist idim, öz dəyərimi bilmirdim. Həyat mənim üçün sadəcə bir döyüş meydanı idi. Həyatda hər şey mənə yad görünürdü. İnsanların onların, düşüncələri və tələbləri qarşısında əzilirdim. Bir zamanlar düşündüyüm suallara cavab tapmağa çalışırdım, amma heç bir şəkildə özümü gerçəkdən kəşf edə bilmirdim. Təsəvvür edirdim ki, hər şey xarici təsirlərdən asılıdır, başqalarının gözlərindəki qiymət mənim dəyərimi müəyyən edirdi. Amma zamanla anladım ki, bütün bu illüziyalar yalnız həyatın mənə vermək istədiyi dərslərdir. Öz dəyərimi yalnız başqalarının gözlərində axtarmağa son verdim. Mənə dəyərimi yalnız öz içimdə tapmaq lazımdır.

Bu düşüncələrdə, Sokratın və Aristotelin fikirləri mənim üçün bir işıq olmağa başladı. Sokratın "Özünü tanı" sözü, mənim həyatımı dəyişdirdi. "Özünü tanı" ifadəsi mənim düşüncələrimdə bir pıçıltı kimi başlayaraq, zamanla bir fəlsəfəyə çevrildi. Həqiqətən də, başqalarının nəzərindən dəyər axtarmaq, heç vaxt öz içindəki əsl gücü tapmağa kifayət etməz. Sokratın bu sözü mənə öyrətdi ki, dəyər insanın özündədir, başqalarının təriflərində deyil.

Aristotel də bu fikri genişləndirərək, insanın öz potensialını reallaşdırmağı və doğru həyata çatmağı vurğulayırdı. O, "Xoşbəxtlik, yaxşı həyat sürmək üçün insanın özünü və məqsədini anlaması lazımdır" deyirdi. Aristotelə görə, insanın ən yüksək məqsədi, özünün ən yaxşı versiyasını tapmaqdır.

Bu düşüncələr mənim üçün həqiqi bir dönüş nöqtəsi oldu. Keçmişdə başqalarının gözündəki qiymət mənim öz dəyərimi müəyyən edirdi, amma bu iki böyük filosofun dərsləri mənə göstərdi ki, mənim dəyərim yalnız mənim içimdədir. Özünü tanımaq və məqsədini tapmaq, həyatda əsl xoşbəxtliyə və dəyərlərə gedən yoldur.

Həyatın mənə verdiyi dərslər, mənim öz dəyərimi tapmağıma kömək etdi. Onlar mənə öyrətdilər ki, özümü tanıdıqca, başqalarına görə yaşamaq necə əsassızdır.

Sokrat və Aristotel mənim yolumu işıqlandırdılar. Onların fəlsəfəsi mənim həyatımda bir dönüş nöqtəsi oldu. Artıq öz dəyərimi başqalarının təriflərinə və nəzərlərinə görə ölçmürəm. Mən yalnız öz içimdəki güclə həyatımı qururam. Bu fəlsəfə mənim üçün bir həyat məqsədinə çevrildi. Özünü tanımaq və bu tanıma əsaslanaraq daha yaxşı bir insan olmaq. Bu yolda yalnız öz iç dünyama, öz həqiqətimə və məqsədimə doğru addımlamağa davam edəcəyəm. Həyat mənim içimdə başlayır və mənim içimdə sona çatır.

**Nərmin Əlirza**
**Jurnalistika ixtisası üzrə I kurs tələbəsi**

## İLLƏRƏ SİNƏ GƏRMİŞ SEVGİ

Həmişə olduğu kimi, sıradan bir gün idi. Yenə işdən piyada qayıdırdım. Günəşin batdığı, amma qırmızı şəfəqlərinin ətrafı hələ işıqlandırdığı vaxt idi. Hava da bir az soyuq idi. Düşünə-düşünə gəlirdim. Birdən qarşımda 2 insan gördüm. Bir-birinin qoluna girmiş, yaşlı nənə və baba yol ilə yavaş-yavaş addımlayırdılar. Yol boyu onları izlədim. Tək mən yox, onların ardınca çox insan baxırdı. Bəziləri həsrətlə, bəziləri sevinclə, hətta bəziləri də qısqanclıqla. Çünki illərin ötüb keçməsinə baxmayaraq, onların sevgisi bitməmişdi. Baba həzin-həzin nəsə danışırdı, nənə isə bu hündürboy kişini diqqətlə dinləyir, bir saniyə belə olsun o yana-bu yana baxmırdı. Neçə ildi evli olduqlarını bilmək o qədər maraqlı gəldi ki, mənə, amma onların bu anını pozmaq istəmədim. Arxadan yavaş-yavaş onları izlədim. Axı onlar illərə sinə gərmiş, bir-birlərinin hər anına şahid olmuş, ən əsası sevgilərini heç vaxt itirməyən insanlar idilər. Biz gənclərimizi çox görürük əl-ələ və ya qol-qola. Amma sevgi, təkcə yan-yana olmaq deyil. Sevgini qorumaq və ən əsası ruhən bir-birinə bağlanmaqdı. Baba və nənə də elə bunu etmişdi. Yaşlarının çox olmağına baxmayaraq, hüzur qoxan insanlar ruhlarını bir- birlərinə təslim etmişdilər. Sonsuz sevginin önündə heç nə dayana bilməz. Yaşın, qocalığın, hətta zamanın dayanmadan getməsi belə. Mən bunu nənənin babaya dərin, elə həmin andakı günəş şəfəqləri qədər isti baxışlarında gördüm.



**Zeynəb Seyidli**
**Jurnalistika ixtisası üzrə I kurs tələbəsi**

Onlar ölümə gedəcəyini qabaqcadan bilirdilər. Vətən onlar üçün hər şeydən öncə gəlirdi. Onlar üçün şəhidlik zirvəsi ən uca zirvə idi. Onlar döyüşə gülə-gülə getdilər, vətənlərini nağıllar aləminə bənzədirdilər.

Hər əsgərin yolunu gözləyən bir gözüyaşlısı olur... Bəzisini bir ailəsi, bəzisini isə saçlarına dən düşmüş anası gözləyir. Onların əlləri daima göydə olur: "Allah, əsgərimi salamat mənə gətir!" Bəzən də həyat insana ən acı üzünü göstərir... Amma Allah qatında seçilmiş elə insanlar var ki, onlar ölmür. Cismən bu dünyanı tərk edib, ruhən Yaradana – əbədiyyətə qovuşurlar. Ölümlərin ən şərəflisi də deyirlər buna. Bu, müqəddəs şəhidlik zirvəsidir ki, hər kəsə qismət olmur.

Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə sentyabr ayında başlanan və 44 gün davam edən Vətən müharibəmiz 30 ilə yaxın erməni işğalında olan torpaqlarımızın – Qarabağın azadlığı ilə nəticələndi. Müharibə varsa, şəhid də var, qazi də, itkin də... Nə yazıq ki, bu müharibəmiz də qurbanlarsız ötüşmədi. Azərbaycanın üç minə yaxın qəhrəmanı torpaqlarımızın azadlığı uğrunda şəhidlik zirvəsinə ucaldı, minlərlə igid qazi adını qazandı.

Və bir gün sübh tezdən bir zəng gələr: "Başınız sağ olsun!" Bax, onda sanki bütün ümidlər ölür. Hər tərəf sükuta qərq olur. Danışın, susmayın! Hər dəqiqə istəyirsən ki, bir zəng daha gəlsin, xəbər yalan olsun. Amma içəri bayrağa bükülmüş bir tabut girər... Hələ də inanmırsan. Tabutda yatan sənin balandır. Açıb baxırsan, içində nur üzlü övladın yatır... "Oyan, gəlmisən evinə! Oyan, oğul!" – səs gəlməz.

Rəhimli Baxış İlqar oğlu 19 fevral 1996-cı ildə Bərdə rayonunun Bala Qacar kəndində anadan olmuşdur. 2002-ci ildə Bərdə rayon H. Xəliloğlu adına Qullar kənd tam orta məktəbinə daxil olmuş, 2004-cü ildən təhsilini Bərdə rayon Akademik Zərifə Əliyeva adına məktəb-liseydə davam etdirmişdir. 2013-cü ildə həmin məktəbi bitirmiş, 2014-cü ildə Türkiyənin Kastamonu Universitetinə qəbul olmuş və 2019-cu ildə İqtisadi və İdari Bilimlər fakültəsindən məzun olmuşdur.

Universiteti bitirdikdən sonra, 2019-cu ilin oktyabr ayında hərbi xidmətə yollanmışdır. Hərbi xidməti başa vurandan sonra isə döyüş meydanına getmişdir. Evə gəlib anasına demişdi: "Ana, mən döyüşə gedirəm! Ana, mən dayımın qisasını alacam!"

Ədalət Ədilov 1992-ci ildə Birinci Qarabağ müharibəsində şəhid olmuşdu.

# Bir şəhidin hekayəsi



"Ana, mən nənəmin, sənin, babamın qisasını alacam! Qoymaram onlar bizim torpaqlarımızda kef çəksinlər, nəfəs alsınlar!"

Ananın bir istəyi vardı – oğlunu xoşbəxt görmək, onu evləndirmək.

"Ana, məndən nəvə gözləmə. Qardaşımı evləndir, bəlkə, mən şəhid oldum, gəldim..."

Bu sözləri eşidəndə sanki dünya ananın başına döndü. Başladı muncuq gözlərindən yaş axıtmağa.

"Oğul, bağrımı yaralama! Oğul, məni bala həsrətində qoyma!"

Baxış anasının narahat olduğunu görüb qəhqəhə çəkib güldü:

"Ana, mən səni heç tək qoyaram? Gedib gələcəm, sən məndən nigaran qalma!"

Baxış o qədər həyat dolu idi, gülərüz, hər şeyin yerini bilən biri idi. O, yaşıdlarından çox seçilirdi – ağılı, düşüncəsi, böyük-kiçik yeri bilməsi ilə. Böyüklə böyük, uşaqla uşaq olurdu. Uşaqları çox sevirdi. Uşaqlar da onu sevirdi. Onun sevgi dolu qəlbini hiss edir, qucaqlayıb oynayırdılar.

Və Baxış ailəsi ilə sağollaşıb döyüş meydanına yola düşdü. Vaxt olduqca tez-tez atasını yığır, yaxşı olduğunu xəbər verirdi. Atası ürək xəstəsi idi. O, döyüşə getdiyini nənəsinə deməmişdi, çünki nənəsi narahat olardı. Ona Türkiyəyə getdiyini, universitetə çağırdıqlarını demişdi. Hər dəfə anası ilə danışanda isə düşməndən azad edilən bölgələrin necə gözəl olduğunu söyləyirdi.

Gör nələr sığdırdın bir nakam ömrə,
Hər kəsin yadında şan qala bildin.
Güllələr susduran gülüşünlə sən,
Hər kəsin könlündə kök sala bildin.
Nur üzlü şəhidim, rahat uyu, yat,
Vətənin azaddır, torpağın azad.
Qanınla yağından təmizlədiyin,
Bax, az torpağına bir də yad ayaq!

Baxış çox bacarıqlı topçu idi. Düşmənin bir neçə texnikasını məhv etdiyi üçün "Şərəf" ordeni ilə təltif olunmuşdu. Bu xəbəri sevinərək anasına çatdırmışdı:

"Ana, sənin qəhrəman oğlun var! Fəxr et, ana! Başını dik tut, atama da de! Mən sizi vaxt olduqca yığacam. Xudahafiz, anacan!"

Hər irəli getdikcə onun sevinci yerə-göyə sığmırdı. O, Füzuli və Şuşa uğrunda gedən döyüşlərdə iştirak etmişdi. Və o, noyabrın 9-da Şuşa uğrunda gedən döyüşlərdə, müharibənin bitməsinə saatlar qalmış qəhrəmancasına Şəhidlik zirvəsinə ucaldı...

**Lamiyə Abbasova**
**Jurnalistika ixtisası üzrə I kurs tələbəsi**

# Çadrasını çıxararaq tarixi silkələyən qadın: Zərrintac Tahirə



XIX əsrin sakit qaranlığında bir qadın səsini ucaltdı – elə bir səs ki, yalnız bir dövrü deyil, bütöv bir düşüncə sistemini silkələdi. Bu qadın Zərrintac Tahirə, yəni xalq arasında tanındığı adı ilə Tahirə Qürrətüleyn idi. O, bir zamanlar yalnız kişilərə aid sayılan düşüncə meydanına daxil oldub öz sözünü dedi və sözün əsl mənasında adını tarixə yazdı..

Əsl adı Fatimə olan, lakin Tahirə Qürrətüleyn kimi tanınan bu şairə qadın 1818-ci ildə Güney Azərbaycanın Qəzvin şəhərində, dövrün tanınmış müctəhidi Hacı Molla Məhəmmədsaleh Bərəğaninin ailəsində doğulub.

Yüksək təhsil alan Tahirə sonralar Qacar xanədanlığını sarsıdacaq geniş dini-siyasi hərəkatın öncüllərindən birinə çevrilir. Bu hərəkat Seyid Əli Məhəmməd Babın rəhbərlik etdiyi Babilik idi.

İran cəmiyyətində qadının yalnız ev və ailə içində görünməsi qəbul edilərkən, Tahirə öz fikirlərini açıq şəkildə ifadə edirdi. Dərin dini və fəlsəfi biliklərə malik olan bu qadın, Babiliyin öncül simalarından biri kimi çıxış etdi və qadınların azadlığını təbliğ etdi. O yalnız dini islahatların yox, həm də qadın hüquqlarının ilk açıq müdafiəçilərindən biri oldu.

Tahirə Zərrintac bu yolda ailəsindən uzaqlaşır və əmisi oğlu olan yoldaşı Molla Məhəmmədlə boşanması ilə ailəsi ilə daimi düşmənçiliklərinin əsasını qoyur.

Tahirənin ən cəsarətli addımlarından biri çoxlarının hələ dilə gətirməyə belə cəsarət etmədiyi bir dövrdə çadrasını çıxararaq ictimaiyyət qarşısında çıxış etməsi idi. Tahirə, İranda keçirilən Bədəşt konfransında (1848-ci il) hicabını çıxaran ilk qadın olub. Bu hadisə yalnız dini deyil, eyni zamanda cəmiyyətin qadınlara baxışına qarşı inqilabi bir etiraz idi. O an yüzlərlə insanın qarşısında hicabsız çıxış etməsi bir çoxlarını şoka salmışdı, lakin bu, fikir azadlığı və qadınların görünürlüyü üçün mühüm simvola çevrildi. Hansı ki, qadınların susmaması, görünməsi və düşüncələri ilə cəmiyyətə qatılmasına dair bir simvol. O, bu hərəkəti ilə təkcə İran cəmiyyətində deyil, bütün Şərqdə qadın azadlığı mövzusunda bir dönüş nöqtəsi yaratdı.

Zərrintacın 18 mürid arasında yeganə qadın olması, bu hərəkata qoşulma səbəbi qadın azadlığı olmuşdur, o, Tanrı qatında kişi və qadının hər zaman bərabər qalmasını istəyirdi. Qadın azadlığı uğrunda savaş Qacar dövlətinin hökmranlıq etdiyi bir dövrdə olduqca qətiyyətli addım idi.

Ancaq cəsarətin də bir bədəli olur. Məhəmməd Əmin Rəsulzadənin "Azərbaycan mədəniyyət ənənələri" məqaləsində belə bir yazı əksini tapıb:

"Tehranda Nəsrəddin şahın əmrilə özünü diri-diri yandırmağa məhkum etdilər. Ona "dinini tərk et, şah səni bağışlar", -dedilər.

Fəqət o:

"Bən dedim kim, sən səməndər ol da, ya pərvanə ol,
Çünki yanmaq niyyətindir, dönmə dur, mərdanə ol!"
Beytini söyləyərək yandı".

Türk şairi Süleyman Nazif isə onun haqqında yazırdı:

"O, Janna Darkdan daha mötəbər, daha gerçək, daha görkəmli və daha böyük qəhrəmandır. Həvvadan tutmuş doğulacaq son qız övladına qədər, hər bir kəs Qəzvindən olan bu gənc türk qadınını xatırlayarkən gözləri yaşaracaq və qürurla dolacaq. Ah! Təəssüf, Qürrətüleyn! Sən min Nəsrəddin şaha, min Qacar sülaləsinə dəyərdin. Sənin qatillərin sənin külünü Tehranın üfüqlərinə səpmədilər, xeyr, o üfüqlərdən bəşəriyyətin ürəklərinə səpdilər. Hər bir ürək sənin məskənindir, Tahirə!".

Mirzə Fətəli Axundzadə və Mirzə Kazım bəy kimi dahi mütəfəkkirlərimiz Zərrintacı atəşin təbə malik qeyrətli və hümmətli qızı, qeyri-adi dərəcədə yüksək təhsil alış alim, sözə hakim kimi qiymətləndirmişdilər.

Bu gün Zərrintac Tahirə yalnız bir şair və dini xadim kimi deyil, feminist düşüncənin erkən səsi, publisistik cəsarətin və ictimai oyanışın ilham mənbəyi kimi xatırlanır. O, öz dövründə sadəcə bir qadın deyil, bir cəmiyyətin səsini, bir millətin vicdanını, bir xalqın ümidini daşıyan şəxsiyyət idi. Tahirənin həyatı və fikirləri yalnız bir tarixi şəxsiyyətin bioqrafiyası deyil, həm də düşüncə azadlığının, qadın haqlarının və cəsarətin simvoludur. O, bir əsrin yox, bir düşüncə axınının öncüsüdür.

Onun yanmaqdan qorxmayan ürəyi, bu gün də bizə cəsarət verir. Biz, XXI əsrin insanları olaraq, bəzən danışmağa, fikir bildirməyə, haqsızlığa "yox" deməyə çəkinəndə, Tahirənin susmadığı dövrü xatırlamalıyıq.

Zərrintac Tahirə sadəcə çadrasını çıxarmadı. O, qadının səsini, simasını və şəxsiyyətini işığa çıxardı. Tahirə tarixdə bir ad olaraq yox, bir ideya olaraq yaşadı və yaşayır. O, bir daha sübut etdi ki, zaman dəyişsə də, azadlıq eşqi heç vaxt ölmür.

**Elnurə CƏFƏROVA**
***Jurnalistika ixtisası üzrə III kurs tələbəsi***

## MƏN ADAMLARI GÖZLƏRİNDƏN TANIYIRAM

Mən adamları gözlərindən tanıyıram.
Gözlərin altı kölgələnibsə,
Ömrün harasındasa günəş batıb.
Ürəkdə yer dolanda
Dərd gəlib Gözlərin altındakı torbada yığılır.
Uşaqların gözləri
Kiçik hekayələrini danışır.
Hansı daha çox əzizlənib,
Hansı daha çox əzilib?
Hansı gedib küncİərdə gizlənib?
Qorxanı kim, susanı kim…
Mən adamları gözlərindən tanıyıram.
Təzə aşiq olanlar, məsələn,
Gözlərində günəş şəfəqləri,
Çiçəkdən çiçəyə uçuşan ağ kəpənəklər,
Lap o emojidəki kimi,
Gözlərdən çıxan ürəklər…
Gözdən düşən adamlar
Ürəyə dəyir, sonra düşür.
Özləri gedir, izləri qalır.
Baxışlar nə qədər soyuqdursa,
Deməli, gözdən o qədər adam düşüb.
Gözləri unutmaq olmur,
Barmaq izi qədər baxış izi var dünyada.
Mən adamları gözlərindən tanıyıram.
Bir balaca qara düyməyə
Nələr sığdırarmış insan?
Əllərin qabarı da orada,
Ürəyin qübarı da orada,
Saçın qarı da orada…
Soyun əllərini,
Soyun ürəyini,
Soyun saçını,
Qaçırma gözlərini,
Gözlərin hanı?!

**Gülay Tahirli**

## İNDİ BÜTÖV VƏTƏN VAR!!.

Güney qalxıb ayağa,
Yatmış vulkan oyandı.
Oyanışın mübarək!
İki yüz əlli milyon
Türk arxanda dayanıb-
Bir canda çarpan ürək.
Torpaq mənim torpağım,
Bayraq mənim bayrağım-
Ucalığa gedən yol.
O bayrağı qaldıran,
O torpağı qoruyan
milyon-milyon məğrur qol.
Bu oyanış dağ seli
Gücü yer-göy oynadır,
tarixi yaza-yaza.
Hər ürək od püskürür
Vətən qeyrət qalası
hər oğula, hər qıza.

Yağı düşmən illərdi
Taladı od yurdumu-
torpağımı,daşımı.
Zaman o zaman deyil,
İndi qardaş qoruyur
öz doğma qardaşını.
Daha Güney, Quzey yox-
İndi bütöv Vətən var-
Yenilməz Vətən andı.
Mübarəkdi, Təbrizim,
Urmu, gözümüz aydın,
Yatmış vulkan oyandı!!

**Xanəli Kərimli**
**filologiya üzrə fəlsəfə doktoru, dosent**

Baş redaktor: Şəhla Şirəliyeva
shshahla36@gmail.com

Ünvan: AZ 7012, Naxçıvan şəhəri Universitet şəhərciyi
Telefon: 544-08-61 (1360)
yenifikir.ndu@gmail.com

Qeydiyyat № 330
Sifariş № 370
Tiraj 300

Dizayner: SAHİLƏ ABBASOVA
"Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində ofset üsulu ilə çap olunmuşdur.